Bu bir xalq qəzetidi
ƏDALƏT

## "Dostumuzu birlikdə dost görür, düşmənimizi birlikdə düşmən bilirik"



**"Dostumuzu birlikdə dost görür, düşmənimizi də yenə birlikdə düşmən bilirik".**

Adalet.az "CNN Türk"ə istinadən xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin ölkəmizdə keçirilən birgə hərbi təlimlərində çıxışı zamanı deyib.

O bildirib ki, Türkiyə və Azərbaycana qarşı təxribatların haradan, kimdən gəlməsindən asılı olmayaraq hər iki tərəfə istiqamətlənmiş kimi qəbul edilir:

"Buna kimsənin şübhəsi olmasın".

## "France 24" telekanalı separatizmi təbliğ edir"




**"France 24" telekanalının qondarma respublikanın "nümayəndəsindən" müsahibəsi separatizmi təbliğ edir".**

Adalet.az-ın məlumatına görə, bunu Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva sözügedən kanalın separatçı rejimin qondarma rəhbəri Arayik Arutyunyandan müsahibə götürməsinə münasibət bildirərkən bəyan edib.

Diplomat belə müsahibələrin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirdiyini, həmçinin gərginliyi artıraraq sülh səylərinə ziyan verdiyini vurğulayıb.

## *Azərbaycan-Türkiyə sərhəd-buraxılış məntəqələrində nəqliyyatın keçidi sürətlənəcək*

**Azərbaycan və Türkiyə arasında sərhəd-buraxılış məntəqələrində nəqliyyat vasitələrinin sürətli keçidi təmin olunacaq.**

Dövlət Gömrük Komitəsinin (DGK) verdiyi məlumata görə, bu barədə DGK sədrinin müavini Bəhruz Quliyev və Türkiyənin Dilucu Gömrük Müdirliyinin müdir vəkili Erdan Esenin rəhbərlik etdikləri nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə bildirilib.

Görüşdə bu istiqamətdə imkanların artırılması məsələləri müzakirə edilib.

Qeyd olunub ki, hər iki ölkənin gömrükçüləri arasında keçirilən görüş əməkdaşlığın daha da dərinləşməsinə və əlaqələrin genişlənməsinə öz töhfəsini verəcək.

## Prezident daxili işlər nazirinin müavinini təltif edib



**Oruc İbrahim oğlu Zalov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.**

Adalet.az xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncama əsasən, o, Azərbaycanın daxili işlər orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

Qeyd edək ki, dekabrın 7-də 70 yaşı tamam olmuş Oruc Zalov daxili işlər nazirinin müavini vəzifəsində çalışır. O, polis general-leytenantıdır.

## *Aqil Abbas:* "Hadisələr sülhməramlıların gözünün qarşısında olur, adlarını sülənənməramlı qoymuşam"

**"Terroru maliyyələşdirən ABŞ, Fransa və Rusiyadır. Bu günə qədər də Ermənistanı silahlandıran bu ölkələrdir".**

APA xəbər verir ki, bunu Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin birgə iclasında deputat Aqil Abbas bildirib.

Aqil Abbas deyib ki, sadəlövh olmayaq:

"Bu gün bütün hadisələr sülhməramlıların gözlərinin qarşısında olur.

Mən onların adını sülənənməramlı qoymuşam. Bunların adını çəkməkdən qorxmayaq. İran da namərd ölkədir. Bunu bilirik. Amma o birilərin də adını çəkək".

## Azərbaycan və Türkiyənin generalları görüşdü



**Türkiyədə səfərdə olan Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin rektoru general-leytenant Heydər Piriyev qardaş ölkənin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler və Baş Qərargahın ikinci rəisi ordu generalı Selçuk Bayraktaroğlu ilə görüşüb.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib.

Görüşlər zamanı ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran mövzulara dair ətraflı fikir mübadiləsi aparılıb.

## Tibb işçilərinin maaşlarına əlavənin verilmə müddəti uzadıldı



**"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına verilən əlavənin müddəti uzadılır.**

Adalet.az xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, bu müddət 2023-cü il yanvarın 1-dək kimi uzadılıb.

Qeyd edək ki, əvvəl bu müddət 2022-ci il noyabrın 1-nə kimi nəzərdə tutulmuşdu.

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 53 (5990) 10 dekabr 2022-ci il
Qiyməti 30 qəpik

**Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri Mahmud Nəbiyev vəfat edib.**

**Allah rəhmət etsin!**



# NAZİR PREZİDENTƏ RAPORT VERDİ



Bax:səh-2

## *Rusiya sülhməramlılarının komandanlığına xəbərdarlıq edildi*



**Monitorinq qrupunun Rusiya sülhməramlı qüvvələrinin komandanlığı ilə müzakirələri normal şəraitdə baş tutdu.**

Adalet.az xəbər verir ki, bunu apa-ya İqtisadiyyat Nazirliyinin nümayəndəsi Məsim Məmmədov bildirib.

Onun sözlərinə görə, monitorinq qrupu aidiyyəti üzrə fikirlərini bildirib və təkliflərini təqdim edib.

Nazirlik nümayəndəsi qeyd edib ki, təbii ehtiyatların qanunsuz istismarına, yataqların qeyri-qanuni işlənməsinə imkan verilməyəcəyi Rusiya sülhməramlılarının komandanlığının diqqətinə çatdırılıb.

Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşlarından ibarət təbii ehtiyatların qanunsuz istismarını araşdıracaq monitorinq qrupunun Rusiya sülhməramlı qüvvələrinin komandanlığı ilə müzakirələri başa çatıb. Monitorinq qrupunun Rusiya sülhməramlı kontingentinin komandanı, general-mayor Andrey Volkovla danışıqları sülhməramlıların Xocalıdakı qərargahında baş tutub.

## BİZƏ QƏZET LAZIM DEYİL!

**Son illər qəzetlərin üzərinə bir səlib yürüşü təşkil ediblər. Gözəgörünməz qüvvələr qəzetləri hörmətdən salmaq üçün bütün vasitələrdən istifadə edirlər. Təki qəzetlər hörmətdən düşsün, bağlansın. Və əsas gücü verirlər saytlara. Çünki saytlarla işləmək asandır, istənilən vaxt istənilən materialı saytdan çıxarmaq olur, amma qəzetdən yox. Qəzet sənəddi, yüz il, min il qalır arxivdə. Amma saytlardan pozdurarsan, ya da Amerika istədiyi vaxt saytları bağlayar, vsyo.**



Deməli, iş o yerə çatıb ki, bir çox rayonlarda hətta qəzet köşkləri yoxdur. Yəni oxucu istədiyi qəzeti istədiyi köşkdən ala bilməz. Qəzet köşkləri olmayan rayonların siyahısı məndə var, amma yazmıram. Yeni ilə qədər gözləyəcəm, hansı rayonda qəzet köşkü yoxdursa onda həmin rayonun icra başçısı, əleykümə salam.

Yeri gəlmişkən, heç bir rayonda kitab mağazası da yoxdur. Oxucu kitabı hardan alsın? Elə bil ki, bu millətin qəsdinə durublar - kitab oxuma, qəzet oxuma, yalnız sosial şəbəkələrdə trolların yazılarını oxu. Millətə qarşı düşmənçilikdi, bunu icra edənlər fərqindədirlərmi?

Deyəcəksiniz ki, qəzetlərə abunə olsunlar. Abunə də siyahıyladı, hansı qəzetə nə qədər, siyahı yuxarıdan verilir. Hətta elə bir siyahı verilir ki, icra başçıları siyahıdakı qəzetləri yazdıra bilmir, ona görə ki, əllərində heç bir təşkilat qalmayıb ki, onlara deyə bilsinlər.

**Problem böyükdür, mövzuya qayıdacağıq.**

## 300 MİLYARDIN ÜSTÜNƏ BİR 15 MİLYARD DA GƏLƏRDİZ DƏ



**Qətər Dünya Çempionatının onlarda keçirilməsi üçün 300 milyard dollar pul xərcləyib, hələ mən Fransanın prezidenti Sarkoziyə və UEFA-nın başqanı Platiniyə verdikləri rüşvəti yazmıram.**

Nəticədə 300 milyard çezdi, qrupdakı üç oyunun üçünü də uduzdular. Ay avaralar, 300 milyardı xərcləmisiniz, bir 15 milyard da xərcləyərdiniz Mbappenin, Jirunun, Messinin, Dembelenin, Ronaldonun, Levandovskinin və sair və ilaxır hərəsinə bir milyard verərdiniz, gətirərdiniz Qətərə, bir az da pasport-stola yüz min verərdiniz onlara vətəndaşlıq verərdi, bir üç aylıq, çempion olardınız vəssalam-şüttamam.

300 milyardın yanında 15 milyard nədir ki, quzu balası kimi gələrdilər.

İndi oxuyuram ki, bir ərəb ölkəsi Ronaldoya 200 milyon dollar təklif edib, hər oyun üçün də ayrıca pullar.

Ərəb ağlıdır da, neyləyək.

## *Azərbaycanda şagirdlərin neçə faizi siqaret çəkir?*

**Məktəbli uşaqlar arasında sağlam vərdişlərin tədqiqi ilə bağlı aparılan sorğuların nəticəsi açıqlanıb.**

Adalet.az xəbər verir ki, bunu Səhiyyə Nazirliyi yanında İctimai Səhiyyə və İslahatlar Mərkəzinin mütəxəssisi Səbinə Babazadə "Sağlam çəkiyə doğru" layihəsinin təqdimat mərasimində deyib.

O bildirib ki, sorğu 52 rayon üzrə 157 məktəbdə aparılıb: "Respondentlərin 48 faizi oğlan, 52 faizi qızlar olub. 501 sinif üzrə aparılan sorğu zamanı məlum olub ki, şagirdlərin 90 faizdən çoxu sağlamlıqlarını qənaətbəxş hesab edirlər. Sorğuda iştirak edənlərin 0,4 faizi özünü bədbəxt hiss etdiyini deyib. Sorğu zamanı həmçinin məlum olub ki, şagirdlərin 5 faizi siqaret çəkir".

## *Ceyhun Rzayev: "Evdə azərbaycanca danış, ana dilini yaxşı bilmirsən"*



**Zeynəbim öz məktəbindən 50 metr aralıda yerləşən 44 saylı məktəbin dördüncü mərtəbəsində hazırlıq keçir. Kitab dolu çantalar ağırdır, 7 yaşlı uşaqlar o ağır çantalarla 4 mərtəbə qalxana kimi təngnəfəs olurlar. Hazırlığa 7 uşaq gedir. Hamısına öz balam kimi baxıram. 7 çantanı birtəhər götürüb, 4 mərtəbə qalxıram. Hərdən müəllimə insafa gəlib deyir ki, "позвольте, я вам помогу". Cavab verirəm ki, "narahat olmayın, Adeliya xanım, öhdəsindən gələrəm". Öhdəsindən gəlməyə gəlirəm e, amma yorulur, tərləyirəm. Uşaqları sinifə yerləşdirir, gödəkçə və paltolarını asılqandan asır, qızımı öpür, sinifdən çıxıram. Sinifdən çıxarkən qızımın rəfiqəsi Fuadaya irad tuturam ki, "evdə azərbaycanca danış, ana dilini yaxşı bilmirsən".**

## İSVEÇRƏLİ OLMAQ XOŞBƏXTLİKDİ, DAY NƏ İSTƏYİRSİNİZ?



**Deməli, Dünya Çempionatında İsveçrə Portuqaliyaya 1:6 hesabı ilə uduzdu. Mən bir az pis oldum. İsveçrənin uduzmağına yox, Murat Yakının baş məşqçisi olduğu komandanın uduzmağına görə. Bu çempionatda İlkər Gündoğara görə Almaniyanı, Əziz Behiçə görə Avstraliyanı və təbii ki, Murat Yakına görə İsveçrənin uduzmağını istəmirdim.**

Ümumiyyətlə, mən dünya futbolunda harda türk oynayırsa həmin komanda uduzanda pis oluram. O cümlədən İran da uduzanda pis oldum.

Portuqaliya Braziliya kimi oynayırdı, amma baş məşqçiləri Murat Yakına bir torba tikmişdi, bu da Ronaldo idi. Murat Yakın bütün oyunu qurmuşdu Ronaldonun üstünə. Ronaldonu da oyuna salmadılar və İsveçrənin bütün sistemi pozuldu. Nəticə də biabırçı oldu. Amma isveçrəlilər buna dilxor olmalı deyillər. İsveçrəli olmaq onlara bəs eləmir ki? Qoy bir kasıb ölkənin komandası çıxsın da, onlar da sevinsin.

**İsveçrəli olmaq nə demək? Bu barədə ətraflı yazını gözləyin.**

## Armen Qriqoryan: "Bakı ilə İrəvan arasında sülh sazişinin bir bəndi razılaşdırılıb"

**"İrəvanla Bakı arasında sülh müqaviləsinin yalnız bir bəndi - Vyana Konvensiyasına uyğun olaraq diplomatik münasibətlərin qurulması barədə razılıq əldə olunub".**

Bu açıqlama ilə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan çıxış edib. Armen Qriqoryan söyləyib ki, sülh müqaviləsinin mətni artıq üç dəfə redaktə olunub və hazırda Ermənistan tərəfi onun üzərində işləyir. "Sülh müqaviləsinin digər bəndləri üzrə dəqiq razılaşma əldə edilməyib. Söhbət Qarabağdan, sərhədin delimitasiyası və demarkasiyasından, kommunikasiyaların açılması və humanitar məsələlərdən gedir", - deyə Armen Qriqoryan bildirib.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## XƏYYAM ÇƏLƏBİ, TROLLUQ ELƏMƏK SƏNƏ YARAŞMAZ



*Bir nəfər Elman Eldaroğlu adında tanımadığım şəxs sosial şəbəkədə mənim haqqımda xoş bir yazı paylaşıb. Təsadüfən bir 15-20 gün bundan əvvəl "Real" TV-də Mirşahinin otağında bu adamla rastlaşmışam, tanış olmuşam. Həmin ərəfədə də təxminən 20-30 dəqiqə arasında mənə seçicilərimdən 10-15 zəng gəlib, vəssalam-şüttamam. Zənglərə verdiyi cavabları da eşidib və gedib mənim haqqımda xoş bir yazı yazıb, sağ olsun. Məsələ yazıda deyil.*

*Sonra kimsə mənə zəng etdi ki, Elman Eldaroğlunun sənin haqqında yazdığı yazını oxu. Təbii ki, oxudum, xoşuma da gəldi. Redaksiyaya da zəng etdim ki, qoyun səhifəyə.*

*Məsələ nədi? Yazının altında şərhlər var, şərhlər demək olar ki, yazını təqdir edir. Bu vaxt Xəyyam Çələbi adlı bir nəfər də iki şərh yazır. Və mənə böhtan atır, tamamilə yanlış bir status yazır və mənim millət vəkilliyimə ləkə atır. Əlbəttə, mən onu məhkəməyə də verə bilərəm, amma ayıb olar. Ona görə ki, bu adam yazır qaziyəm, iki ayağım da yoxdur və guya altı ay mənim qəbuluma düşmək istəyib, düşə bilməyib. Allah şəfa versin, həm özünə, həm də ağlına.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

Vəli Xramçaylı bufetçi Anarla nəşriyyatın qarşısında dayanan taksi sürücüsünə yaxınlaşırlar. Vəli taksi sürücüsünə:

**-Qardaş, məni "Gəncliyə" neçəyə aparansan?**

Sürücü:





**- 5 manata.**

Vəli:

**- Bəs dostum Anarla getsəm neçəyə apararsan?**

Sürücü təəcüblə:

**- 5 manata.**

Vəli üzünü Anara çevirərək:

**-Saa deyirdimmi ki, mənsiz sənin heç bir qəpik də qiymətin yoxdur.**

# NAZİR PREZİDENTƏ RAPORT VERDİ



**Dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən alınmış və işğaldan azad olunmuş ərazilərdə istifadə ediləcək xüsusi təyinatlı texnikalar və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olub.**

Adalet.az xəbər verir ki, fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov dövlətimizin başçısına raport verib. Prezident İlham Əliyevə məlumat verilib ki, işğaldan azad edilmiş ərazilərdə yanğından mühafizə üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən "KamAZ" markalı 100 yanğınsöndürən və "İveco" markalı 50 xüsusi təyinatlı yanğınsöndürən avtomobil alınıb. "İveco" markalı avtomobillərdən 9-u artıq idxal olunub, 41-nin idxalı isə 2023-cü ilin birinci rübündə nəzərdə tutulur. Bildirilib ki, "KamAZ" və "İveco" markalı avtomobillərdən xüsusilə yanğın yerinə şəxsi heyətin, yanğın texniki və xilasedici avadanlıqların, suyun və köpükəmələgətirən maddələrin daşınması, yanğın yerinin fasiləsiz olaraq odsöndürücü maddələrlə təmin edilməsi, çoxmərtəbəli binalardan insanların təxliyəsi və əşyaların çıxarılması, xilasedici və yanğınsöndürənlərin yuxarı mərtəbələrə qaldırılması, lafet lüləsi vasitəsilə yüksəklikdə yanğınların söndürülməsi, yanğın yerinin işıqlandırılması, eyni zamanda, digər köməkçi işlərin görülməsi üçün istifadə olunacaq. Diqqətə çatdırılıb ki, müxtəlif texnogen, təbii qəzalar və yol-nəqliyyat hadisələri zamanı xüsusi xilasetmə işlərinin aparılması, işğaldan azad edilmiş ərazilərdə yüklərin və köməkçi materialların daşınması üçün FHN tərəfindən "Nissan Patrol" markalı 5, "Lada Niva Travel" markalı 11 və "QAZel" markalı 6 avtomobil (onlardan 3-ü idxal edilib, digərləri isə cari ilin sonunadək idxal olunacaq) alınıb.

Bildirilib ki, nazirlik tərəfindən alınan "GCS (Global Clearance Solutions) - 200" markalı, dizel mühərrikli, kənardan idarəedilən, müasir minatəmizləyən 4 robot işğaldan azad olunmuş rayonlarda piyada və tank əleyhinə minalarla çirklənmiş ərazilərin təmizlənməsi işlərində istifadə olunacaq. Təqdim edilən texnikalar arasında "Ural" markalı avtomobillər də var. Bu avtomobillərdən də yanğın hadisəsi zamanı yüklərin daşınması və digər işlərin həyata keçirilməsi üçün nəzərdə tutulub. Sonra dövlətimizin başçısı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobillərinə baxıb. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev məlumat verib ki, artan tələbatın və yeni yaradılmış tibb mərkəzlərinin, məntəqələrin, o cümlədən işğaldan azad olunmuş ərazilərimizdə inşa edilən xəstəxanaların təcili tibbi yardım avtomobilləri ilə təmin edilməsi diqqət mərkəzindədir. Agentlik tərəfindən 2020-ci ildən indiyədək 84 ədəd "Fiat Doblo", 131 ədəd "Mercedes", 34 ədəd "Ford Transit" markasına aid olan ümumilikdə 249 təcili tibbi yardım avtomobili satın alınıb. Həmçinin xüsusi 2 diferensiallı (4x4) "Mercedes Vito" avtomobilləri dağlıq relyefdə və yolsuzluq şəraitində təcili tibbi yardım briqadasının rahat və təhlükəsiz hərəkətini təmin edir. Həmin avtomobillərdən 44 günlük Vətən müharibəsi zamanı çətin və yolsuzluq şəraitlərində yaralıların təxliyəsində istifadə olunub. Bildirilib ki, Bakı şəhəri və respublikanın digər şəhər və rayonlarında fəaliyyət göstərən tibb müəssisələrinin, təcili və təxirəsalınmaz tibbi yardım məntəqələrinin ümumilikdə 1487 ədəd təcili tibbi yardım avtomobili ilə təmin edilməsi nəzərdə tutulub və indiyədək tibb müəssisələri 909 tibbi yardım avtomobili ilə təmin edilib. Təqdim edilən "Mercedes-Benz" markalı təcili tibbi yardım avtomobillərinin 37-si sadə diferensiallı, 7-si xüsusi 2 diferensiallı, 20-si reanimobil və 1-i perinatal küvezli olmaqla, ümumilikdə 65 ədəddir. Avtomobillər xəstə tibb müəssisəsinə aparılarkən artıq yolda müalicəyə başlamağa imkan verən geniş çeşiddə dərmanlar və tibbi avadanlıqlar ilə təmin edilib. Belə ki, avtomobillərin komplektasiyası istənilən vəziyyətdə olan pasiyentlərin daşınmasına imkan verir.

Yeni alınmış təcili tibbi yardım avtomobillərinin bölgüsü aparıldıqdan sonra ümumilikdə ölkə üzrə istifadədə olan təcili tibbi yardım avtomobillərinin sayı 974 olacaq. Respublikamızda təbii və texnogen xarakterli fövqəladə halların vaxtında xəbərdar edilməsi, nəticələrinin çevik və səmərəli şəkildə aradan qaldırılması işinin vahid mərkəzdən idarə olunması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli Sərəncamı ilə Fövqəladə Hallar Nazirliyi yaradılıb. Beləliklə, fəlakətlərlə mübarizə işinin təşkilinə dövlət səviyyəsində sistemli yanaşmada yeni bir mərhələnin əsası qoyulub. Əhalinin mülki müdafiəsinin, yanğın təhlükəsizliyinin, su hövzələrində insanların təhlükəsizliyinin və xilasetmə işlərinin təşkili, ölkə ərazisində radioaktiv tullantıların zərərsizləşdirilməsi, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyə və tikintidə təhlükəsizliyə nəzarət kimi mühüm vəzifələri yerinə yetirən bir neçə dövlət qurumunun Fövqəladə Hallar Nazirliyinin tabeliyinə verilməsi əhalinin və ərazilərin fövqəladə hallardan daha etibarlı müdafiəsinin təmin olunması sahəsində mühüm rol oynayıb. Nazirlik tərəfindən ötən dövr ərzində fəlakətlərin sistemli qaydada mərkəzləşdirilmiş idarə olunmasını təmin etmək üçün zəruri normativ hüquqi və maddi-texniki bazanın formalaşdırılması, müxtəlif funksiyaları həyata keçirən qurumlar arasında əlaqəli fəaliyyətin təşkili istiqamətində zəruri işlər görülüb. Nazirliyin fəaliyyətində operativliyin artırılması məqsədilə zamanın çağırış və təhdidləri nəzərə alınaraq müvafiq struktur dəyişiklikləri aparıldı, regional mərkəzlərin fəaliyyəti təmin olunub. Bir sözlə, ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı nəticəsində Fövqəladə Hallar Nazirliyi maddi-texniki cəhətdən hərtərəfli şəkildə təmin edilmiş və qarşısına qoyulmuş məsuliyyətli vəzifələrin öhdəsindən uğurla gəlmək iqtidarında olan mobil bir quruma çevrilib. Azərbaycan vətəndaşlarının təhlükəsiz həyat və fəaliyyətinin təmin olunmasını ali məqsədi hesab edən Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti dəfələrlə çətin sınaqların öhdəsindən layiqincə gəlib. Ötən illər ərzində yaşayış, sənaye və ictimai-iaşə obyektlərində, o cümlədən iri ticarət mərkəzlərində, meşə və açıq sahələrdə baş vermiş yanğınlar, sel və daşqınlar, uçqun, dağıntı, sürüşmə hadisələri, zəlzələlər və digər fövqəladə hadisələr zamanı operativ və səmərəli müdaxilə tədbirləri ilə nazirliyin qəza-xilasetmə qurumları öz peşəkarlıqlarını nümayiş etdiriblər.

Fövqəladə Hallar Nazirliyi yaradılarkən tabeliyinə verilən qurumların balansında olan xüsusi təyinatlı avtomobillərin və digər nəqliyyat vasitələrinin, avadanlıqların əksər hissəsi mənəvi və fiziki cəhətdən köhnəldiyinə görə müasir tələblərə cavab vermirdi. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, nazirliyin texnika parkının müasirləşdirilməsi istiqamətində ciddi addımlar atılıb, büdcə vəsaitləri hesabına dünyanın ən qabaqcıl ölkələrinin istehsalı olan müxtəlif təyinatlı maşın və avadanlıqlar alınıb. Nazirliyin qurumlarında əsaslı təmir və yenidənqurma işlərinə xüsusi diqqət göstərilib, yararsız inzibati və texniki binalar, depolar əsaslı təmir olunub, yeniləri tikilərək istifadəyə verilib. Bölgələrdə 9 regional mərkəzin fəaliyyəti təmin edilib. Artıq müasir yanğınsöndürmə, qəza-xilasetmə maşınlarının, fövqəladə hallar zamanı hadisə yerində böhranları idarə etmək üçün ən müasir rabitə sistemləri ilə təchiz olunmuş və nazirliyin qurumları ilə videokonfrans əlaqəsi yaratmaq gücünə malik mobil qərargah - avtobusun, radiosistemli xüsusi təyinatlı avtomobillərin, hündürlük nərdivanlarının, xilasetmə işlərinin aparılmasında istifadə olunan xüsusi texnikaların, motosikletlərin, mina və hərbi sursatların aşkar edilməsi və zərərsizləşdirilməsi sistemlərinin, dənizdə xilasetmə əməliyyatları üçün yüksək sürətli və çoxfunksiyalı katerlərin, xilasedici qayıqların, axtarış gəmilərinin, yanğınsöndürmə və digər xilasetmə funksiyalarını həyata keçirən "Be-200 ÇS" amfibiya-təyyarənin, helikopterlərin, tikintilərin mövcud texniki təhlükəsizlik normaları və qaydalarına uyğun aparılmasına nəzarəti həyata keçirmək üçün səyyar laboratoriyaların, fövqəladə hadisə baş vermiş ərazidə, yol şəraiti çətin olan yerlərdə qısa müddət ərzində zərərçəkənlərə tam həcmli tibbi yardım göstərmək üçün mobil hospitalların, yüzlərlə müxtəlif təyinatlı digər xüsusi texniki avadanlıqların imkanlarından gündəlik iş prosesində bacarıqla istifadə edilir. Onu da qeyd edək ki, FHN-in qüvvə və vasitələri digər aidiyyəti dövlət orqanları ilə birlikdə ilk günlərdən işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə işlərinə fəal şəkildə cəlb edilib. Nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin istehkam qrupları tərəfindən 2021-ci ilin yanvar ayından etibarən Ağdam və Füzuli rayonlarında minatəmizləmə əməliyyatları aparılır.

Minaaxtarma işlərinin keyfiyyətinin yüksəldilməsi və sürətləndirilməsi məqsədilə qısa müddət ərzində dislokasiya məntəqəsi Bərdə şəhərində olmaqla Nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin "N" saylı hərbi hissəsi yaradılıb. Hazırda hərbi hissənin ən müasir texnika və avandanlıqlarla komplektləşdirilməsi işləri sürətlə davam etdirilir.

# Ümummilli Lider Heydər Əliyev – Fenomenal siyasətçi, dövlət xadimi

**Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvanda anadan olub. 1944-cü ildən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləyib, general-mayor rütbəsinə qədər yüksəlib. Həmin illərdə o, Leninqradda (Sankt-Peterburq) xüsusi ali təhsil alıb, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib. 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib. 1982-ci ilin dekabrında Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib və SSRİ-nin rəhbərlərindən biri olub. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verib.**

Heydər Əliyevin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər önəmli rol oynayırdı. Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Ulu Öndər Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi dövrdə sənaye, o cümlədən yüngül sənaye və kənd təsərrüfatı ən parlaq inkişaf dövrünü yaşamışdır.

20 Yanvar hadisələrinə ilk hüquqi qiymətin verilməsi Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsinin nəticəsidir.1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Ulu Öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını qarşısında ittiham etdi, ifşaedici və cəsarətli bir bəyanat verdi.

Ulu Öndər Heydər Əliyev Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə cavab olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev qısa müddət Bakıda qaldıqdan sonra Naxçıvanda yaşayıb, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilib. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikasının Ali Soveti sədrinin müavini olub.

Ümummilli partiyaya sədr seçilməklə Ulu Öndər böyük siyasətə qayıtdı. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilib.

Ulu Öndərin təcrübəsi və siyasi peşəkarlığı sayəsində YAP ölkənin ən böyük və effektiv siyasi qüvvəsinə çevrilmişdir. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi.

Xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildivə iyunun 24-dən Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Prezident seçilməsi Azərbaycan xalqını qurtuluşa aparan yolun ilk addımıdır. Ulu Öndər 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək Azərbaycanı böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaratdı. O, 1998-ci il oktyabrın 11-də keçirilən növbəti prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Ulu Öndərin müdrik siyasəti nəticəsində Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlətə çevrilmişdir. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycan dövlət müstəqilliyinin qurucusu kimi qəbul edir. Onun rəhbərliyi altında dövlətçiliyin əsasları qoyuldu və ciddi islahatlara start verildi. Azərbaycan beynəlxalq aləmdə öz möhkəm yerini tuta bildi. Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Heydər Əliyev müstəqilliyi, dövlət maraqlarını, xalqımızın, dövlətimizin maraqlarını qoruyacaq və xalqımızın inkişafı ilə bağlı ən düzgün qərar verəcəkdir. Xalqla iqtidar arasındakı birlik ölkənin uğurlarının əsas səbəbidir.

"Əsrin müqaviləsi" 1994-cü ilin sentyabr ayının 20-də Azərbaycanın Dövlət Neft Şirkəti ilə 6 ölkənin 10 şirkəti arasında bağlanmışdır. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. "Əsrin müqaviləsi" Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmişdir. Həmin müqavilə daha sonra 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına yol açmışdır. Ulu Öndər Heydər Əliyev demişdi: "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan



dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır."

1993-2003-cü illərdə Azərbaycanın sürətli inkişafı bugünkü reallıqların bünövrəsidir. Həmin illərdə görülmüş işlər sayəsində Azərbaycan inkişaf yoluna qədəm qoydu, beynəlxalq aləmdə daxili siyasətlə bağlı bütün məsələlərdə öz prinsipial mövqeyini nümayiş etdirdi, dünyada böyük hörmətə malik oldu. Ölkə daxilində başlanan islahatlar dövlətimiz üçün həlledici rol oynamışdır.

Ulu Öndər güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi.

Heydər Əliyevin ən böyük gücü dərin, universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi.

Heydər Əliyev idarəetmənin ustadı və siyasətin kamil bilicisi idi. Ulu Öndər deyirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini irəlicədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir.

Azərbaycan xalqının Ümummilli Lideri yüksək bəşəri keyfiyyətlərə, təvazökarlığa, hər şeydən öncə isə demokratik dövlət quruculuğu prinsiplərinə daim sadiq qalan böyük şəxsiyyət idi. Onun xalq işinə sədaqəti, siyasi müdrikliyi, böyük dövlətçilik təcrübəsi, parlaq hafizəsi, geniş dünyagörüşü, polad iradəsi, mərdanə qətiyyəti, həssas qəlbi, möhkəm səbri, çox hövsələliyi, ədalətli olması, həmişə obyektiv mövqe tutması, yüksək intellekti və ziyalı mövqeyi, dolğun tədbirliliyi və analitik təfəkkürü, sadə davranışı bir dövlət başçısı kimi onun ən yüksək keyfiyyətlərdəndir.

Ulu Öndərin dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri məftun edirdi. Onun nitqi dərin və konkret idi, müzakirə olunan məsələni yüksək səviyyədə ümumiləşdirmək bacarığına malik idi. Ulu Öndərin nitq və çıxışlarında artıq söz və ifadə, qeyri-dəqiq fakt və rəqəm olmur, fikirlərini son dərəcə cilalanmış şəkildə ifadə edirdi.

Müəllifi Ulu Öndər Heydər Əliyev olan milli ideologiya xalqın birliyini təmin edir.Milli ruhun yüksəlməsi, milli özünüdərkin inkişafı və xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsip və vəzifələrə xidmət edən Azərbaycançılıq məfkurəsi dövlətin qüdrətinin artırılmasında real siyasi amildir;

Söz azadlığı və demokratik ənənələrin dərinləşməsinə xidmət edən tarixi qərar.

Ulu Öndər Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edilib. Sözügedən fərman kütləvi informasiya vasitələrinin ölkədə sürətli inkişafını təmin edən əsas amillərdən birinə çevrildi. Ulu Öndər Heydər Əliyevin mətbuat işçiləri ilə mütəmadi təşkil olunan görüşləri və onun mövcud istiqamətdəki institusional təşəbbüsləri mətbuatın davamlı inkişafına səbəb olmuşdur. Milli mətbuatın inkişafına göstərilən dəstəyə görə Ulu Öndər Heydər Əliyev 2002-ci ildə Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən təsis olunmuş "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşlər.

**Millətin məhəbbətini qazanmış Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaqdır.Uzun müddət ABŞ-ın Klivlend klinikasında müalicə olunan Heydər Əliyev 2003-cü il dekabrın 12-də dünyasını dəyişdi.**

**Hazırladı:**
**Mehriban Cəfərova**

# Zəfər paradı qələbəmizin rəmzidir

**"Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. "Azərbaycan Respublikasının Prezidenti,Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyev.**

Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq Meydanında keçirilmiş Zəfər paradında 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı türk əsgər və zabitləri iştirak etmişdir. Paradda yerli və xarici rəsmi qonaqlar, diplomatik korpusun nümayəndələri də iştirak etmişdilər.

Şuşa şəhərininazad edilməsi Zəfərin rəmzi idi. Azərbaycan hərbçiləri tərəfindən şəhər üzərində qaldırılanZəfər bayrağıparada gətirilmişdir.

Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəsinə həsr olunmuş Zəfər paradında 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirilmişdir. Həmçinin, müharibə zamanı qənimət kimi ələ keçirilmişErmənistan Silahlı Qüvvələrinəməxsus hərbi texnikanın bir qismi nümayiş olunmuşdur.

44 günlük müharibənin hər günü şanlı tarixdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, işğala son qoyulsun və tarixi ədalət zəfər çalsın.

Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq.

Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə təkcə Ermənistanın silahlı qüvvələrini məhv etməyib, o, Erməni mifini də məhv etdi. Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi. Ermənistan ordusu eyni zamanda mənəvi məğlubiyyətə uğrayıb. Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub.



Vətən müharibəsində iştirak etmiş, aparılan döyüş əməliyyatlarının uğurla nəticələnməsinə töhfə vermiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və mülki işçiləri, habelə müvafiq qurumların ön cəbhədə fədakarlıq göstərmiş əməkdaşlar və mülki işçilər müxtəlif orden və medallarla təltif edilmişdir.

Qələbənin əbədiləşdirilməsinə xidmət edən təşəbbüs. Xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında Sərəncam imzalayıb, həmçinin Hərbi Qənimətlər Parkının salınmasının təşəbbüskarı olub.

Uzun illər ərzində ölkəmizin əsas büdcə xərcləri hərbi xərclər olmuşdur. Ordunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəldi, ordumuz müasir silah-sursat, texnika ilə təchiz edildi. Azərbaycan bir ölkədən asılı olmamaq üçün lazımi texnikanı bir çox mənbələrdən almışdı. Ordu quruculuğu hər zaman dövlət siyasətinin prioritet istiqaməti olub.

Qələbinin təminatı və rəsmiləşdirilməsi üçün siyasi və hüquqi baza yaradıldı. Siyasi sabitlik, vətəndaş birliyi təmin edildi. Xalqın dəstəyini hiss edərək çox inamlı islahatlar aparıldı və siyasi müstəvidə vəziyyət sağlamlaşdı. Beynəlxalq müstəvidə, beynəlxalq təşkilatlar tərəfindən bizə sərf edən önəmli qərarlar və qətnamələr qəbul edildi.

1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olmuşdu. Ermənistanın təcavüzkar siyasəti hələ 1980-ci illərin sonlarından başlamışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı Azərbaycanın tarixi torpaqlarıdır. Uzun illər ərzində bütün beynəlxalq tədbirlərdə və platformalarda Azərbaycan həqiqətlərini çatdırmaq istiqamətində böyük işlər aparılmışdır və bu işin səmərəsi oldu. Bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu dəstəklədi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər təşkilatlar Azərbaycanın haqq işini dəstəklədi. Beləliklə, münaqişənin həlli üçün hüquqi zəmin yaradılmışdır. Məqsədyönlü səylər nəticəsində münaqişə ilə bağlı, Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumat çatdırıldı.

2020-ci ilin 10 noyabr tarixində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı. Bu, onu göstərir ki, Azərbaycan müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanıb.

ParadıAzərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevvə fəxri qonaq qismində dəvət olunmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul etmişdir.

**İki ölkə rəhbərinin paradı birgə qəbul etməsi beynəlxalq ictimaiyyətə verilmiş ciddi mesajdır. Azərbaycan və türk əsgərlərinin çiyin-çiyinə Azadlıq meydanından keçməsi xalqların tarixində əbədi qalacaq qürurverici hadisədir. Vətən müharibəsinin ilk saatlarından etibarən Azərbaycan xalqı Türkiyənin dəstəyini hiss etdi.**

**Hazırladı:**
**Mehriban Cəfərova**

*Aqil ABBAS*

# XƏYYAM ÇƏLƏBİ, TROLLUQ ELƏMƏK SƏNƏ YARAŞMAZ

*Bir nəfər Elman Eldaroğlu adında tanımadığım şəxs sosial şəbəkədə mənim haqqımda xoş bir yazı paylaşıb. Təsadüfən bir 15-20 gün bundan əvvəl "Real" TV-də Mirşahinin otağında bu adamla rastlaşmışam, tanış olmuşam. Həmin ərəfədə də təxminən 20-30 dəqiqə arasında mənə seçicilərimdən 10-15 zəng gəlib, vəssalamşüttamam. Zənglərə verdiyi cavabları da eşidib və gedib mənim haqqımda xoş bir yazı yazıb, sağ olsun. Məsələ yazıda deyil.*

*Sonra kimsə mənə zəng etdi ki, Elman Eldaroğlunun sənin haqqında yazdığı yazını oxu. Təbii ki, oxudum, xoşuma da gəldi. Redaksiyaya da zəng etdim ki, qoyun səhifəyə.*

*Məsələ nədi? Yazının altında şərhlər var, şərhlər demək olar ki, yazını təqdir edir. Bu vaxt Xəyyam Çələbi adlı bir nəfər də iki şərh yazır. Və mənə böhtan atır, tamamilə yanlış bir status yazır və mənim millət vəkilliyimə ləkə atır. Əlbəttə, mən onu məhkəməyə də verə bilərəm, amma ayıb olar. Ona görə ki, bu adam yazır qaziyəm, iki ayağım da yoxdur və guya altı ay mənim qəbuluma düşmək istəyib, düşə bilməyib. Allah şəfa versin, həm özünə, həm də ağlına.*

*Mənə belə böhtan atanlar çox olur, amma heç birinə cavab vermirəm. Lazım bilmirəm. Onları məhkəməyə də vermirəm, nəyə lazım? Mən pul deyiləm ki, hamının sevimlisinə çevriləm?*



*Amma bu qaziyə cavab vermək məcburiyyətində qaldım.*

*Birincisi, yazır ki, guya mənim həmkəndlimdir və altı aydır qəbuluma düşə bilmir.*

*Əvvəla, mən nəinki öz həmkəndlilərimi, həm də seçildiyim bölgədə və ümumiyyətlə, Qarabağda hamını az-çox tanıyıram. Səhifəsini açmışam, yazıb ki, Yevlaxdandı. Dostum, mən yevlaxlı deyiləm, Ağcabədi rayonunun Bayat elinin Kolanı kəndindənəm. Orda doğulmuşam və həmin kənddə də hamını tanıyıram. Ya əmim uşaqlarıdılar, ya mamam uşaqları, ya da kiməsə qız alıb qız vermişik. Və o kənddə də kimin nəyə ehtiyacı olduğunu əzbər bilirəm. Heç kimsə mənə zəng eləməsə də kənddəki əmi uşaqlarıma zəng edirəm ki, filankəsə, filankəsə ya pul yardımı edin, ya bazarlıq edin, ayda da iki dəfə mütləq kənddə oluram. Əmi uşaqlarımdan soruşuram sizə nə qədər borcum var, nə bilim deyirlər, 300-400 manat. Bundan başqa da, mütləq özüm ehtiyacı olanların evlərinə gedirəm, görüşürəm, hər hansı problemi varsa həll edirəm. Adlarını yazmıram, lazım deyil. Çünki bunu millət vəkili kimi etmirəm, Kərbəlayı Muxtarın nəvəsi kimi edirəm.*

*Bütün nəslim Kərbəlayıdı, özüm yox. Allah qismət eləsə mən də gedib həm imamları, həm də babam Füzulinin qəbrini ziyarət edəcəm.*

*Kəndimiz magistral yoldan təxminən 3 kilometr aralıdı. Kəndimizdə də Seyid Heydər Ağanın piri var. Qarabağ camaatı bu piri ziyarət etməyi xoşlayır. Amma yol bərbad gündəydi və bir dəfə atam dedi ki, oğul, o yolu düzəltdir, camaat əziyyət çəkməsin. Mən də o yolu həm öz şəxsi vəsaitim hesabına, həm də Cavid Qurbanovun köməyi ilə asfaltlaşdırdım. Bilirsən kənd camaatı mənə dedi? Dedi ki, oğul, day sənin Kərbəlaya getməyin lazım deyil, sən ki Seyidin ocağına yol çəkdirdin, elə bil Kərbəlaya getmisən.*

*Bu, məsələnin bir tərəfi. Keçək ikinci tərəfə. Mən bəlkə də yeganə deputatam ki, telefon nömrəmi nəinki Qarabağda, bütün Azərbaycanda əzbər bilirlər. Və sən mənə bircə dəfə də zəng etməmisən və ərizə ilə də müraciət etməmisən. Bundan başqa, Parlamentdə qəbul otağı var, ora müraciət edən hər bir vətəndaşı hər hansı bir deputat qəbul etmək məcburiyyətindədi. Parlamentin Nizamnaməsi bunu tələb edir. Və demək olar ki, nəinki mənim yanıma gələn, hətta mənə aid olmayan vətəndaşları da qəbul edirəm. Sən nə vaxtsa belə bir müraciət etmisənmi? Yox!*

*Bundan başqa, həm mənim, həm də köməkçimin Bakıda qəbul otaqları var. Bütün günü də açıqdır, qəbul saatım yoxdur. Deyə bilərsən ki, 1-ci qrup əliləm, mən ora gələ bilmərəm. Qəbul, aydındır. Amma adınızdan kimsə gələ bilərdi və yaxud məktub göndərə bilərdi. Bunu da etməmisiniz.*

*Dəfələrlə yazmışam, Qarabağda qəbul otağım olsa da heç vaxt həmin otaqda oturmuram, kəndləri gəzirəm, camaatı da kəndlərin mətəsində, daha dəqiq desək, çayxanalarında qəbul edirəm. Mən xalqın bir adamıyam və özümü də xalqın içində olanda xoşbəxt sayıram.*

*Xəyyam Çələbi, səhifəni açdım, hansısa tanımadığım bir partiyanın Səbail rayon şöbəsinin sədrisən. İndi axtarıb taparam ki, təkcə Səbail rayonunu deputat kimi təmsil etməyə-etməyə bu bölgədən nə qədər adama yardım etmişəm, problemlərini həll etmişəm.*

*Dostum, trolluq eləmə. Ünvanını göstər, durub gəlim yanına. Mənim işgüzar nüfuzuma ləkə atma.*

*Cəhənnəm hər şey, ən azı, axı biz bir kənddən deyilik. Özü də mən təkcə doğulduğum kəndi deyil, bölgəmdə olan bütün kəndləri vaxtaşırı gəzirəm. Və imkanım daxilində insanların problemlərini həll edirəm.*

*Və mənim kimliyimi qazi dostlarından soruş. Trollardan yox ey, dostlarından!*

# TERRORÇULARI KİM MALİYYƏLƏŞDİRİR?

**Bütün dünya terrorizmdən əziyyət çəkir, ən çox da Türkiyə, Azərbaycan və Pakistan. Və təbii ki, Əfqanıstanı da bura qoşmaq olar. Bəs, bu terrorçuları kim maliyyələşdirir?**

Çox çətin sual olsa da cavabı var.

30 il Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətləri və terrorizmi dəstəkləyənlərin adını çəkə bilərik - ABŞ, Fransa, Rusiya və İran. Bu sirr deyil ki, hər il ABŞ terrorizmə məruz qaldığımız, separatizmə məruz qaldığımız bir ölkə kimi Azərbaycana 907-ci miaddəni tətbiq etdiyi halda, hər il, Ermənistan cəhənnəm, Qarabağdakı separatçı rejimə rəsmi olaraq 10-15 milyon dollar yardım edirdi. 50-60 min erməniyə olan yardıma baxın. Təbii ki, o pullar gedirdi separatçı rejimin silahlanmasına.

Bundan başqa, Rusiya da nə qədər silah-sursat yardımı edirdi pulsuz və hələ də edir. İran da buğda yeyib behiştdən çıxıb, özü də çoxdan çıxıb.

Son illər Gürcüstan yolu bağlanandan Ermənistana gedən bütün silah-sursat İran vasitəsilə gedirdi və İran da üstünə öz bildiklərini qoyurdu.

Fransa da buğda yeməmişdən behiştdən çıxıb. Və biz rəsmi rəqəmləri bilmirik, Ermənistan və Qarabağdakı ermənilərə həmişə dəstək olub, bu gün də açıq-aydın olur. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü özü terrorçuları maliyyələşdirir. Və bu pullar hardandı? Təbii ki, narkotrafikdən, narkoticarətdən.

Əfqanıstan uğrunda müharibələr də əslində pavidlalı konfetdən başqa heç bir məhsul istehsal etməyən Əfqanıstan uğrunda deyil, bu ölkədə su qiymətinə başa gələn və satılan narkotikadı. Əfqanıstanda 100 dollara başa gələn narkotika emal olunandan sonra Avropa və dünya bazarlarında təxminən 100 min dollara satılır.

Və bundan da bütün Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının daimi üzvləri yararlanır və həmin pulu da terror təşkilatlarına ötürür.

**Tanrım, məni ABŞ-ın, İranın, Rusiyanın tərəfini saxlayan trollardan qoru!**

**Fransa ilə birtəhər özüm bacararam.**



Seyfəddin Altaylı

# Atatürkə yadın verdiyi dəyər

*Çıkar oyunbazlar ikbal katına*
*Təpələr dağları alır altına*
*Dostluk sürücüsü vəfa atına*
*Bindiyi noktana bin yıl uzakta*

*Abdurrahim Karakoç*

*Bəzi tarixi həqiqətləri öyrəndikdə insanın başında tükləri biz-biz olur. Əbdüləziz Osmanlı sultanı olduğu zaman Britaniya kraliçası Viktoriya (Victoria) İstanbulda tikilən bir kilsənin açılışı münasibətilə ona bir avtomobil bağışlayır. O vaxtlar İstanbulda maşın, motor naminə heç nə yoxmuş. Osmanlı sarayında işləyən birinə də avtomobili sürməsi öyrədirlər. Ancaq İstanbul xalqı məhərrik, maşın nədir bilmədiyinə görə onu hər kim görsə dabanına tüpürürmüş. Mədrəsədə işləyən müəllimlər və şagirdlər yazıq maşına "zatül hərəkə", yəni öz-özünə hərəkət edən adını qoyub onun şeytan işi olduğu barədə hökm vermişlər. Padşah Əbdüləziz dövrün şeyxülislamı hacı Məhəmməd Rəfiqdən maşınla bağlı bir fitva istəyir ki, camaat onun şeytan işi olmadığını qəbul etsin. Şeyxülislam günlərlə, həftələrlə yuxusuz qalıb gecəli-gündüzlü Quranın ayələri içində maşınla bağlı bir söz axtarır ki, fitva vərsin, ancaq tapa bilməyir. Şeyxülislama görə Quranda onunla bağlı hər hansı ayə yoxdursa deməli o şeytan işidir və o maşının şeytan işi olduğu haqda fitva yazır, sultan Əbdüləzizin göstərişi ilə avtomobili xəlicin sahilinə aparıb dənizin mavi sularına qərq edirlər. Bu hadisədən qırx il ötənə kimi İstanbul səmaları avtomobil səsini eşitmir. Şəhərdə yaşayan xüsusilə varlı yəhudilər avtomobil alıb gətirirlər. İndiki nəsillərə "elmə və fənnə önəm verən padşah", kimi insanların "ulu sultan", kimilerinin de "kızıl sultan" dediyi II Əbdülhəmid "Yollar xarab olar, qəza baş verər" deyə avtomobildən istifadəyə icazə verməyir. Allah bilir bəlkə də şeyxülislam hacı Məhəmməd Rəfiqin fitvasından qorxmuşdur!*

*Türkiyə Cümhuriyyətinin banisi Atatürk "Yurtda sülh, cahanda sülh" prinsipini qəbul etmiş bir dövlət xadimi idi. Onun yeganə məqsədi Türkiyənin qonşuları ilə dinclik şəraitində yaşaması idi və bu siyasətini Anadoluya işğalçı kimi gəlib, eyni ilə ermənilərin doxsanıncı illərdə etdiyi kimi bəşərə yaraşmayacaq hər cürə hərəkəti etmiş yunan ordusunu qovduqdan sonra onlarla dostluğu təsis edərək türk tarixinin unudulmaz dahi rəhbərlərindən biri olmuşdur.*

*Britaniya o çağın aparıcı ölkələrindən biri və yunanlıları işğalçı kimi Anadoluya yollayan bir dövlət olmasına baxmayaraq Atatürk Britaniya kralı VIII Eduardı (Edward) 1936-cı ildə Türkiyəyə dəvət edir, onu layiqli şəkildə qarşılayır və yola salır. Kral Londona qayıtdıqdan sonra kraliyyat sarayında filosoflara, alimlərə, dövlət adamlarına və tarixçilərə ziyafət verir. Qonaqlıq səkkiz saat çəkir. Yığışan alimlər və ziyalılar "Bizə Atatürkdən danış" deyir, o da dili döndüyüncə Atatürkdən danışır. Növbə psixanaliz məktəbinin yaradıcısı Ziqmund Froyda (Sigmund Frəud) gəldikdə o bunları deyir:*

*"Atatürkü sevməmək, hörmət etməmək qeyri mümkündür, çünki hansı dildən, dindən, torpaqdan olsan da onu sevməyə bilmirsən. O bəşəriyyətin əvəzsiz sənətkarı idi"*

*Kral sual verir: "Səni bu cür fikirləşməyə nə vadar etmişdir ki, belə deyirsənə"*

*Froydun cavabı: Atatürk əsir götürdüyü komandirlərə insan kimi yanaşdı, düşmənlərinin bayrağını ayaqlamadı, hərçənd ki, yunanlılar türk bayrağını pilləkənlərə sərib komandirlərinin onu ayaqlayaraq İzmirin vilayət binasına daxil olmuşdu, ancaq o yunan bayrağını ayaqlatmadı, əsir olan özgə xalqların əsgərlərinə hörmətlə yanaşdı. O yalnızca vətəninin torpaqlarını qorudu, ölkəsini və millətini sevdi, onlar üçün döyüşdü. Bəşəriyyətə, məzlum millətlərə nümunə oldu. İmperializmin qarşısında sınmaz qala kimi dayandı, müasir bir dövlət yaratdı. Ölkəsində yaşayan insanların mədəniyyətinə, inamına qadağa qoymadı. Qadınlara Avropadan öncə seçib-seçilmə hüququ tanıdı, elmə və təbiətin qorunmasına həddən artıq həssasiyətlə yanaşdı. "Sənətsiz qalan bir millətin həyat damarları kəsilmiş deməkdir" deyərək sənətə xüsusi önəm verdi, daha artıq nə edə bilərdi kiə!*

*Türkiyəni işğala gələn yunanlıların başnaziri Venizelos 1930-cu ildə Nobel Mükafatı idarəsinə müraciət edərək bunları yazmışdır:*

*"Qanlı mübarizler səbəbilə uzun illər Türkiyə ilə düşmənçilik edən biz yunanlılar, Osmanlının yerini tutan Türkiyədə yaranan deyişikliyin tesirini ilk duyan xalqıq. Anadolu faciəsindən sonra fürsət tapıb dostluq əlimizi uzatdığımızda Atatürk onu səmimiyyətlə qəbul etdi. Ciddi ixtilaflarla düşmən olan xalqlara səmimi dostluq nümunəsini göstərərək Yaxın Şərq sülhü üçün mühüm nəticələr yaratmışdır. Sülhün borclu olduğu o şəxs Türkiyənin cümhurbaşqanı Mustafa Kamal Atatürk Paşadır. Bu səbəble 1930-cu ildə Yunan hökuməti rəhbəri sifəti ilə mən Türk Yunan Dostluq sazişini imzalayıb Yaxın Şərqdə sülhə sarı yeni bir çağ başlayarkən Mustafa Kamal Paşanı yüksək Nobel Sülh Mükafatına namized göstərməkdən şərəf duyuram".*

*Çağdaş Türkiyə Cümhuriyyətini yaradan Atatürkə yadların verdiyi dəyərdən kiçik bir neçə örnəyi dilə gətirdim. Təbii olaraq bugün Türkiyədə Atatürkü çox sevirlər!!! Hətta o qədər sevirlər ki, dünyanın ən mömin insanı olanlar(əəə) onun yaratdığı stolda şönküyüb ona lənət oxuyurlar. Atatürk və silahdaşlarının yaratdığı çağdaş və dünyəvi dövlətdə yaşayıb, onun qurduğu dövlətdə post tutduqlarına, onu çox sevdiklərinə görə Atatürkə əyyaş deyirlər. Qəribə burasındadır ki, bu adamlar səhərdən axşama kimi dünyanın ən xalis mömin müsəlmanı olduqlarını zənn edirlər. Doğrudan da elədirmiə İslam dininin birinci özülü ədalət, ikincisi vəfadır axıə!*

*Mən belə dünyanın...*

## İran Ermənistana müasir raket kompleksləri hədiyyə etdi

**İran növbəti dəfə Ermənistana gizli yollarla silahlar göndərib.**

Adalet.az xəbər verir ki, oktyabr ayında İran gizli yolla Ermənistana İran istehsalı olan 600 ədəd raket göndərib.

Göndərilən raketlər Ermənistana satılmayıb, hədiyyə kimi, qarşılıqsız verilib. Verilən raketlərin 500 ədədi "Dehjlaviyeh", 100 ədədi isə "Almas" tipli tank əleyhinə idarəolunan raket (TƏİR) kompleksidir.

Qeyd edək ki, "Dehlaviyeh" TƏİR 2012-ci ildə İranın Müdafiə və Silahlı Qüvvələrə Dəstək Nazirliyinin sifarişi ilə, "Almas" kompleksi isə 2021-ci ildə İslam İnqilabı Keşikçiləri Korpusunun Quru Qoşunlarının sifarişi əsasında hazırlanıb.

Onu da xatırlatmaq lazımdır ki, bir neçə gündür yerli KİV-də 14 İran vətəndaşının rusiyalı sülhməramlıların müvəqqəti nəzarət etdiyi ərazilərə keçməsi haqqında faktlar yayımlanır. İranın Azərbaycanakı səfirliyi isə hələ də məsələ ilə bağlı heç bir tutarlı cavab verməyib.

Ehtimal olunur ki, bu şəxslər vasitəsilə İran sözügedən raketlərin bir hissəsini Qarabağdakı separatçı-terrorçu dəstələrə də ötürüb.

**Yayılan məlumatların əhəmiyyətini nəzərə alaraq, İran tərəfi həm Ermənistana raket hədiyyəsi, həm də Qarabağa göndərdiyi dəstələr haqda xəbərlərə gec-tez aydınlıq gətirməlidir.**

# TARİXLƏŞƏN DAHİ



***Azərbaycan tarixinin ən şanlı səhifələrində adı böyük hərflərlə yazılan Ümummilli Liderimiz Heydər Əliyev cənablarının xatirəsi bu gün də hər kəs üçün əzizdir. Çünki o özünün bütün həyatını, bilik və təcrübəsini Azərbaycana, Azərbaycan dövlətinə həsr etmişdi.***

***Hakimiyyət sükanı arxasında olduğu illərdə Azərbaycanın dünyaya tanıdılmasında danılmaz və sübuta ehtiyacı olmayan böyük işlər görən, eləcə də xalqının tələbi ilə ikinci dəfə ölkə rəhbərliyinə gələrək Azərbaycanın müstəqilliyini dünyaya tanıdan məhz Ulu Öndərimiz olmuşdu. Zaman bütün hallarda bu tarixi şəxsiyyətin nə qədər uzaqgörən siyasətçi olduğunu, xalq üçün etdiyi fədakarlıqları birmənalı olaraq sübut edir. Qürur hissi ilə dünyanın hər yerində Ulu Öndərimizin adını Azərbaycanın adı ilə yanaşı, Azərbaycanın adı kimi çəkmək mümkündür. O bu haqqı, bu ucalığı məhz Azərbaycan naminə həsr etdiyi ömrü bahasına qazanıb. Ona görə də xalqımız anım günündə onun xatirəsini dərin hörmətlə yad edir və qəlbində əbədi yaşadır.***

*Fədail Rəhimov,*
*"Bakı Tikiş Evi" ASC-nin sədri*

# "Rus dilli olmaq "dəb"i nədən qaynaqlanır?"

**İllər öncə şeirlərini sevə- sevə oxuduğumuz əməkdar incəsənət xadimi, xalqın sevimli şairi Tofiq Bayram öz ana dilinə kəm baxanları məşhur "Ana dilim" şeiri ilə qınağa çəkmişdi:**

***Yüz dili öyrənsən, alqışlayıram,***
***Hər dili üzüyə bir qaş sayıram.***
***Güllədən kəsərli söz tuşlayıram***
***Öz ana dilini bilməyənlərə.***

Təəssüf olsun ki, şairin bu şeiri günümüzlə səsləşir. Hələ məktəbli çantasını çiynində daşıya bilməyən 6 yaşlı körpəyə bəzən yad bir dili öyrənmək "əmr edilir". Kiçik bir çantanı daşıyan bilməyən körpə, ona edilən bu "əmr"in məsuliyyətini daşımağa nə dərəcədə məcburdur? Yəni mütləqdirmi övladlarımız öz ana dilini normal öyrənməmiş digər dilləri mükəmməl öyrənsin?

Sovetlər dönəmindən bizə "miras" qalan rus dilli olmaq "dəb"i isə hələ də cəmiyyətdə öz aktuallığını qoruyub saxlayır. Cəmiyyətin bu qədər rus dilinə meyilli olması nədən qaynaqlanır? Niyə görə övladlarımıza ana dilində yox, xarici dildə təhsil verməyi üstün tuturuq?

Biz də "Adalet.az" olaraq mövzu ilə bağlı həmkarlarımızın fikirlərini öyrəndik.

**İctimai TV-in aparıcısı Saleh Bağırov** rus dilini bilməyən valideynlərin övladlarının rus dilində təhsil almağını doğru hesab etmir: "Əvvəla, uzun illər rus ideologiyası ilə idarə olunmuşuq. Bu, bizim şüuraltı düşüncəmizə hopub.. İkinci səbəb isə ədəbazlıq, fors və pont. Rus dilini bilməyən valideyinlərin isə övladlarını bu dildə təhsilə verməsini həmişə qınamışam. Bu, absurd və çox gülüncdür. Hər zaman müxtəlif dillər bilməyin tərəfdarı olmuşam. O cümlədən rus dilinin. Amma öz dilimizi mükəmməl öyrəndikdən sonra".



**Qadın və Uşaqların Təhsilinə Dəstək İctimai Birliyinin sədri Sevinc Fədai** bildirib ki, belə hallar milli kimlikdən uzaq düşməkdən və milli şüurun hələ tam formalaşmamağından qaynaqlanır: "İnsanlar dərindən düşünmədən sadəcə öz komplekslərinə yenik düşür və övladını rusdilli təhsilə yönəldir.

Bunun kökündə bir az da övladının gələcəyinə dair qayğılanma, qorxu dayanır. Hesab edirlər ki, övladları rus dilini bilərsə, iş tapmaq ehtimalı asanlaşar. Ancaq ilk növbədə, biz öz köklərinə bağlı milli şüura malik bir azərbaycanlı şəxsiyyət yetişdirməliyik.

Ana dili milli-strateji məsələdir, təhsil milli təhlükəsizlik sahəsidir; onu başqa millətlərin və dövlətlərin təsirinə məruz qoymaq millətin və dövlətin gələcəyini bilərəkdən təhlükəyə salmaqdır.

Bu təhlükəni duyub doğru qərar vermək lazımdır. Məktəblərimizə xarici dil hazırlığı kursu kimi yanaşmamalıyıq. Rus dili və hər hansı xarici dili başqa vasitələrlə də öyrənmək olar.

Bir dil onu daşıyan xalqın, bu xalqın təfəkkürünün, mədəniyyətinin, tarixinin daşıyıcısıdır. Yəni uşağımız ilk vərdişlərini hansı dildə alsa, o, təkcə həmin dilin daşıyıcısına deyil, həmin xalqın mədəniyyətinin tarixinin daşıyıcısına, bir parşasına çevrilir. Bu dövlətimiz üçün real təhlükədir. Unutmayaq ki, dilin fikri doğru ifadə etməsi üçün beynin milli zəmində doğru proqramlaşması lazımdır. Dil milli olmalıdır, doğma olmalıdır. Yad bir dil beyni də yadlaşdırır, kökündən qoparır və selə qapılıb gedir. Xalqına, millətinə aid dildə danışan uşaq beyni doğma ilə yad arasındakı uçurumda qalmır".



**Güney Azərbaycan Televiziyasının redaktoru Elman Cəfərli** də ana dilində təhsil almağın tərəfdarıdır:

"Azərbaycan cəmiyyəti rusdilinə meyllidir" fikri ilə razı deyiləm. Rus dilinə meylli olan bir qrup var. Sayları təxminən 150 min civarında. Əksəriyyəti Sovet nostaljisi ilə yaşayan adamlardır. Onların iddiası belədir: "Rus dili debat dilidir, ana dilimiz heç nəyə yaramır.

Rus bölməsində keyfiyyətli təhsil var. Rus bölməsinin müəllimləri gözütoxdur, rüşvətxor deyil, süpürgə pulu yığmırlar". Bunlar 90-lar üçün keçərli idi. İndi aktual deyil. İndi Azərbaycan dilində də keyfiyyətli təhsil verən məktəblər, liseylər var. Bir də ki onları debat maraqlandırırsa dünya dili ingilis dilidir, qoysunlar uşaqları ingilis dilini öyrənsin... Fikrimcə, bu cür düşünən insanların sayı getdikcə azalır. Dil dünya dili o zaman olur ki, arxasında böyük imperiyalar dayanır.



İngilis dili belə yayğınlaşıb, rus dili də. Amma Rusiya artıq imperiya deyil. Rus dili bütün keçmiş Sovet ölkələrində öz mövqeyini itirib.

Hətta slavyan Ukrayna da rus dilindən imtina edib. Bizə də növbə çatacaq. Yaxın 15 ildə Azərbaycanda rus bölməsinin sayı kəskin şəkildə azalacaq".

**"Ədalət" qəzetinin əməkdaşı Əntiqə Rəşid** ana dilini mükəmməl bildikdən sonra digər dilləri öyrənməyi doğru hesab edir: " On doqquzuncu əsrin sonlarına yaxın böyük rus şairi Mixail Lermontov Azərbaycana - Qusara sürgün olunub.

Həmin müddətdə dilimizə- adət-ənənəmizə o qədər valeh olub ki, "Aşıq Qərib" dastanını yazıb. Onun dostu Rayevskiyə Qusardan yazdığı məktubda belə bir cümlə var:

"Avropada fransız dilini bilmək nə qədər vacibdirsə, Qafqazda, ümumən Asiyada Azərbaycan dilini bilmək də bir o qədər əhəmiyyətlidir".

Çox dil bilmək faydalı, nümunəvi bir haldır, heyf deyil, dilmanc olmadan ingilislə ingiliscə, almanla almanca, rusla rusca danışmaq?! Amma Azərbaycan dilini təmiz bilmədən başqa dilə mey etmək, evdə, yolda, küçədən o yad dildə danışmaq, başqalarından fərqli olduğunu göstərmək, özünü "çoxbilən" kimi sərgiləmək, zənnimcə, manqurtluqdu. Qaldı ki, rus dilində danışmağı bacarmayan ailə uşağını rus dili bölməsində oxutmasına, yəqin ki, o ailədə rus dilində danışmaq istəyində olanlar olub. Amma istəklərini həyata keçirməyi bacarmayıblar. Bu səbəbdən də istəklərini övladlarının üzərindən həyata keçirməyi düşünürlər. Beləlləri dünyanın yeni düzənini nəzərdən keçirsələr, görərlər ki, ingilis dili, fransız, alman və digər avropa dillərinin arenası daha böyükdür. Uzun sözün qısası, rus dilinin təsir dairəsinin yaxın zamanlarda zəifləyəcəyini düşünürəm. Övladlarını rus dili sektoruna göndərən valideynlər boş yerə məsrəf eləməsələr yaxşıdır.".



**"Qazilər.az" saytının baş redaktoru Rey Kərimoğlu** isə bu kimi halları qətiyyətlə qınayır: " Bu məsələdə olduqca həssasam. Heç vaxt belə bir halı dəstəkləməmişəm. Əksinə, buna çox pis baxıram. Çox səhv bir addımdır. Bu, ana dilinə xəyanət deməkdir.

Düşünürəm ki, bu millətin nümayəndəsi olan, ağıllı savadlı, dərin düşüncəli heç bir kəs övladına rus dilində təhsil verməz. Bəzən valideynlər deyir ki, uşaq rus dili bilsin. Əlbəttə, razıyam. Ancaq ilk növbədə insan öz ana dilini bilməlidir. Rus dili mənim üçün təkcə Putinin danışdığı dil deyil. Rus dili həm də Lermontovun, Dostoyevskinin, Çexovun danışdığı dildir.

Rus dilini bilmək üçün rus bölməsində oxumağa gərək yoxdur. İstənilən xarici dili kurs keçməklə də öyrənmək olar. Rus dilində övlada təhsil vermək millətçilik və dövlətçilik üçün çox zərərlidir. Təkcə rus dili deyil, mən başqa dilləri də nəzərdə tuturam. Rus dilin, ingilis dilin, alman dilin öyrənsin, amma ana dilində təhsil alsın. Başqa bir dildə təhsil almaq təfəkkürdə, düşüncədə, milli kimlikdə travma yaradır.



Övladını rus bölməsinə yönəltmək görməmişlikdən, düşüncəsizlikdən, "cuşka"lıqdan irəli gəlir. "Mənim uşağım rus dillidir" düşüncəsiylə yaşayanların çoxu "çuşka"dır.

Övladlarını rus dilli məktəbə göndərənlərin çoxu Dostoyevskinin, Çexovun yazdığı əsərlərin bir cümləsini belə oxumayıb".

**Əntiqə Kərimzadə**

Aqil ABBAS

# "QARABAĞ" KİMİN YERİNİ DAR EDİR, GÖRƏN?

*"Qarabağ"ın uğurları deyəsən çoxlarını narahat edir. Bir tərəfdən paxıllıq, bir tərəfdən qısqanclıq, bir tərəfdən gözügötürməzlik. Ay "Qarabağ"ın pulu çoxdu.*

*Dostlar, "Qarabağ" halal oyunları ilə, zəhməti ilə qazanıb o pulları. Avropadakı oyunları ilə qazanıb o pulları. "Qarabağ" həm Avropaya, həm də dünyaya sübut etdi ki, Azərbaycanda da futbol oynaya bilirlər.*

*Qurban Qurbanov fərqli bir komanda yaradıb. Təmkini və soyuqqanlılığı ilə də hamıdan fərqlənir.*

*Braziliya Cənubi Koreyaya qol vuranda braziliyalıların baş məşqçisi Tite sevindiyindən elə hoppanıb düşürdü ki, hətta evdəkilər də soruşdu ki, bu niyə belə edir?*



*Və Dünya Çempionatına baxırsınız, oyun gedə-gedə məşqçilər hamısı əlində qələm-dəftər nəysə qeyd edir, oyunçuları yanına çağırıb göstərişlər verir, komanda ilə o tərəf-bu tərəfə yürüyür. Hələ bəzən kənardan hakimlərin də işinə müdaxilə edir.*

*Bu hərəkətləri Qurban Qurbanovda görə bilməzsiniz. Çünki bütün tapşırıqları oyundan əvvəl verib, futbolçu səhv edəndə də oyuna müdaxilə edib onu ruhdan salmır, üstünə bağırmır. Lobanovski kimi oturur, amma Lobanovski kimi yerində də çalxalanmır.*

*Nə isə. İndi oxuyuram ki, "Qarabağ"da korrupsiya aşkar edilib. Pah atonnan. Heç demə, ispan futbolçu gətiriblər - ili 400 min manata, amma indiyədək cəmi 4 oyuna buraxıb Qurban onu. Qurban Qurbanov kimi nə vaxt oynadacağını və oyuna buraxacağını bəlkə sizlə məsləhətləşməlidir?*

*"Qarabağ"ın uğurunun biri də bilirsiz nədi? Klubun prezidenti Gözəl bəy Qurban Qurbanovun işinə qarışmır. Başqa klublarda isə prezidentlərlə məşqçilər arasında umu-küsü, hətta dava-dalaş da var. Komanda məşqçinindir, prezidentin vəzifəsi isə komandanı maliyyələşdirməkdir.*

*Artıq "Qarabağ" komandası özü-özünü maliyyələşdirir. Və hətta təsisçilər "Qarabağ"ın qazancından öz paylarını, faizlərini götürürlər. Belə bir halda hansı korrupsiyadan söhbət gedə bilər?*

*Gedin bir az o tərəfdə oynayın, "Qarabağ"ın oyunlarına qarışmayın.*

*"Qarabağ"ı "korrupsiyada" ittiham edən jurnalist də çox yaxşı bilir ki, Hoca onu məhkəməyə verməyəcək, belə şeyləri sevmir.*

*Və... Əl çəkin "Qarabağ"dan!*

Eminquey

# Qazi adını gözdən salan qazilər



**Elçin Lənbəranskinin videosu çıxdı qarşıma.**

**Yanında qazi, əlində şüşə qutu, camaat gəlib pul atır.**

**Dünən bir qaqaş Ləman adlı tiktok fenomeninin yayımına qoşulub yalvarır ki, mən qaziyəm, niyə məni yayımına qəbul etmirsən? Nolar ki, məni də qoşsan?**

**Yaxud da bir başqası qazi ilə tiktokda yarış keçirir, "məni yox, qazini qalib edin" söhbətləri ilə prim qazanır.**

**Xanımların direktinə doluşan "mən qaziyəm, tanış olaq" yazanlar bir yandan.**

**Tam bir rəzillikdir! Anlayıram, dövlət dəstəyi ya yoxdur, ya da varsa bəs eləmir.**

**Anlayıram, bu ölkədə qazi olmaq da insanı İsveç vətəndaşına çevirmir, bu ölkə üçün başından da keçsən yenə bir zad deyilsən, amma...**

**Amma qazi adına edilməyəcək hər cür mənfi hərəkəti etdilər bu ölkədə. İstər kimsə qazilərə qarşı, istər qazilər özlərinə qarşı.**

**Və bu rəzillikdən o yanda, Ukraynada qazimizi 8 illik azadlıqdan məhrum elədilər. Nə ordakına sahib çıxa bilirik, nə də burdakılara dayan deyə bilirik.**

**Ay qazilər, ya o adı üstünüzdən, tiktok profillərinizdən yığışdırın, ya da o adı daşımaqda, cəmiyyətə "qazi Kamal" və sairə kimi tanınmaqda israrlısınızsa, adınıza yaraşmayan hərəkətlər etməyin.**

**Təbii, bu şeylər bizə də yaraşmır, amma sizə on qat yaraşmır.**

**Əgər qazisinizsə və buna görə özünüzə on qat sevgi, diqqət, qayğı, hörmət tələb edirsinizsə hamıdan, camaatdan əvvəl özünüzə on qat hörmət edin.**

**Vallah ayıbdır!**

**Billah ayıbdır!**

Aqşin Yenisey

# Yol göstərirlər: kitablarınız satılmırsa, yazmayın!



*Bulqakovun "Master və Marqarita"sı ölümündən otuz il sonra çap olundu. Bulqakov bütün dünya ədəbiyyatına təsir etmiş bu əsərinin taleyi haqqında, ümumiyyətlə, heç nə bilmədi.*

*Amerika filosofu, şairi Henri Toronun kitabları ölümündən sonra yayımlandı və Tolstoyun, Prustun, Qandinin sevə-sevə oxuduğu kitablar oldu.*

*Herman Melvillin bu gün dünyaca məşhur "Mobi Dik, yaxud Ağ Balina" romanı çap olunanda cəmi iki-üç nüsxə satılmışdı.*

*Kitabları satılmayan Edqar Po 40 yaşında yoxsulluq içində öldü. Şopenhauerin "Dünya iradə və təsəvvür kimi" əsəri 16 il mətbəədə gözlədikdən sonra kağız yığını olaraq anbara göndərildi.*

*Nitsşe kitabları satılmadığı üçün qürur duyurdu.*

*Emili Dikinson, Silvia Plat kimi dünyaca məşhur şairləri sağ ikən heç tanıyan yox idi.*

*Bunlar hələ mənim yadıma düşənlərdir.*

*Təsəvvür edin, adlarını xatırladığım bu müəlliflər də bizim ədəbiyyata, kitaba yol göstərənlərin ağlında olsaydı dünya nələr itirərdi...*



*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*

# Camaat bizə nə deyər?

**...Biz bir iş görməmişdən öncə yaxşı-yaxşı düşünürük ki, görəsən, bu işi görsək, camaat bizə nə deyəcək?! Amma onu fikirləşmirik ki, camaatın nə deyib-deməməsindən asılı olmayaraq, birinci özümüzün mənafeyini və marağını düşünməliyik. Ancaq bizim millət isə tam başqa cür düşünür, fikirləşir...**

**Məsələn, biri oğluna qız üçün elçi gedir, elə də maddi imkanı olmadığı üçün çox düşünür. Deyir görəsən elçi gedəndə qız qapısına nə qədər xonça, şirniyyat, nə bilim, tay başqa hədiyyələr aparacam. Birdən yaxşı getmərəm, qız evi də narazı qalar, axırda da xəcalət çəkərik, camaat bizə nə deyər?!**

**...Bir başqası ev alır, uzun müddət kirayənişin qaldığına görə, istəyir ki, təzə mənzilə köçsün. Amma çox götür-qoy edir, görür ki, evi əsaslı təmir etməsə, onu qınayacaqlar. Hətta mənim bir tanışım var, pulu-pənəsi də yoxdu. Təzə bir ev alıb, deyir ki, təmir elətdirməliyəm, pəncərələri plastikadan düzəltdirməliyəm. Gərək bundan sonra köçəm. Axı camaat məni qınayar. Deyər ki, 30 il kirayənişin qalıb, indi ev alıb, evin də təmiri yoxdur. Yox ey, camaat bizə nə deyər?!**

**...Varlı ailələrdən birinin gəlini heç də yaxşı deyilmiş. Həmin gəlin ocağa gələndən sonra heç kimə gün verib işıq vermir, baldızının, qayınanasının, qayınatasının, qayınının başında turp əkir. Hətta ərini də adam yerinə qoymur. İki uşaq dünyaya gətirir. Ondan sonra da bir az da sərtləşir, bir ailənin yeyib-içdiyini burnundan tökür. Axırda da evin ağsaqqalı məsləhət üçün gedir, çox ağıllı və müdrik olan əmisi oğlunun yanına. Əmisi oğlu da onu dinləyir. Və axırda məsləhətini verir. Deyir, əgər gəlin sizi adam yerinə qoyumursa, evdə heç kimlə yola getmirsə, onda onu boşa getsin! Kişi də bu sözü eşidəndə təəccüblənir və deyir: Bəs camaat bizə nə deyər?! Ağsaqqal isə əsəbiləşir və hövsələdən çıxır:**

**- Ay qohum, demirsən ki, gəlin sizə ot yoldurur. Mən də çıxış yolunu göstərirəm. İndi özün bilərsən...**

**Bir sözlə, həmin gəlin qayınatasını da, qayınanasının da axırına çıxır, ərinin də başına yüz oyun açır...**

**...Biri qalstuk taxmadan, kostyum geymədən heç bir rəsmi yerə getmir. Deyir ki, məni hamı belə görüb! Əgər başqa geyimdə getsəm, camaat məni topa tutar. Başqa sözlə demiş olsaq, camaat mənə nə deyər?!**

**...Bir dəfə də belə bir hadisə mənim başıma gəlib. Birinci dəfə İstanbula getmişdim, may ayı idi. Kostyum geymişdim və qalstuk taxmışdım. Gördüm hamı mənə başqa planetdən gəlmiş adam kim baxır. Qardaşım rəhmətlik Elxan dedi ki, bilirsən sənə niyə təəccüblə baxırlar?! Şəhərdə ətrafına diqqət yetir gör, bir adam sənin kimi geyinib?! Görmürsən camaat sənə pis baxır. Mən də dedim, nolsun pis baxır, mənim üçün xoşdu. Qardaşım mənimlə razılaşmadı, girdik bir paltar mağazasına. Ordan bir cins şalvar, bir qəşəng köynək, bir də ayaqqabı aldıq. Əynimə geydim, gördüm başqa bir adama oxşayıram. Tay heç kim də mənə baxmır. Deyəsən, bu dəfə camaatın nə deməsinin mənə xeyri oldu. İstanbuldan qayıdandan sonra geyimimi dəyişdim və sadə geyimdə gəzdim və özümü daha rahat hiss elədim...**

**Lakin elə məsələlər var ki, burda "Camaat bizə nə deyər?" qınağına bir o qədər də önəm vermək lazım deyil. Tez-tez kəndə gedirəm. Görürəm ki, maşallah, qohum-əqrəbanın bir neçə evi, maşını var. Mənim də nə elə ev-eşiyim, nə də avtomobilim var. Nolsun ki, ziyalıyam, təmiz adamam. Birinci məndən soruşurlar ki, müəllim kənddə ev tikmisən, şəhərdə təzə ev almısan, maşının var? "Yox" deyirəm, görürəm ki, mənə birtəhər baxırlar. Yəni papağı günə yandırmısan ey, müəllim! Heç bir savadı, evi olmayan adam kəndə və şəhərdə 2-3 yerdə ev alıb. Sənin isə bu yekəlikdə Bəhmənlidə bir koman da yoxdur. Nə isə... camaat bizə nə deyər?!**

**...Bax, "camaat bizə nə deyər?" ifadəsi bizi əməlli-başlı yorub ey! Heç kim də bunun dərininə getmək istəmir. Daha doğrusu, heç kim qınaq mənbəyi olmağa maraq göstərmir. Sadəcə olaraq bu söz və ifadə uzun illərdir bizim mentalitetimizə və təfəkkürümüzə çöküb və ondan canımızı qurtara bilmirik. Qurtara bilərik ey, yeni böyüklü-kiçikli düşünürük ki; camaat bizə nə deyər?**

**Ay kişinin oğlanları, camaat nə deyir-desin, əgər bir şeyin həqiqət olduğunu, düz olduğunu və işıqlı olduğunu yəqin edirsinizsə, o addımı mütləq atın.**

**Onsuz da biz hələ də ibtidai icma təfəkküründən və primitiv düşüncə tərzindən xilas ola bilməmişik. Birdən xilas olarıq, camaat bizə nə deyər? Deyər ki, bu biqeyrətə bax ey, dədə-babaların qoyduğu yolla getmirlər, burnu fırtıqlı uşaqların dediyinə əməl edirlər.**

**Elə bilirsiz dədə-babalarımızın dediyi hər söz qızıldı? Vallah, onların bəzi sözlərinə baxıb biz dərin quyuya düşmüşük. Ordan da uzun illərdir çıxa bilməmişik və bu gün də çıxa bilmirik. Camaat bizə nə deyər?**

**...Bu quyu cəhalət, nadanlıq və avamlıq quyusudur. Gəlin, bu quyudan çıxaq! Yoxsa camaat bizə nə deyir desin. Harda ki, işıq var, həqiqət var, ədalət var, düşünüb danışmadan biz o addımı atmalıyıq. Bu addımı atmasaq, ağır və məşəqqətli günlərimiz çox ola bilər...**

## *"Qardaş yumruğu" Ohonyanı qəzəbləndirdi: "Savaş olacaq!"*

**Aprel döyüşlərinin məğlub müdafiə naziri və hərbi texnika adı altında Ermənistan ordusu üçün yararsız silah-sursat almaqla milyon dollarlarla vəsaiti mənimsəmiş general kimi tarixə düşən Seyran Ohanyan bir erməni olaraq hər yaxşı işdə bir pislik axtarıb tapmaqda "mahirdi".**

Azərbaycanlılara qarşı faşist mövqeyini dəyişməyən sabiq nazir hələ ötən ilin noyabrında bir açıqlama işlə çıxış etmişdi:

"Cənubi Qafqazda yolların açılması Ermənistan və Qarabağın blokadaya alınmasına səbəb olacaq. Hakimiyyət daxili, xarici və təhlükəsizlik siyasətinə yenidən baxmalıdır. Onlar regionda kommunikasiyaların açılmasından danışır. Halbuki, bu Qarabağ və Ermənistanın blokadaya düşməsi deməkdir. Burada iqtisadi təzyiq amili də olacaq"

Adalet.az armenpress.am istinadən xəbər verir ki, "Ermənistan" blokunun fraksiya rəhbəri Seyran Ohanyan növbəti dəfə açıqlama ilə çıxış edib. Jurnalistlərə müsahibə Bildirib ki, Türkiyə və Azərbaycanın birgə təlimləri Ermənistan və İrana qarşıdır, həm də güc nümayiş etdirmək məqsədi daşıyır:"Dövlətimiz hərbi-siyasi vəziyyətə müvafiq qiymət verməli, silahlı qüvvələrin artırılması, hərbi təlimlərin keçirilməsi istiqamətində ciddi iş aparılmalıdır.

Regionumuzda vəziyyət kifayət qədər gərgindir. Xüsusən Ermənistan və Qarabağ ətrafında təhlükəsizlik çox kövrəkdir. Ona görə də hərbi əməliyyatlar hər an başlaya bilər".

Qeyd edək ki, Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən "Qardaş yumruğu" birgə təlimi həm İranda, həm də Ermənistanda xeyli həyəcan yaradıb.

***P.S.** Ohonyanın gözü kordu! Necə olur ki, ötən ay İran ötən il Azərbaycanla quru sərhəddə, Xəzərdə su sərhəddində, eləcə də səmada "güc göstərisi" sərgiləyəndə, İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Quru qoşunları Şərqi Azərbaycan və Ərdəbil vilayətlərinin şimalında hərbi təlimlərə başlayanda niyə bunu da görmürdü?*

**Əntiqə Rəşid**

# GÖYÇAY: KİÇİK RAYONUN BÖYÜK ADI

**Vətənə məhəbbət, xalqa xidmət, insanlara qayğı və diqqət ulu öndərin həyat amalı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əlliyevin simasında ən yüksək mərhələdədir. Biz artıq bunu hər gün görür və yaşayırıq. Cənab Prezidentin dövlət məmurlarından, vəzifə sahiblərindən istək və tələbləri də məhz bu cür çalışmaq və yaşamaqdır. Bu gözəl örnək dövlət başçısı səviyyəsində, eyni zamanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gündəlik fəaliyyətində cəmiyyətə sirayət etməklə xalqla hakimiyyət birliyini daha da möhkəmləndirir, ölkəmizin daha gözəl gələcəyindən xəbər verir.**

Yerlərdə bu örnəyin xüsusi istiqamətləri formalaşır. İnsanların yaşam tər-



zinə çevrilir. Nikbin əhval-ruhiyyənin hökm sürdüyü rayonlardan biri də, indi şübhəsiz, Göyçaydır. Göyçaylılar dövlətimizin qayğısına cavab olaraq bütün sahələrdə uğurlar qazanmağa, vətənə töhfələr verməyə çalışırlar. Bu səbəbdəndir ki, istər kənd təsərrüfatının aparıcı bölmələrində, istərsə də sənaye, tikinti, xidmət işlərində davamlı inkşaf təmin olunur. Ürəkaçan məsələlərdən biri də şəhərin modern inkşafı, gözəlliyi ilə yanaşı kəndlərin də hərtərəfli müasirləşməsidir. Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevlə söhbətimiz zamanı bildirir ki, daha yüksək müasirləşmə potensiallı bir rayonda bu məsələlərin həlli, yəni infrastruktur paylaşımı vacib şərtlərdəndir. Göyçaya gələnlər rayonun bir sıra kəndlərinə də maraq göstərir, müstəqillik dövrünün inkişafı ilə birbaşa təmasda olmaq istəyirlər. Eləcə də qədim yerlər və abidələrlə. Artıq Göyçayın ən ucqar istiqamətlərində belə müasir tələblərə cavab verən yol, rabitə, iaşə və digər məsələlər öz həllini tapmaqdadır. Söz düşmüşkən bir nüansı xüsusi olaraq diqqətə çatdırmaq zərurəti yaranır. N.Ağayev və başçılıq etdiyi icra aparatının nümunəvi iş üslubu idarəetmədə ciddi faktdır. Başçının bütün sahələrə eyni diqqətlə yanaşması, fərq qoymadan bütün sakinlərlə səmimi davranışı, təvazökar həyat tərzi yeni vəzifəsində onu caamatın ən hörmətli və doğma adamına çevirib. Cənab Prezidentin dövlət məmurlarından tələb və istəyi də elə fəaliyyətin bu cür formalaşması və həyat tərzinə çevrilməsidir.

... Zamanın tələbidir. Rəhbərlik rayon həyatının bütün sahələrini gündəlik nəzarətdə saxlamaqla keçmişlərdən qalan nöqsanları və digər çatışmazlıqları aradan qaldırmaq, ədalətsizliyə qarşı barışmaz mövqeyindədir. Rayonun bu günü və gələcəyi üçün yaxşı nə varsa həmin istiqamət əsas götürülür. Keçmişlərin bəzi xoşagəlməz miraslarını da nəzərə alsaq, bütün bunlar heç də asan məsələ deyil. Ancaq arxada qalan günlər və aylar ilkin nəticələri ilə Göyçayın gələcək gözəl günlərindən xəbər verir. Cari və zəruri abadlıq-müasirləşdirmə işlərinin şəhərin ucqarlarından mərkəzə doğru istiqamətləndirilməsinin özü yüksək səviyyəli idarəetmə faktıdır.

Yeni rəhbərlik Göyçayın yaxın və uzaq keçmişinə də xüsusi maraqla yanaşır, müqayisələr aparır, insanların arzu və istəklərinə müstəsna həssaslıq göstərir. Burada biz digər vacib nüansları da qeyd etməliyik.

Ötənlərdən üzü bu yana Göyçayın adı həmişə böyük səslənib. Baxmayaraq ki, ərazisinə görə respublikamızın kiçik rayonlarından biridir. Ancaq onun adı, şöhrəti, müxtəlif simvolları, özünəməxsus çalarları, oturuşmuş ənənələri və başlıcası şəhər mədəniyyəti, şəhər düzəni ilə həmişə cəlbedici olub. Bu rayonun, bu şəhərin zaman-zaman enişli-yoxuşlu illəri də yaşanıb, hər bir ili bayramlara dönən gözəl vaxtları da...

Hələ Sovet dövründə qonşu rayonlardan Göyçaya gəzməyə, əsl şəhər mühiti görməyə gələrdilər...

Qarşı dağlar da, Göyçay çayı da, bağ-bağatlı kəndlər, kiçik meşəliklər də Göyçayın gözəlliyini tamamlayan, qədimliklə müasirliyi birləşdirən təbiət və şəhər adlı bir mahnıdır sanki. Bunlar təkcə urbanik təəssürat oyatmır. Bunlar həm də Göyçay rayonunun daha dolğun, daha mükəmməl inkşafı, eynilə respublikamızın timsalında yüksəlişin qanunauyğun dialektikası, ümumi tendensiyaların parlaq təzahürüdür. Dövlətimizin, cənab Prezidentimizin uğurlu daxili və xarici siyasətinin gözəl nümunələrindən biridir Göyçay şəhəri. Göyçaylılar da ölkə başçısının ətrafında sıx birləşərək bütün məsələlərdə rəhbəri dəstəklədiklərini bildirirlər. Sakinlər rayon rəhbərliyinin fəaliyyətini təqdir edir və gələcəyə inamla baxırlar. Belə inamlı yanaşmalar, eyni zamanda ölkə rəhbərliyinə rəğbət və minnətdarlığın ən gözəl nümunələridir.

Yuxarıda qeyd etdiyimiz kimi rayonun özünəməxsusluğu timsalında digər zəruri şərhlərə ehtiyac yaranır. Belə ki, ərazisinə görə kiçik rayonlar sırasında olsa da, Göyçayın adı, tanıtımı böyükdür həqiqətən. Həm də yaşı 1500-2000 ili keçən Alpout,Qaraman,Qarabaqqal, Hunqutlu, Ləkçıplaq... kəndləri, Alban dövründən tanınan yığcam karvansaraylar və sənətkarlar şəhəri Göyçay! Bəzi diletantlar ən mühüm tarixi fakt və eksponatları nədənsə "görə bilməyib" Göyçayı az qala Çar Rusiyasının yetirməsi kimi təqdim etmək fikrində olublar. Albaniyanın paytaxtı Qəbələyə aparan yol o vaxtlar məhz Göyçay şəhərindən keçib və mən 35-40 il bindan əvvəl şəhər kənarında məhv edilmiş 2 qədim qəbirstanlıq haqqında tarixi faktlara söykənən elmi-publisisitik məqalələri məhz elə bu məqsədlə qələmə almışdım.



Bu şəhərdən, bu karvansaraylardan keçən yol bilirsinizmi, həm də qədim İpək Yolunun forpostu idi. Lap dəqiqi, indiki Göyçay şəhərinin çaykənarı sıx bir məkanı olaraq.

Bax, indiki halda da özünəməxsusluğu ilə fərqlənən, seçilən, adı böyük səslənən Göyçay kimi rayonların inkişafı, müasirləşməsi, yüksəlişi- bu istiqamətlərdə daha mükəmməl özünütəsdiqi heç də asan başa gələn məsələ deyil. Necə deyərlər adlı-sanlı yerlərin qayğıları, görüləsi işləri də fərqli və çoxistiqamətli olur. Bütün bu məsələlər təbii ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müstəsna qayğı və diqqəti ilə daha böyük uğurlar qazanmağa doğrudur. Təbii fəlakətlərin aradan qaldırılmasılndan tutmuş (Göyçay çayındakı daşqınlar və strateji əhəmiyyətli körpünün yenidən qurulması), kəndlərə qaz, içməli su çəkilişləri, yeni yollar salınması, Göyçay şəhərinin daha da gözəlləşdirilməsi, nəticə etibarı ilə keçmiş şöhrətin yeni forma və məzmunda gerçəkləşməsi...



Son vaxtlar şəhərdə çox işlər gedir. Göyçat Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevin ağsaqqallarla, ziyalılarla, adi sakinlərlə görüşlərdə məsləhətləşib bir sıra tədbirlərin reallaşmasına arxa durması yüksək əhval-ruhiyyə yaratmaqdadır. Şəhərdə sıxlığın aradan qaldırılması üçün görülən tədbirlər, perspektivdə duran yeniliklər...

İl sona doğrudur. Bütün Azərbaycan xalqı, biz hamımız üçüncü ildir ki, Zəfər Gününün qürurunu yaşamaqdayıq. Əfsanəvi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun erməni işğalçıları üzərində şanlı qələbəsi millət olaraq bizi zirvələrə ucaltdı. Biz artıq ötən hər günü böyük sevinc və iftixar hissi, qüruru ilə yaşayırıq. Vətən uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsini əbədi olaraq qəlbimizə, yaddaşımıza köçürürük. Qəhraman qazilərimizi hörmətlə, sevgi ilə salamlayırıq. İndi biz belə yaşayırıq...

Eyni zmanda düşməni məğlubuyyətə uğradaraq azad etdiyimiz sevgili Qarabağımızda möhtəşəm quruculuq işlərinin təməli qoyulur, görülən işlərin sevincini yaşayırıq.

Azərbaycan xalqının qəhrəman oğlu Prezidentimiz İlham Əliyevin bu istiqamətdəki sərəncam və göstərişləri bölgədə xüsusi çoşquyla həyata keçirilir. Bu işlərin intensivliyinə qardaş Türkiyəmizin böyük oğlu Rəcəb Tayyib Ərdoğan da heyran qaldığını bildirir. Xalqımızn dostları bütün bu olaylara sevinir və bizə dəstək olurlar...

**Xalqımızn dostları çoxalır...**

**Bütün bunlar Göyçayın da gündəlik həyatının ruhunda, canındadır!**

**MƏZAHİR ƏHMƏDOĞLU**

# Çayxana

## *Yadıma Rafaelin "Azneft"dəki akademiyaya bənzəyən çayxanası düşdü*

**...Ötən əsrin 70-ci illərində Bakının gözəl bir məkanında gözəl bir çayxana var idi. Daha doğrusu, bu, çayxanadan çox akademiyaya bənzəyirdi. Ən istedadlı, savadlı və ziyalı adamları o çayxanada tapmaq olardı. Çayxananı da Rafael adlı bir oğlan işlədirdi. Çayı kimi özü də şirin idi. Və biz tələbələrə çox böyük hörmətlə yanaşardı. Hətta pulumuz olmayanda deyərdi ki, pul- zad lazım deyil, təqaüd alsanız çay pulunuzu verərsiz, təqaüd almasanız verməzsiz...**

...O çayxanada Azərbaycanın çox böyük ziyalılarını tanıdım. Kim yox idi orda? Aydın Məmmədov, Vidadi Məmmədov, Ramiz Rövşən, Vaqif Cəbrayılzadə, Kamil Vəli Nərimanoğlu, Seyran Səxavət, Nüsrət Kəsəmənli, Aqil Abbas, Vaqif Bəhmənli, Ağacəfər Həsənli, Maarif Soltan, Vasif Quliyev... və adı, soyadı yadıma düşməyən digər böyük Azərbaycan ziyalıları... Şairlər, yazıçılar, dramaturqlar, aktyorlar, müğənnilər, xanəndələr və bəstəkarlar...

Biz həmişə dərsdən sonra o çayxanaya qaçardıq. Daha doğrusu, çayxanaya gedərdik ki, adını çəkdiyim bu böyük ziyalıların bal kimi şirin söhbətlərini eşidək. Hətta universitetdə oxumadığımız, öyrənmədiyimiz mətləbləri o çayxanada eşidirdik. Eşidirdik ki, Azərbaycan müstəqil dövlət olmalıdı... Eşidirdik ki, biz hamımız bu Vətən, bu torpaq uğrunda mübarizəyə və mücadiləyə hazır olmalıyıq... Eşidirdik ki, bu ziyalıların hər biri bir günəşə bənzəyirdi...

Elə ona görə də hər gün bu çayxanaya gedər, onların "mühazirələr"inə, söhbətlərinə, heç kimə və heç nəyə oxşamayan unikal fikirlərinə hakim kəsilirdik. Tələbə yoldaşlarımızın əksəriyyəti bax, o akademiyaya gedərdi. Hətta dərsdən qaçanlar ora yaman can atardılar. Bayaq dedim axı, o bal kim şirin söhbətlərin və işıqlı düşüncələrin sahibi olmaq üçün...

...Orda bəzən dava da düşərdi. Amma bu dava o davadan deyil. Fikirlərin və düşüncələrin bir-birinə dəyib toqquşduğu dava idi. Hansı fikir və hansı düşüncə işıqlı idi, o da bizim düşüncəmizə və ürəyimizə yol açırdı və bir də hiss edirdik ki, balam, Ramiz Rövşənin, Seyran Səxavətin, Aydın Məmmədovun, Vaqif Cəbrayılzadənin işıqlı və gün işığı kimi hərarətli söhbətləri ürəyimizi və qəlbimizi işıqlandırır. Bax, həmin çayxana üçün bu gün də mənim burnumun ucu göynəyir. Çayxana çoxdur ey, amma Rafaelin akademiyaya bənzər çayxanası kimi çayxana yoxdu.

Bu günlərdə dostum, yazıçı-publisist, Prezident təqaüdçüsü Səməndər Məmmədov dedi ki, Yeni Günəşlidə bir kafe var - adı da "Qartal"dı. Ora çox maraqlı adamlar gəlir. Səməndər müəllim bu söhbəti salanda o dəqiqə yadıma Rafaelin "Azneft"dəki çayxanası düşdü. Ora gələnlər kimlərdi? Səməndər müəllim də dedi ki, narahat olma, çox rahat və sakit yerdi. Ən çox da ziyalılar, yaradıcı adamlar və alimlər toplaşır bu çayxanaya, bu yeməkxanaya. Amma yaxşı da çay verirlər. Yeməkxananı da əslən Lerikdən olan Rasim adlı bir mehriban insan işlədir. Özü də Rasimin ürəyi o qədər yumşaqdır ki, şair, yazıçı, alim görəndə az qala onlara gözünün yağın yedirsin.



Sözün düzü, mən çayxanaya və yeməkxanaya gedən adam deyiləm. Ancaq Səməndər müəllim deyirdisə, ora gedib dəyməyə dəyərdi.

Və bir gün də Səməndər müəllimlə həmin deyilən ünvana - "Qartal" kafesinə üz tutdum.

Ab-havadan, münasibətlərdən hiss etdim ki, burdakı aura o biri çayxanalar kimi deyil. İçəridə siqaret çəkilmir və bəzən müştərilər başqa yerdə olduğu kimi, ağzını Allah yolunda qoyub nə gəldi danışmır...

Səməndər müəllim kafeyə girən kimi özünəməxsus bir şirinlik ilə dedi:

***- Ay Rasim qağa, bax, sənə təzə bir müştəri gətirmişəm. O qədər tərifləmişəm ki, dostum da bura üz tutub.***

Rasim çox diqqətlə Səməndər müəllimi dinlədi və bildirdi:

***- Qardaş, mən həmişə ziyalılara böyük hörmətlə yanaşıram. Kim gəlir-gəlsin, heç harda belə ucuz çay içməyəcəklər. Mən yeganə adamam ki, bir çaynik çayı bir manata verirəm. Söhbət çaydan getmir ey, həm də xoş bir məqamdan gedir. Bura gələn heç vaxt məndən narazı qalmayıb.***

Səməndər müəllim zarafatla:

***- Yox, bir adam narazı qalıb - İlqar müəllim.***

Rasim yenidən dilənir:

- Ay kişi, o zarafatçılın biridi. O qədər şirin söhbət edir ki, adam onun söhbətinin şirinliyindən doymaq istəmir. Amma hərdənbir acı sözü də var. Yəni düz danışan adamdı, düz söz də acı olur.

...Beş dəqiqə keçmir ki, masamızın üstünə bir çaynik çay gətirilir. O çayı da Gülnaz adlı bir xanım masanın üstünə qoyur. Deyir ki, nuş oslun! Sonra da bizim özümüzlə maraqlanır. Sən demə, bu xanımın da yazıçı, ziyalı adamlara böyük hörməti varmış. Az-çox mətbuata, kitab-qələmə bələd insandı. Bir balaca da özü haqqında söhbəti açdı. Gördük ki, yox, bu xanım həm səviyyəli, həm də zəhmətkeş insandı. Öz halal zəhməti ilə yaşamağı hər şeydən üstün tutur...

İlqar Hüseynov Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiridi, professordu. İlqar müəllim mənim oğlu Emilə kulturologiyadan dərs deyib, imtahandan da "5" yazıb. Digər bir dostumuz Şikar Hüseynov pedaqoji elmlər namizədidi, dosentdir. Sumqayıt Dövlət Universitetində dərs deyir. Fəxrəddin müəllim isə gözəl rəssamdı. Anası əmircanlıdır, Səttar Bəhlulzadənin kəndçisidi. Özü isə Lerik rayonunun Cəngəmiran kəndindəndir. Çox danışmağı sevmir. Ancaq biz danışana qulaq asır. Çox nadir halda nəsə bir söz deyər. Mənim Fəxrəddin müəllimə bir ziyalı, bir dost, bir qonşu kimi çox böyük hörmətim var. Həddindən artıq səbirli adamdı. Dərdini, kədərini, qəmini heç kimə bildirməz

Şikar müəllimin isə özünəməxsus xarakteri var: ipək kimi yumşaq, sadə və uşaq kimi təmiz ürək sahibidi. Və hər bir sıxıntını, ağrını-acını öz içində çəkər. Heç kimə də mənfi enerji, ağrı-acı ötürməz. Yaxşı da bir idmançı oğlu var. Mən hər gün stadiona idman etməyə gedəndə o gənclə rastlaşıram, salamlaşırıq, hal-əhval tuturuq. Həddindən artıq tərbiyəli uşaqdı. Və eyni zamanda məşğul olduğu döyüş növünü digər gənclərə də böyük həfəslə öyrədir.

...Elə bil mətləbdən bir qədər uzaq düşdüm. Səməndər müəllim öz dadlı, öz duzlu, şirin söhbətləri ilə həmişə məclisi ələ alır. Bu da təsadüfi deyil. Çünki Səməndər müəllim də xalq yaradıcılığından, klassik poeziyamızdan və bütün mədəni irsimizin bulağından su içib. O, başdan-ayağa sazdı, şeirdi, poeziyadı, yumordu. Daha doğrusu, xalq şairi Zəlimxan Yaqubun dili ilə desək, Səməndər Məmmədov Zəlimxan Yaqubun səyyar kitabxanasıdır. Zəlimxan Yaqubdan sonra onun poeziyasını xalqa çatdıran, sevdirən böyük bir ziyalıdı. O nə qədər danışsa da, bal kimi söhbətdən doymaq olmur...

Birdən Rasim qağa yenidən səslənir:

***- Mənim özüm yaxşı futbol oynamışam və futboldan da başım çıxır. Mən bilirəm ki, futbol nə deməkdir. Amma indi hər yerindən duran futboldan danışır. Az qala məşqçilərə məsləhət verələr...***

...Bu vaxt usta Tahir gəlir. O da cavan, gənclik vaxtında Ağdamın futbol klubunda oynayıb və mübahisə başlayır, nə başlayır. Rasimlə bir-birini topa tuturlar. Aranı Səməndər müəllim sakitləşdirir. Deyir ki, hər ikiniz futbolu yaxşı bilirsiz. Amma mən futbol adamı deyiləm. Bura gəlmişik ki, bir az dincələk, qanımız durulsun...

Şikar müəllim söhbətə qoşulur:

***- Rasim qağanın alimlərə, ziyalılara böyük hörməti var. Amma nədənsə bəzən cığallıq edir.***

Rasim:

***- Cığallıq eləmirəm ey, alimlərə, ziyalılara böyük hörmətim var. Yadıma "Qayınana" filmindən bir epizod düşür. Orda ticarətlə məşğul olan mağaza müdiri deyir ki, bir azdan alimlər gələcəklər, cib boş, baş dolu, mənimki onlarla tutmaz. Amma o kişidən fərqli olaraq mənimki sizinlə tutur. Heç çaypulu da istəmirəm. Təki gəlin bura, görsünlər ki, kimlər gəlib çay içir...***

**...Şirin söhbətlər bir-birini əvəz edir. Bayırda yağış yağır, amma Rasim qağa isə odun sobasını qalayıb. İçəri istidir. Adama lap ləzzət edir. Amma hər şeydən isti Səməndər müəllimin, Şikar müəllimin, İlqar müəllimin, Fəxrəddin müəllimin və usta Tahirin isti və unikal söhbətləridi. Bu söhbətlər bu payız günündə ürəyimizi və qəlbimizi isidir və düşünürük ki, nə yaxşı ki, Rasim qağa kimi, usta Tahir kimi sadə insanlar alimə, yazıçıya, ziyalıya dəyər verir. Alimə, yazıçıya, ziyalıya dəyər verən millət həmişə üzü işığa doğru addımlayır...**

**Faiq QİSMƏTOĞLU**

## *Bizə soyuq hava yaraşmır*

**Hava soyuyanda bizim bir çox çətinliklərimiz yaranır. Qazın təzyiqi aşağı düşür, işıqlar tez-tez sönür, istilik sistemi isə normal işləmir. Məsələn, Əhmədlidə yaşayan sakinlərin bəziləri deyirlər ki, dekabr ayının 5-i olsa da, bizim evdə istilik sistemi işləmir. İşləyənlər isə çox zəifdir. Yəni mənzilləri yetərincə qızdırmır. Bir neçə gündür ki, havalar da soyuyub və şaxtalı günlər yaşayırıq. Bax, belə məqamda işıq, qaz və istilik sistemləri normal işləməli, mənzillər qızdırılmalıdı. Heç "Azərbaycan" nəşriyyatındakı 6-cı mərtəbədə yerləşən bizim redaksiyanın otaqlarındakı istilik sistemi də dekabrın 5-də yanmırdı.**



Biz görmüşük ki, soyuq havalarda, bayaq dediyimiz kimi, həyati əhəmiyyətli istilik sistemləri normal işləyər. Təəssüf ki, Bakı şəhərində biz bunun çox vaxt əksini görürük. Hələ nə yaxşı ki, işıqlar tez-tez sönmür. İşıqla da sönsə, iş yerləri və mənzilləri qızdırmaq daha çətin olar, soyuqdan ölməsək də, xəstələnərik.

## *Köhnə avtobuslar*

**Köhnə avtobuslarda yayda və qışda mənzil başına getmək çox çətindi. Yayda adam istidən birtəhər olur, qışda da soyuqdan donur. Üstəlik də, istismar müddətini başa çatdırmış avtobuslar marşrut xətti ilə hərəkət edərkən tez-tez xarab olur və yarı yolda qalır. Məsələn, 50 nömrəli marşrutdakı avtobusların əksəriyyətində istilik sistemləri ya yaxşı işləmir, ya da xarabdır. Havalar da çox soyuqdur. Şaxta adamı qılınc kimi kəsir. Belə bir soyuq havada o avtobuslara minib işə getmək və qayıtmaq hər bir sərnişindən əməlli-başlı güc tələb edir.**



Yenə gənclər soyuğa birtəhər dözürlər. Qoca və uşaqlar isə bu avtobuslarda hərəkət edərkən soyuq havada çox çətin anlar yaşayırlar. Görəsən, Bakı Nəqliyyat Agentliyi və eləcə də 50 nömrəli marşrutun sahibi soyuqdan donan sərnişinlər barəsində çıxış yolu axtarırmı?! Çıxış yolu isə köhnə avtobusların xətdən çıxarılması və onların yeniləri ilə əvəz edilməsidir.

**Emil FAİQOĞLU**

## *Rusiya nefti "su qiymətinə" düşdü*

**Hazırda Rusiyanın "Urals" markalı neftinin bir barreli 43,72 dollara düşüb. Bu barədə "Blumberq" məlumat yayıb.**

Məlumata görə, Rusiya neftinin qiymətinin dəyişməsi G7 ölkələri, Avropa Birliyi və Avstraliyanın qiymət tavanı tətbiq etməsindən yox, Avropa bazarından çıxmasından qaynaqlanır. "Argus" agentliyinin analitiki Maykl Kerolanın sözlərinə görə, hazırda "Urals"ın heç bir alıcısı yoxdur: "Buna görə uzaqdakı alıcıları cəlb etmək üçün qiymətləri aşağı salmaq lazımdır. Bu qiymət qadağalarıyla yox, sanksiyalarla və avropalı emalçıların özünü məhdudlaşdırması ilə əlaqəlidir".

Qeyd edək ki, Avropa Birliyi Rusiya neftinin qiymət tavanının bir barrel üçün 60 dollar səviyyəsində müəyyən edilməsi barədə qərar qəbul edib.

## -BİZƏ YAZIRLAR-

### Həkimin səhvi xəstəni şikəst etdi

**Hörmətli "Ədalət" qəzeti!**

**Yazıb bildirmək istəyirəm ki, mən Baxşəliyev Həsən Cəfər oğlu Xocalı rayonundan məcburi köçkün kimi Ağdam rayon Zəngişalı kəndində müvəqqəti məskunlaşmışam.**

**Oğlum hərbçidi, hazırda Vətənə xidmət edir.**

**Hörmətli redaksiya!**

**Bildirirəm ki, ürəyimdə yaranan problemlərlə bağlı mən Bakı Sağlamlıq Mərkəzinə müayinə olunmaq üçün müraciət etdim. Mərkəzin həkimi Seymur Musayev məni anju edərək, nə mənim, nə də yaxınlarımın razılığı olmadan açıq ürək əməliyyatı etdi. Əməliyyat zamanı mən kliniki ölüm keçirmişəm.**

**Həmin vaxt mənim iki ayağım və hər iki əlimdən toka verərək guya məni yenidən həyata qaytarıblar. Bir aydan sonra sol ayağım və sağ ayaq barmaqlarım, hər iki əlimin barmaqları qaralmağa başladı. Və nəticədə sol ayağım, sağ ayaq barmaqlarım və hər iki əlimin barmaqları amputasiya olundu.**

**Bununla bağlı mən həkimə müraciət etdim və məni niyə bu günə saldığını soruşdum.**

**O isə bundan peşman olmadığını, Mərkəzin direktoru Elxan doktora müraciət etməyimi bildirərək faktiki olaraq məni kabinetindən qovdu.**

**Bakı Sağlamlıq Mərkəzinin həkimi Seymur Musayevin səhlənkarlığı nəticəsində iş qabiliyyətimi itirərək 1-ci qrup əlil olmuşam. Həkimin səhlənkarlığı ilə bağlı hüquq-mühafizə orqanlarına dəfələrlə etdiyim şikayətlərə ədalətlə baxılmır.**

**Hörmətli redaksiya!**

**Sizdən xahiş edirəm, mənim müraciət və şikayətlərimə aidiyyatı orqanlar tərəfindən baxılması üçün mənə müvafiq köməklik göstərəsiniz.**

**Hörmətlə;**
**Baxşəliyev Həsən Cəfər oğlu**

### Nazirlik qripin daha çox kimlər üçün təhlükə yaratdığını açıqladı

**"Qrip elə bir xəstəlikdir ki, bütün yaş qruplarında rast gəlinir və ona yoluxmaq insanın həyat tərzindən asılıdır. Təmasların sayı çox olarsa, yoluxma ehtimalı da yüksək olur".**

Adalet.az xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, həkim-infeksionist Təyyar Eyvazov bildirib.

Onun sözlərinə görə, risk qrupuna uşaqlar və qocalar, hamilə qadınlar, tibb işçiləri, məktəbəqədər tədris müəssisələrində xidmət göstərən heyət, həmçinin daxili orqanların xroniki xəstəlikləri və yaşından asılı olmayaraq immun çatışmazlığı olan şəxslər daxildir:

"Səhiyyə, təhsil, ictimai nəqliyyat və ictimai xidmət işçilərinin də yoluxma riski yüksəkdir.

Ümumiyyətlə, qripin fəsadları iki qrupa bölünür. Birinci qrupa aid fəsadlar bilavasitə qripin gedişi ilə əlaqədar olur. Buraya hemorragik ödemi, meningit, meningoensefalit, toksik şok aiddir. İkinci qrup ağırlaşmalar isə xəstəliyin sonrakı 4-5-ci günündə meydana çıxır və adətən bakterial infeksiyanın qoşulması ilə əlaqədar olur.

Ən təhlükəli və tez-tez baş verən ağırlaşma pnevmoniyadır.

Pnevmoniya həm ilkin olaraq, həm də yuxarı tənəffüs yollarının virus infeksiyalarından sonra da inkişaf edə bilər. İkincili pnevmoniyaya ən çox səbəb olan bakterial infeksiyalardı (pnevmokok və stafilokok). Belə pnevmoniya xəstəliyin birinci həftəsinin sonunda - ikinci həftənin əvvəlində inkişaf edir".

**"Qripin digər təhlükəli ağırlaşma kəskin respirator distres sindromudur. Bu ağırlaşmanın fonunda ciddi tənəffüs çatışmazlığı yaranır. Həmçinin qripin ağırlaşmaları otit, sinuzit, qlomerulonefrit, irinli meningit və sepsis kimi ciddi fəsadlara səbəb ola bilər", - T.Eyvazov əlavə edib.**

*Ələmdar Məmmədov,*
*Təqaüddə olan baş ədliyyə müşaviri*

# Haqsızlıq qurbanı prokurorun həyat hekayəsi

## CƏBHƏDƏN CƏBHƏYƏ...



**Bəzən Birinci Qarabağ savaşı ilə İkinci Qarabağ savaşı müqayisə edilir və üstünlük bir qayda olaraq, İkinci Qarabağ savaşına verilir. Unutmaq olmaz ki, İkinci Qarabağ savaşında xalqı vahid ordu şəklində birləşdirən şəxsiyyət-Ali Baş Komandan var idi. Xalqın, dövlətin və ordunun vəhdəti düşməni "Dəmir yumruq" altında əzərək, onları məqlubiyyətlə barışmağa məcbur etdi. Birinci Qarabağ savaşında isə vahid komandanlıq və xalqı birləşdirən iradəli liderin olmaması ilə yanaşı, o dövrdə savaşın əvvəlində Qarabağa yardım etmək imkanı müxtəlif vasitələrlə məhdudlaşdırılırdı. Başqa sözlə, xalq həmin xalqdır, rəhbər həmin rəhbər deyildir ("Qılınc həmin qılıncdır, qol həmin qol deyil").**

Bir məsələni də qeyd etmək yerinə düşərdi. 44 günlük müharibədə döyüşə atılan gənc övladlarımız torpaqlarımızı azad etmək üçün öz canlarını qurban verərək xalqımızın qəhrəmanlıq salnaməsinin daha bir qızıl səhifəsini yazdılar. Bu döyüşlər zamanı hər bir şəhid xəbəri bizi nə qədər kədərləndirib sarsıtsa da, azad edilmiş hər qarış Vətən torpağı bu kədərimizi sevinc və qürur göz yaşlarıyla əvəzləyirdi. İndi bu savaşın qaliblərinə, qazilərimizə, şəhid ailələrinə dövlət səviyyəsində diqqət və qayğı göstərilir. Lakin o zaman Birinci Qarabağ savaşında haqq etdikləri hörmət və ehtiramdan, dövlət qayğısından məhrum olan, məmur özbaşınalığına tuş gələn şəhid ailələri, qazilərimiz də var idi. Zaman keçsə də, bu gün onları da minnətdarlıq hissi ilə yad edir, öz ehtiramımızı bildiririk. Belə qazilərimizdən biri də təqaüddə olan ədliyyə müşaviri Yusif Ağayevdir.

Ağayev Yusif Şükür oğlu - 15 iyun 1963-cü ildə Bakı şəhərində anadan olmuş, 1970-ci ildə 251 saylı orta məktəbin 1-ci sinfinə daxil olmuş, 1979-cu ildə tanınmış mütəxəssis olan atası Şükür Ağayevin iş yerini dəyişməsi ilə əlaqədar Qazaxıstana köçmüş və 1980-ci ildə Alma Ata şəhərində orta məktəbi qızıl medalla bitirib, Qazaxıstan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub, 1985-ci ildə həmin fakültəni müvəffəqiyyətlə bitirərək, hüquqşünas ixtisasına yiyələnmişdir. İki il Aturan vilayətində vəkillik fəaliyyəti ilə məşğul olmuş, 1987-ci ilin iyul ayında Aturan vilayət prokurorluğunda istintaq idarəsinin prokuroru vəzifəsinə təyin olunmuşdur. Onun iş qabiliyyətini, peşəkarlığını, intellektual səviyyəsini, rus və qazax dillərini mükəmməl bilməsini görən rəhbərlik irəli çəkir. 1991-ci ilin yanvar ayında Qazaxıstanın Manqistau vilayətinin prokurorunun köməkçisi təyin edilən Yusif Ağayevi daha yüksək vəzifələr gözlədiyi halda O, Vətənin harayına çatmağa qərar verir. Öz xahişi ilə Azərbaycana gəlir və1991-ci ilin mart ayında Azərbaycan Respublikasının Baş Prokuroru yanında mühüm işlər üzrə müstəntiq vəzifəsinə təyin edilib, Şuşa şəhərində yerləşən DİN, MTN və Baş Prokurorluğun birgə təşkil etdiyi Vahid istintaq əməliyyat qrupuna ezam olunur.

1992-ci ilin may ayında könüllü olaraq Azərbaycan Respublikasının silahlı qüvvələrinə qatılmış, 839-saylı hərbi hissənin kəşfiyyat komandiri vəzifəsinə təyin edilmiş, 28 iyun 1992-ci ildə Tuğ kəndi uğrunda gedən döyüşlərdə ağır yaralanmışdır. 1992-ci ilin avqust ayında Qarabağ Qarnizonu hərbi prokuroru vəzifəsinə təyin edilib. 1993-cü ilin iyun ayının 26-da Ağdam rayonunun Boyəhmədli kəndi uğrunda gedən döyüşlərdə ikinci dəfə ağır yaralanmışdır. 1996-cı ilin aprel ayında öz ərizəsinə əsasən Qarabağ hərbi prokuroru vəzifəsindən azad edilərək Tərtər rayon prokurorunun müavini vəzifəsinə təyin olunmuş, 1998-ci iln may ayından noyabr ayına kimi Tərtər rayon prokuroru vəzifəsini müvəqqəti icra etmiş, 25 noyabr 1998-ci ildə Tərtər rayon prokuroru vəzifəsinə təyin edilmişdir. 2003-cü ilin noyabr ayında 5 illik konstitutsiya müddəti bitdiyinə görə vəzifəsindən azad edilib, 5 ilə yaxın sərəncamda saxlanılmışdır. 2008-ci ilin fevral ayında ərizəsinə əsasən əlilliyə görə pensiyaya çıxmışdır.

### *Müsahibələrin birində Yusif Ağayev deyir:*

"Qarabağ bizim hər birimizin namusu, qeyrətidir... Ona xəyanət etmiş cinayətkarları boğazlayıb, müttəhimlər kürsüsündə əyləşdirmək naminə hər şeyə, hətta canımdan keçməyə də hazıram. Təki murdar niyyətlilərin ləpirlərini torpağımızdan qazıyıb ataq".

Baş Prokuror İsmət Qayıbov Yusif Ağayevin iş qabiliyyətini, habelə Qazaxıstanda olarkən qaynar nöqtələrdə - Yeni Uzen, Oş və daha öncə Alma Atada baş verən hadisələrin təhqiqatında bilavasitə iştirak etməsini nəzərə alıb ən çətin və ağır işlərin istintaqını ona tapşırır.

Yusif Ağayev işə başladıqdan az müddət keçmiş - 13 may 1991-ci ildə DİN-nin əməkdaşları, Daxili Qoşunların əsgərləri və prokurorluq işçiləri Cəbrayıl rayonundan Hadrut istiqamətində hərəkət edərək pasport rejimini yoxlayır, separatçıları müəyyən edirdilər. Bu uğurlu əməliyyat nəticəsində faktiki olaraq əldən getmiş 14 kənddə Azərbaycan hakimiyyəti bərpa edildi. Baş prokuror İsmət Qayıbovun göstərişinə əsasən separatçıların müəyyən edilib, məsuliyyətə cəlb edilməsi üçün yaradılmış istintaq-əməliyyat qrupuna Yusif Ağayev rəhbərlik edirdi. Bir çox separatçı ələ keçir, çoxlu silah-sursat tapılaraq götürülür. Həmin təmizləmə zamanı ələ keçən sepatçılardan Baxtaliyan Serji Surenoviç haqqında başlanmış cinayət işininin istintaqını Yusif Ağayev aparır. İstintaq taktikasının düzgün qurulması nəticəsində müqəssir şəxs törətdiyi cinayət əməlini etiraf etməli olur və gizlətdiyi xarici ölkədə istehsal olunmuş radiostansiyanın, hərbi radiostansiyalar üçün nəzərdə tutulmuş akkumlyatorların və çoxlu sayda döyüş sursatının yerini göstərməli olur. Azərbaycan SSR Ali Məhkəməsinin hökmü ilə S.Baxtaliyan məhkum edilir.

Pasport rejimi yoxlanarkən məlum oldu ki, Stepanakert şəhər partiya komitəsinin 2-ci katibi, Karlen adında məmur da Hadrutta saxlanılıb. Karlenlə hörmətlə davranılır və onun təşəbbüsü ilə Ermənistan Respublikasına köçmək istəyənlərdən ərizə alınır. Bir neçə gündən sonra Ağdam rayon prokuroru Zakir Məmmədov Yusifə zəng edir və rəhbərliyin tapşırığına əsasən Ağdama gəlməsi tapşırılır. Yusif Ağayev prokurorun kabinetinə girərkən Azərbaycan SSR Baş prokurorunun müavini Nikolay Pustoviti və SSRİ Baş Prokurorunun müavini, İstintaq İdarəsinin rəisi V.S. Qalkini görür. V. Qalkin əsəbi halda Yusifə müraciətlə deyir: "Sən nə üçün erməni xalqını evindən-eşiyindən edib, vətənlərindən qovursan? Səni həbs edəcəyəm". Bu zaman Baş Prokuror İsmət Qayıbov gəlir və bir qədər gərgin keçən söhbətdən sonra onu V.Qalkinin əlindən qurtarır.

***Qeyd: Həmin əməliyyatın keçirilməsində fəal iştirakına görə Yusif Ağayev Azərbaycan SSR DİN-nin 06 iyun 1991-cii il tarixli əmri ilə Fəxri Fərmanla təltif olunmuşdur.***

1991-ci ilin noyabr ayının ortalarında Baş Prokurorluğun Dağlıq Qarabağ üzrə Vahid istintaq əməliyyat qrupunun rəhbəri, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri Şükür Rzayev separatçılar tərəfindən girov götürüldü. Baş prokuror İsmət Qayıbov hadisəni yerində araşdırmaq, Şükür Rzayevi əsirlikdən azad etmək məqsədi ilə Qarabağa, Xankəndinə gedərkən Yusif Ağayevi də özü ilə aparmışdı. 18 noyabr 1991-ci ildə İsmət müəllim Yusif Ağayevi xüsusi tapşırıqla Bakıya göndərir və 19 noyabrda məlum vertolyot qəzasında digər dövlət məmurları ilə birlikdə İsmət Qayıbov da şəhid olur...

28 yanvar 1992-ci ildə Ağdamdan Şuşaya hərəkət edən növbəti vertolyotun uçuşu zamanı faciə baş verdi. Belə ki, mülki əhalini daşıyan "Azal" konserninə məxsus 24137 bort nömrəli Mİ-8T vertolyotu ermənilər tərəfindən "Yer-Hava" tipli raketlə vuruldu.

Yanvarın 28-də Rusiya televiziyasının Birinci proqramında Moskvadakı Azərbaycan nümayəndəliyi bəyanat verdi ki, saat 16:20-də Ağdam-Şuşa marşrutu üzrə hərəkət edən "Mİ-8T" vertolyotu erməni separatçıları tərəfindən vurulmuşdur. Həmçinin qeyd edilirdi ki, Xankəndindən açılan raket atəşi ilə vurulan vertolyotda uşaqlar da daxil olmaqla 30-dan çox sərnişin ölüb. Çoxlu sayda uşaq və qadın ölümünə səbəb olan bu faciə erməni mətbuatı və rəsmiləri tərəfindən "qəza" adlandırılaraq beynəlxalq ictimaiyyəti aldatmaq istəyirdilər. Azərbaycan nümayəndəliyinin bəyanatından sonra Qarabağda yerləşən erməni qüvvələrinin baş qərargahı, dəstələrin komandirləri Qarabağda "Yer-Hava" tipli raket qurğusunun olmasını inkar etdilər.

Həmin hadisə ilə əlaqədar başlanmış cinayət işinin istintaqı Yusif Ağayevə tapşırılmışdı. Mütəxəssislərin iştirakı ilə hadisə yeri müayinə edilib, ekspertizalar təşkil edildi. Yusif Ağayev tezliklə istintaq-əməliyyat yolu ilə müəyyən etdi ki, 47 nəfərin ölümü ilə nəticələn faciə erməni faşistləri tərəfindən törədilmiş, raket 366-cı Alayın ərazisindən buraxılmışdır.

07.02.1992-də Rəhim Qazıyevin "Qarabağ özünü müdafiə batalyonu" Şuşaya gəlir. Gecə Məmmədov Emin adlı şəxs "AKM" markalı silahdan atəş açmaqla 10 nəfəri öldürür və çoxlu sayda döyüşçü yaralanır. Rəhim Qazıyevin cangüdəni Nofəl Kazımov cinayətkarı güllələyir. Həmin cinayət işinin istintaqı da Yusif Ağayevə tapşırılır. Yusif Ağayev istintaqın əvvəlindən bir çox çətinliklə rastlaşır. Rəhim Qazıyev yüngül yaralansa da müayinədən keçməkdən imtina edir. Və yaxud batalyonun snayperi Babayev Ramiz bir müddət sonra müdafiə naziri təyin edilən Rəhim Qazıyevin göstərişi ilə prokurorun sanksiyası olmadan 1 ay həbs edilir və onun həbsdən azad olunması zamanı Müdafiyə Nazirliyi və DİN əməkdaşları arasında silahlı toqquşmaya çevrilə biləcək gərginlik yaranır və.s.

Müstəntiqlik fəaliyyətini hüquqi müstəvidə həyata keçirən Yusif Ağayev bəzən əlinə silah almalı olurdu. 9 yanvar 1992-ci ildə Füzuli rayonunun Qaradağlı kəndində 6 nəfər azərbaycanlı ermənilər tərəfindən öldürülmüşdü. Hadisə yerinə gələn Yisif Ağayev ermənilərin aramsız atəşinə cavab olaraq "AKM" markalı silahdan atəş açmaqla ön xətdə döyüşür və bir heçə yaralının, həmçinin milis kapitanı Faiq Rəfiyevin meyidinin səngərdən çıxarılmasına nail olur. Sonra ratsiya ilə ermənilərlə əlaqə yaradaraq digər meyidlərin çıxarılmasını da təşkil edir.

**Haşiyə:** Yusif Ağayevin vətənpərvər insan kimi vəzifəsinə aid olmayan hərəkətlərindən çox danışmaq olar. Məlumdur ki, ermənilər Xocalıda qətliam törətməklə yanaşı coxlu sayda qadın və uşağı girov götürmüşdülər. 1992-ci ilin mart ayının əvvəllərində özünü rayon prokuroru kimi təqdim edən Yusif Ağayev və milis rəisi kimi təqdim edən MTN-nin Füzuli rayon şöbəsinin rəisi Fəxrəddin Həşimov bir qadın və uşağı erməni girovluğundan azad edib, Füzuli rayonuna gətirdilər. Füzuli rayon prokuroru rəhmətlik Eldar Məcidov Yusifin bu fədakarlığı barədə Baş Prokurorluğa təqdimat yazmışdı.

Bu, sirr deyil ki, çoxları Xocalı qətliamına kimi məsələnin sülh yolu ilə həllinə inanırdı. Lakin hadisələrin ən qaynar nöqtəsində olan, erməni faşizminin iç üzünü görən Yusif Ağayev həyəcan təbili çalırdı. Onun 14 fevral 1992-ci ildə "Ədalət" qəzetində dərc edilmiş müsahibəsində oxuyuruq: "Doğrusu, labirintdən çıxmağın siyasi yolları üzərində düşünənlərimiz, gücə-güclə, türklər demişkən. "zora-zorla" cavab verməyin vacibliyini nədənsə unudurlar. Digər tərəfdən qüvvələrimizin pərakəndəliyi, respublika rəhbərlərinin astagəlliyi, çox vaxt isə yarımçıq tədbirləri ilə barışa bilmirəm."

Erməni vəhşilikləri çoxalır, cinayət işlərinin sayı artırdı. Bütün prosessual qaydalara əməl etməklə aylarla istintaq apar ki, erməni müqəssirlərə qiyabi ittiham verib, nəticəsiz axtarış elan edəsən. Yusifin qəlbi buna dözə bilməzdi. Haqqında istintaq aparmaqla düşmənə layiqli cavab vermək olmazdı. Düşmənə əldə silah düşmən kimi cavab vermək lazımdır - deyirdi, müstəntiq Yusif Ağayev. Bu məqsədlə 1992-ci ilin aprel ayında Baş Prokuror Murad Babayevə ərizə ilə müraciət edərək döyüşən orduya - düşmənlə açıq mübarizə cəbhəsinə getdi Yusif.

### *28 iyun 1992-ci il tarixli əməliyyat*

təkcə döyüşçülərimizin qəhrəmanlığı, fədakarlığı, cəsarəti ilə deyil. həm də daxili düşmənlərin açıq-aşkar xəyanətinin dərəcəsinə görə tarixə düşən, yaddan çıxmayan hadisələrdəndir. Belə ki, "N" saylı hərbi hissənin 2-ci batalyonu həmin gün saat 08.00 də Tuğ-Azıx kəndləri istiqamətində hücuma keçib, saat 20.00-a kimi Tuğ, Azıx və Başdağ kəndlərini erməni hərbi birləşmələrindən təmizləməli idi. Plana görə, hücumdan bir saat əvvəl Tuğ, Azıx istiqamətində yerləşən erməni döyüş mövqelərinə artilleriya və raket zərbələri endirilməli və bundan sonra hücum başlanmalı idi. Xəyanət nəticəsində həmin istiqamətə bir dənə də olsun top və raket atəşi açılmadı. Əksinə, guya qoşunlarımızın Edilli-Ağbulaq kəndləri istiqamətində hücum etməsi barədə yalnış məlumat əsasında 700-dən artıq raket zərbələri boş sahələrə endirildi.

Lakin bütün bunlara baxmayaraq, komandir Rasim İbrahimov batalyonu hücuma qaldırmış və artıq saat 10 radələrində 5 km irəliləyərək Tuğ kəndini yaxınlığındakı "Dırnabanabənd" deyilən əraziyə çatmışdılar. Hücum tank və toplarla mühafizə edilmədiyindən, qonşu hissələrin hücuma keçməməsindən istifadə edən düşmən bütün texnikasını batalyona tərəf yönəldərək hər tərəfdən atəş açmaqla döyüşçülərimizi mühasirəyə almışdı.

Ağır döyüşlərdə batalyon komandiri Rasim İbrahimov (Ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür) ayağından ağır yaralanmışdı.



Həmin döyüşlə əlaqədar 07 iyul 1992-ci il tarixli 159 saylı vəsadətdən bir parçanı oxucuların nəzərinə çatdırıram:

***""N" saylı hərbi hissənin komandiri, polkovnik İ.Qasımov cənablarına***

***Surəti: Füzuli Rayon İcra Hakimiyyətinin başçısı A.O.Mehdiyev cənablarına***

***"N"saylı hərbi hissənin bir qrup əsgər və zabitlərinin "Azərbaycanın Milli Qəhrəmanı" adına təqdim olunmasına dair.***

***... Bu qanlı vuruşmada Yusif Ağayevin komandir olduğu kəşfiyyat vzvodunun 13 nəfərdən ibarət heyəti yaralı komandir Rasim İbrahimovu döyüş meydanından çıxarmağa cəhd edərkən 3 nəfər döyüşçü şəhid olmuş, 7 nəfər isə ağır yaralanmışdır. Tək qalan Yusif Ağayev 40-a yaxın düşmən əhatəsində olsaa da, bir-birinin ardınca 4 ədəd F-1 markalı əl qumbarasını düşmən tərəfə atmaqla onlara böyük təlafat vermiş, mühasirəni yarıb çıxmış və aldığı kontuziyadan huşunu itirmişdir. Köməyə gələn döyüşçülər Yusif Ağayevi döyüş meydanından çıxarıb tibb məntəqəsinə gətirmişlər..."***

Vəsadətdə daha sonra oxuyuruq: "09.06.1992-ci ildə Y.Ş.Ağayevin hazırladığı plan üzrə kəşfiyyat vzvodu düşmənin Yuxarı Axullu kəndində yerləşən atəş nöqtələrini müəyyən edərək, məhv etmişdir..."

"16.05.1992-ci ildə Yusif Ağayev komandirlik etdiyi 20 nəfərdən ibarət dəstə ilə "Güngörməz"-ə hücum etmiş, 4 saatlıq vuruşmada özünü bacarıqlı, soyuqqanlı komandir, mərd və cəsur döyüşçü kimi göstərmişdir."

Digər mərd və cəsur insanların qəhrəmanlığı göstərilməklə vəsadət aşağıdakı sözlərlə yekunlaşır: "Ona görə də İbrahimov Rasim Səxavət oğluna, Mehdiyev Firudin Sovet oğluna, Hüseynov Saleh Balaca oğluna, Qarayev Sahib Əli oğluna ölümlərindən sonra, Ağayev Yusif Şükür oğluna, Heydərova Gülbar Heydər qızına, Süleymanov Cahid Cümşüd oğluna, Paşayev Fərmayıl Sabir oğluna, Nəsirov Tofiq Qamboy oğluna və Ağayev Eldar Əhməd oğluna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi üçün respublika Prezidenti qarşısında vəsadət qaldırmanızı xahiş edirəm. "N" hərbi hissəsinin komandiri S.M.Əbilov".

Yusif Ağayevin və Ağabala Quliyevin bacarıqlı döyüşçü olmalarını sübut edən daha bir sənədə diqqət yetirək:

***"Azərbaycan Respublikasının Baş Prokuroru M.K.Babayev yoldaşa***

***Hörmətli Murad Babayev!" sözləri ilə başlayan məktubda Ağabala Quliyev və Yusif Ağayevin cəbhədə göstərdikləri şücaətlər sadalanır və sonda onların ezamiyyət müddətinin artırılması xahiş olunur. Məktubda oxuyuruq: "Y.Ağayevin ezamiyyət müddətinin 12 iyun 1992-ci ildə, A.Quliyevin ezamiyyət müddəti isə 17 may 1992-ci ildə başa çatdığından və A.Quliyev 2 may 1992-ci ildə qərargah rəisi vəzifəsinə təyin olunduğundan onlara yenidən 3 aylıq ezamiyyət verilməsini təmin etməyinizi rica edirəm. S.İbrahimov, 839 saylı hərbi hissənin komandiri, mayor"***

1992-ci ilin avqust ayında Yusif Ağayev ilk dəfə yaranan və yurisdiksiyasına bütün Qarabağ rayonları daxil olan Qarabağ Qarnizonu hərbi prokuroru vəzifəsinə təyin edilir.

**Haşiyə:** 2-ci Dünya Müharibəsində 1942-ci ilin yayında sovet ordusunun vəziyyəti pisləşmişdi. Almanlar sürətlə Stalinqrada, Şimali Qafqaza yaxınlaşırdı. Belə bir vəziyyətdə Stalin bu gün də mübahisə doğuran 28 iyul 1942-ci il tarixli məşhur 227 saylı əmr verdi. Həmin əmrdə digər ciddi məsələlərlə yanaşı məhbuslardan da istifadə olunması nəzərdə tutulurdu. Beləliklə, cərimə batalyonları və cərimə rotaları yarandı. Hərb tarixini yaxşı bilən Yusif Ağayev Respublika Hərbi prokuroru Rövşən Əliyevlə məsləhətləşərək müxtəlif hüquq pozuntularına görə saxlanılmış 15 nəfər dustağı həbsdən azad edib, döyüş bölgəsinə göndərir. Həmin keçmiş müqəssirlərin əksəriyyəti kişi kimi döyüşüb şəhid oldular. Onlardan polkovnik-leytenant rütbəli zabitin şəhid olduqdan sonra cibindən anasına yazdığı və göndərə bilmədiyi məktub tapıldı. Zabit məktubda ona verilən fürsətdən ləyaqətlə istifadə edəcəyini, lazım gələrsə Vətən üçün canını belə əsirgəməyəcəyini bildirirdi...

Yusif Ağayev prokuror vəzifəsində olmasına baxmayaraq döyüşçü yoldaşları ilə əlaqəni üzmür, gərgin anlarda onların harayına çatırdı. 1993-cü ilin iyun ayının 26-da Ağdam rayonunun Boyəhmədli kəndi uğrunda gedən döyüşlərdə ikinci dəfə ağır yaralanmış, huşsuz vəziyyətdə Bakı şəhərindəki hərbi hospitala gətirilmişdi.

Yusif Ağayevin döyüş dostlarının dediklərindən:

***Rəfiyev Elçin Məmməd oğlu - 1961-ci ildə Füzuli rayonunda anadan olmuş, münaqişənin əvvəlindən döyüşlərdə iştirak etmişdir. "Mən Yusif müəllimi 08 may 1992-ci ildən tanıyıram. Bizi, bir qrup əsgəri 862 saylı hərbi hissədən Füzuli rayonunda yerləşən Rasim İbrahimovun komandir olduğu 839 saylı hərbi hissəyə göndərmişdilər. Həmin vaxt Yusif Ağayev kəşfiyyat dəstəsinin komandiri idi. 28.06.1992-ci ildə Tuğ-Azıx əməliyyatında mən də iştirak etmişəm. Yusif müəllim həmin döyüşdə böyük fədakarlıq və igidlik göstərmiş, ağır kontuziya almışdı. Bir müddətdən sonra Yusif Ağayevi Qarabağ Qarnizonu hərbi prokuroru təyin etdilər. Yusif müəllim öz hərəkətləri ilə döyüşçüləri ruhlandıra bilirdi. Hətta tabelikdə olmayanlar da onu özünə komandir hesab edirdi. Təsadüfi deyil ki, 1993-cü ildə Yusif müəllim ağır yaralanıb hospitalda müalicə olunarkən keçmiş döyüşçü dostları onun palatası önündə keşik çəkirdi. Bir gün də mən keşik çəkmişəm..."***

**Quliyev Müqasif Yusif oğlu -** 1971-ci ildə Füzuli şəhərində anadan olmuş, 1988-ci ildən döyüşlərə qatılmışdır: "Mən 1991-ci ildə Yusif müəllimlə tanış olmuşam. Növbə ilə postlarda dayanırdıq. Əldə cəmi 5 avtomatımız var idi. Silah götürməyə gedərkən tanımadığım hərbi geyimli adamı gördüm. Dedilər ki, Şuşadan gələn müstəntiqdir. Bir müddətdən sonra Yusif müəllim kəşfiyyat rəisi təyin edildi. Mən onun köməkçisi idim. Edilli kəndi ətrafında döyüşlərdə Yusif müəllimin avtomat silahının patronları qurtarmışdı. Əlində cəmi bir gülləsii qalan "TT" markalı tapança var idi. O, əsir düşməmək üçün canından keçməyə hazır idi...

Yusif müəllimlə 28 iyun 1992-ci ildə Tuğ-Azıx uğrunda gedən döyüşlərdə də iştirak etmişəm. Sonra onu hərbi prokuror təyin etdilər. Mən onun mühafizə dəstəsində xidmət edirdim. Yusif müəllim Ağdamın Boyəhmədli kəndi uğrunda gedən döyüşdə yaralanda da onun yanında idim. Mən həyatım boyu Yusif müəllim qədər təvazökar və tələbkar, sakit və qətiyyətli, igid və cəsarətli, vətənsevər, qeyrətli insan görməmişəm..."

**Hacıyev Camal Kamal oğlu -** 1962-ci ildə Füzuli rayonunda anadan olmuşdur. Qarabağ münaqişəsi başlayandan həmişə qaynar nöqtələrdə olub. Yusif Ağayevlə də həmin vaxtlar tanış olub: "Biz əsgər və zabitlər Yusif müəllimi çox sevirdik. Onda insanları cəlb etmə və ruhlandırma qabiliyyəti var idi. 28.06.1992-ci il tarixli əməliyyatda mən də iştirak etmişəm. Həmin döyüşdə Yusif müəllim yaralansa da, hospitalı tərk edərək yenidən döyüş sahəsinə gəlmişdi. Bir dəfə Yusif müəllim istintaq qrupu üçün verilmiş BTR-lə Şuşadan Ağbulağ kəndinə gəlmişdi. Bu erməniləri bərk qorxuya salmışdı..."

### *Xatırlama*

***1-ci Qarabağ Savaşında bütün qaynar nöqtələri gəzib-dolaşmış, Əməkdar jurnalist, Qarabağ müharibəsi veteranı, tanınmış şair və publisist Əbülfət Mədətoğlunun dediklərindən: "Hüquqşünas dostum Ələmdar müəllimlə keçmiş illərdən, Qarabağın işğalda olduğu zamanlardan danışırdıq. Söhbət əsnasında söz-sözü çəkdi. Ələmdar müəllim Yusifdən söhbət saldı. Onu tanıyıb-tanımadığımı soruşdu. Bir anlıq xatirələr mənə güc gəldi. Ötən günlərə qayıtdım. Yusifin qaynar gəncliyi, heç nədən çəkinmədən, birbaşa hadisə yerlərinə getməsi, istintaqa cəlb olunmuş erməni saqqallıları ilə davranışı, bir ittihamçı kimi qətiyyəti elə bil ki, bir kino lenti idi. Mən də onu izləyirdim...***

***Yusif Ağayevlə 1991-ci ildə - o vaxtkı Dağlıq Qarabağda qarşılaşdım. O, istintaq qrupunun üzvü idi. Sözümüz-söhbətimiz tutdu. Bir-birimizlə doğmalaşdıq. Demək olar ki, tez-tez görüşür, baş verən hadisələrə qiymət verir, fikir mübadiləsi edirdik. Artıq mən onun ailə həyatını da öyrənmişdim. Evin tək oğlu olduğunu da bilirdim. Və onu da öyrənmişdim ki, Yusif Ağayev Azərbaycandan kənarda işləməsinə baxmayaraq, könüllü şəkildə Vətənə qayıtmışdı. Bir oğul, bir övlad borcunu yerinə yetirmək istəyirdi. Hər söhbətimizdə ona ailə qurmaq barəsində xatırlatma etsəm də, "Darıxmayın, məsələni çözək, qurtaraq, ondan sonra sizi də toya dəvət edəcəm" - deyirdi.***

***Mən Yusif Ağayevin keçmiş Martunidə, eləcə də Hadrut qəsəbəsində, hətta keçmiş Mardagert, indiki Ağdərədə törədilən erməni cinayətləri ilə bağlı hadisə yerinə qorxub-çəkinmədən necə getdiyinin də şahidi olmuşam. Hər dəfə də onun bu riskli hərəkətlərindən bir təlaş yaşamışam. Amma Yusif Ağayev əsl hüquqşünas kimi, əsl Azərbaycan oğlu kimi öz işini görürdü. Həyat elə gətirdi ki, onunla bağlı o zaman çalışdığım "Xalq ordusu" qəzetində bir neçə yazı yazdım. Və hətta Yusif Ağayevlə Dağlıq Qarabağdakı kriminal durumla bağlı geniş müsahibəmizi də "Qarabağ" qəzetində çap etdirdim.***

***İndi o günləri - birlikdə keçib getdiyimiz yolları, mənim Tuğ kəndimdəki ata evimdə ayaqüstü keçən anlarımızı xatırlayıb, haqqı, zəhməti dəyərləndirilməyən, xidmətinə önəm verilməyən Yusif Ağayevi burdan salamlayıram. İnanıram ki, gec-tez onun Qarabağ qazisi kimi xidmətləri aidiyyatı qurumlar tərəfindən qiymətləndiriləcəkdir..."***

Yusif Ağayev haqqında dövrü mətbuatda da xeyli yazılara rast gəlirik. "Şabran" qəzetində 23 oktyabr 1991-ci ildə dərc olunmuş "Cəbhə dostları" başlıqlı yazıda gənc müstəntiqin qaynar nöqtələrdəki fəaliyyətindən söhbət açılır".

Ordu" qəzetində 21 iyul və 29 iyul 1992-ci il tarixlərdə dərc olunmuş "Vəsadət"də Yusif Ağayevin və cəbhədaşlarının döyüşlərdə göstərdikləri şücaətlərdən bəhs olunur.

"Ədalət" qəzetinin 14 fevral 1992-ci il tarixli sayındakı müsahibəsində Yusif Ağayev hadisələrə baxış tərzini, bir növ həyat kredosunu açıqlayır.Yenə "Ədalət" qəzetinin 14 iyul 1992-ci il tarixli sayında 839 saylı hərbi hissənin komandirinin Azərbaycan Respublikasının Baş prokuroru Murad Babayevə ünvanladığı müraciətdə Yusif Ağayevin və Ağabala Quliyevin döyüş şücaətləri sadalanmaqla, onlara əlavə ezamiyyət verilməsi xahiş olunur.

Beləliklə, Yusif Ağayevin ikinci cəbhə həyatı şərəflə başa çatdı.

Kimlə döyüşdüyünü bilmədən, əlindəki silahı qələmlə əvəz edib, sonu görünməyən mübarizədə keçəcək 3-cü cəbhə həyatı gözləyirdi Yusifi!

Döyüşçü missiyasını başa vuran və qazi olmuş Qarabağ Qarnizonu hərbi prokuroru Yusif Ağayev hərbi xidmətdən kənarlaşmaq qərarına gəlir və1996-cı ildə öz ərizəsi ilə mülki prokurorluqda daha aşağı işə - Tərtər rayon prokurorunun müavini vəzifəsinə təyin olunur. Bir müddətdən sonra Tərtər rayon prokurorunun səlahiyyətlərini icra edən Yusif Ağayev 1998-ci ilin noyabr ayında həmin rayonun prokuroru vəzifəsinə təyin edilir. Rayon prokuroru işlədiyi müddətdə insanlara qayğı ilə yanaşması, cəbhə bölgəsində yerləşən rayonun ictimai-siyasi həyatında fəal iştirak etməsi Yusif müəllimə böyük hörmət və nüfuz qazandırır. Baş Prokurorluqda da onun işi müsbət dəyərləndirilir. Təsadüfi deyil ki, 5 illik konstitusiya müddətinin başa çatması ilə əlaqədar keçirilən kompleks yoxlamada ona ciddi irad tutulmur. 26 noyabr 2003-cü ildə müddətin başa çatması ilə əlaqədar vəzifəsindən azad edilib sərəcama götürülür. Bütün mərəkələrdə bundan sonra başlayır...

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında qanun"un 12-ci maddəsində göstərilir: "Prokurorluq işçisi xidməti intizamı pozduğuna, səlahiyyət müddəti başa çatdığına və ştatların ixtisarına görə vəzifədən azad edildikdə üç ayadək müddətdə sərəncamda ola bilər". Qanunun mahiyyətindən göründüyü kimi işçi üç ay müddətində əvvəlki işində aldığı əmək haqqını almalı və müddət tamam olduqda eyni təsnifata uyğun işlə təmin edilməli və yaxud öz razılığı ilə başqa işə keçirilməlidir. Lakin Yusif Ağayevə heç bir izahat vermədən, səbəb göstərilmədən hətta aşağı maaşlı iş təklif olunmadan düz 51 ay, yəni 4 il 3 ay sərəncamda saxlanılır (Təəsüf hissi ilə qeyd edirəm ki, yüzdən artıq əməkdaş qanunsuz olaraq uzun müddətli "sərəncam məngənəsində" boğulub). Dəfələrlə Baş prokuror Zakir Qaralovun qəbuluna düşmək istəsə də, onu qəbul etmirlər.

Nəhayət, təngə gələn Yusif Ağayev 2008-ci ilin fevral ayında öz ərizəsi ilə əlilliyə görə pensiyaya çıxmalı olur. Edilənlər azmış kimi Yusif Ağayevin iş stajı da düzgün hesablanmır. Onun xidmət illəri 20 il 7 ay 12 gün hesablanır. Yusif Ağayev isə iddia edir ki, onun xidmət illəri 32 il 4 ay 7 gün təşkil edir.

Qanuni qüvvəsini almış məhkəmə qərəalarını şübhə altına almadan deyə bilərəm ki, Uzaq Şimala bərabər tutulmalı olan Qazaxıstan SSR-nin Quryev və Manqustau vilayətlərindəki və döyüşən ordudakı xidmət illərinin nəzərə alınmaması təəcüb doğurur.

Yusif Ağayev "məcburi proqul" günlərində də Vətənə xidmət edib, tarixi mövzuda bir neçə sanballı əsərlər yaradıb. 2006-cı ildə rus dilində çapdan çıxmış "Ak-koyunlu-osmanskaya voyna (1472-1473 qodı)" - "Ağqoyunlu-Osmanlı müharibəsi (1472-1473 illər)" kitabı mükəmməl elmi-tarixi əsər olmaqla iki türk dövlətinin savaşında xarici qüvvələrin rolu aydın şəkildə göstərilmişdir. Əsərin yazılmasında Azərbaycan, türk ədəbiyyatlarından əlavə rus, fars, ingilis, alman, fransız dillərində 113 mənbədən istifadə olunmuşdur.

Yenə 2006-cı ildə işıq üzü görən həmmüəllifi olduğu "Azərbaycanın hərb işi tarixi" kitabı Hərbi Akademiyada dərslik kimi istifadə olunur. 2009-cu ildə çapdan çıxan "İstiqlal yürüşü" kitabında Nuru Paşanın rəhbərliyi altında Qafqaz İslam Korpusunun qəhrəmanlıq yolundan bəhs olunur.

2014-cü ildə rus dilində çapdan çıxan "Voennoe iskusstvo tyurkov v oquzskom epose Kitabi Dede Qorqud" (Kitabi Dədə Qorqud oğuz eposunda türklərin hərb sənəti) kitabı həqiqətən dəyərli əsərdir. Məsələ burasındadır ki, "Kitabi Dədə Qorqud" bir çox dillərə tərcümə olunub, Oğuzların məişət, həyat şəraiti, mərdliyi və cəsurluğu göstərilsə də, hərb sənətinə dair ilk dəfədir ki, araşdırma aparılır.

2021-ci ildə Yusif Ağayevin növbəti kitabı çapdan çıxır. "Voennoe iskustvo Azerbaydjanskoqo naroda v narodnom epose "Kyoroqlu" (Koroğlu xalq eposunda Azərbaycan Xaqının hərb sənəti). Koroğlu dastanını hamımız sevə-sevə oxumuşuq. Lakin bu əsər həmin dövrün hərb sənətinə dair yazılmış ilk kitabdır.

Yusif Ağayev hazırda Nizami Gəncəvi yaradıcılığında Azərbaycan xalqının hərb sənəti mövzusunda növbəti kitabı üzərində işləyir.

**Sözardı:** Yusif Ağayevlə eyni orqanda işləsək də, yaxından tanışlığımız olmayıb. Onun şücaətlərini araşdırıb öyrəndikdən sonra ilk görüşümüzdə qarşımda yaşına görə daha gənc görünən, bir qədər utancaq, böyük-kiçik yeri bilən, ədəbli, savadlı, üzügülər insanı görərkən məşhur Türk dizisindəki bir səhnə yadıma düşdü... "Kurtlar vadisi" filmində Hüsrey Ağa Polad Alemdara müraciətlə deyir: "Mən də insan sərrafıyam. Məktəblisən. O əllər tutsa-tutsa qələm tutar. O bıçaq bu əllərə necə sığışdı?"...

***P.S. Son dövrlərdə mətbuat səhifələrində "5-ci kolon" ifadəsi tez-tez işlənilir. "5-ci kolon" (isp.quinta columna) dedikdə adətən 3-cü dövlətin xeyrinə işləyən casus şəbəkəsi başa düşülür. Xüsusi ilə 2-ci Dünya Müharibəsində almanlar müxtəlif ölkələrdə qurduqları şəbəkələrə insanları cəlb edib, öz məqsədləri üçün istifadə edirdilər. Lakin zaman-zaman bu söz həqiqi mahiyyətini itirərək daha çox siyasi termin kimi işlənməyə başladı. Kadr potensialını zəiflətmək, layiqli kadrların korlanması, başqa mədəniyyətlərə pərəstiş edilməsi, insanların dövlətdən narazı salınması və.s. əməllər törədənləri "5-ci kolonun nümayəndəsi" adlandırmağa başladılar.***

***Əsl Azərbaycan ziyalısı kimi Azərbaycan, rus, türk, qazax və ingilis dillərini mükəmməl bilib istintaq aparan, ərəb, fars dillərində lüğətin köməyi ilə ədəbiyyatdan istifadə etməyi bacaran, Azərbaycanımızı ən mötəbər tədbirlərdə ləyaqətlə təmsil edə bilən, hüquqşünaslıqda və idarəçilikdə peşəkar kadrlardan sayılan, hüquq, tarixi və hərbi sahədə geniş araşdırmalar aparıb dərslik səviyyəli 5 kitabın müəllifi olan, ailənin tək oğlu olduğundan valideyinlərinin təkidli tələb və xahişinə baxmayaraq müharibə qurtarana qədər ailə həyatı qurmağı özünə rəva görməyən (32 yaş), torpaq və Vətən yolunda canından keçməyə hər an cəsarəti çatan Qarabağ qazisini 40 yaşından işsiz qoymaq dövlətçiliyə və xalqa qarşı yönəlmiş, yalnız "5-ci kolon" nümayəndəsinə xas olan hərəkət deyilmi?!***



Əbülfət MƏDƏTOĞLU

# Şair etirafı

## Və yaxud ilahidən istək

*Adətən dostlarımın, tələbə yoldaşlarımın barəsində nəsə yazmaq istəyəndə xeyli götür-qoy edirəm. Bu da səbəbsiz deyil. Çünki az qala özüm qədər tanıdığım bu adamlar həyatımın bir parçasıdı. Və deməli mən də həmin yazılarla elə özüm haqda da yazmış oluram. Bax, bu məsuliyyət həmin yazılara tərəf üz tutmaqda daha çox düşünməyə, daha çox götür-qoy etməyə məcbur edir. Amma elə ki, sözün qapısı açıldı. Onda ürək öz pıçıltılarını bir-birinin ardınca düzür və son nöqtəyə gəlib çatanda bir daxili rahatlıq yaşayıram.*

*Bu gün daha çox qarşılaşıb, daha çox "küsüb-barışdığım" və daha çox da iradlarımı bildirdiyim şair dostum, tələbə yoldaşım Vaqif İsaqoğlu ilə bir araya gəlmişəm. Hələ 1980-ci ildə yaradıcılığına bələd olduğum, az qala ilk yazılarının oxucusuna çevrildiyim Vaqifin hər bir uğuru, hər bir kitabı gözümün önündədir. Elə gözümün önündə olan kitablardan birini əl uzadıb götürürəm. Kitabın adı həm qəribədi, həm də bir növ etirafdı. Vaqif İsaqoğlu yazıb ki, "Darıxıram...".*

*Bəli, Vaqifin niyə, hara və nə üçün darıxdığını yozmayacam. Çünki bildiyimi bilirəm. Amma həqiqətən bu kitabda onun darıxdığını ifadə edən, bir növü oxucuya çatdıran kifayət qədər fikirlər, misralar, bəndlər var. Onları oxuduqca elə az qala özüm də darıxıram və bir də görürəm ki, Vaqif deyir:*

*Mənim baharımdı, mənim yayımdı,*
*Gündüz günəşimdi, gecə Ayımdı.*
*Özün göndərdiyin tale payımdı,*
*İlahi, qoru sən bu məhəbbəti.*

*İndi siz də bir anlıq düşünün, görün mən yanılmıram ki?! Bu bəndi oxuyandan sonra necə darıxmayasan. Axı şair bu sevgini və onun qəhrəmanının ömrünün baharı, yayı, günəşi, ayı, taleh payı kimi dəyərləndirir, həmin ucalığa qaldırır. O ucalığı qorumaq üçün Allaha üz tutur. Zənnimcə, bundan gözəl istək və etiraf ola bilməz. Və bir də onu da vurğulayım ki, Vaqif İsaqoğlunun bu etirafı onun özü də gözümdə bir pillə ucaldır. Demək hələ o sözünün hamısını deyib qurtarmayıbdı. Ona görə də ona səs vermək, ona qoşulmaq istəyimi kökləyir. Mən də həmin o həvəslə qoşuluram Vaqifə və yazıram ki:*

*Bir telefon zənginə bənd olub qaldım,*
*Gözlərim yoldadı, qulağım səsdə.*
*Üz tutdum gəncliyə, xəyala daldım -*
*Qayıtdı o keçmiş eşq də, həvəs də!*

*Təbii ki, keçmişlə baş-başa qalmaq, onu yenidən göz önünə gətirmək, o günləri yenidən yaşamaq xoş olduğu qədər də adamı ağrıdan onun gah gunahları ilə, gah uğurları ilə üzləşdirən bir haldı. Təəssüf ki, keçmişdə - yəni xatirələr dünyamızda bəzən günahlar daha çox önə çıxır. Yol verdiyimiz səhflər bizi daha çox ağrıdır. Bax, həmin o ağrıların, o göynərtilərin içərisində özümüzü durulamaq, təmizə çıxarmaq istəyimiz də hərdən işimizə yarayır. Necə ki, Vaqif öz etirafında bu məqamdan məharətlə istifadə edib və yazıb:*

*Çəkilməz dərdləri göndərmə mənə,*
*Eşqin sevincini çox görmə mənə.*
*Gözümü açandan bağlıyam sənə,*
*İlahi, qoru sən bu məhəbbəti.*

*Şeirin iki bəndində Vaqifin ifadə etdiyi fikir onun dərdlərdən yorulduğuna işarə olsa da, amma digər bəndlərində isə o, hər şeylə razılaşdığını da deməyi unutmur. Hətta gözünü açandan bəri bağlı olduğu ünvanın adını da dilinə gətirir. Bu da məhəbbətdi. Onu qorumaq üçün ilahidən yardım uman, yardım istəyən Vaqif sevginin sevincini qorumağa hazır olduğunu bir aşiq kimi, bir gənclik atəşi ilə yanan şair kimi də deməyi unutmur. Bax, bu da əvvəldə dediyim o etirafın özəl çalarıdı. Mən də öz şeirimdə həmin özəlliyi elə xatirələrin işığında yazmağa üstünlük vermişəm:*

*İllərini dumanı dağıldı sanki,*
*O səs varlığımı titrətdi yaman.*
*Keçdi ürəyimdən elə bir an ki,*
*Bizi qovuşdura - ayıran zaman!*

*Görürsünüz, eyni dövrün, eyni zamanın şinelindən çıxdığımız üçün həyata baxışımız da, sevgiyə münasibətimiz də, umacağımız da, etirafımız da bir-birinə bənzəyir, bir-biri ilə çiyin-çiyinə dayanır. Və mən də az qala Sənə və Allaha bəlli olan, hamının bilməsi üçün səsimi qaldırmaq istəyim dilə gətirirəm. Ürəyimdən keçəni təbii ki, birlikdə olmağı xüsusi vurğulayıram.*

*Bu məqamda etirafın yeri xüsusi görünür. Amma etirafı da gərək elə edəsən ki, o, gerçəyi özündə ifadə edə bilsin. Əks halda köhnə kişilərin dediyi "qaş düzəltmək əvəzinə göz tökmək" məqamı yaranmasın. Bunu Vaqif İsaqoğlu yaxşı bildiyindən elə etirafını da ustalıqla dilə gətirib:*

*Sən məni çarmıxa çəksən də yenə,*
*Gözümün yaşını töksən də yenə.*
*Mənim can evimi söksən də yenə,*
*İlahi, qoru sən bu məhəbbəti.*

*Yəqin ki, oxuduğunuz bənddəki xatırlatmalar, yəni şairin çarmıxa çəkilməsi, göz yaşı axıtması, can evinin sökülməsi... bütün bu və ya digər yaşananlar onun üçün məqbuldu, qəbuledilləndi.*

*Çünki bütün bunlar hamısı məhəbbət naminə edilib. Bu dözümü də elə ona məhəbbət veribdi. Vaqif də sevdiyi üçün öz məhəbbətinin bütün şıltaqlıqlarına dözüb. Üstəlik ona bu dözümdən bir az da çox verməyi Allahdan istəyibdi.*

*Mən də elə Vaqifsayağı bir az yerdən qopub göy üzünə üz tutmuşam. Mən də talehi, sönmüş ocağı, gözlədiyim bir zəngi xatırlaya-xatırlaya öz xəyal dünyamda fikirləri misralara çevirmişəm:*

*Nə bilim taledi, qismətdi hərdən*
*Sönmüş ocaqda da od tapmaq olur.*
*Bir zəng səsi ilə bu gün səhərdən -*
*Qocalmış könlümə bir sevgi dolur.*

*Əvvəldə dediyim kimi, xatirələrin səsi də, rəngi də, mühiti də, ovqatı da, bir sözlə, xatirə dünyasının bütövlüyü də o zaman insanı olduğu aləmdən alıb aparır ki, o, həqiqətən ömrün bir hissəsidi, həyatın bir parçasıdı. Mən yüzə-yüz bilirəm və yazıram ki, mənim xatirələrim mənim təkcə dünənim deyil, həm də bugünümdü. Elə Vaqif də öz məhəbbətində əmindir ki, o dünəndə qalmayıb, bu gün də həmin məhəbbət onunla birlikdədir. Həmin əminliyi də şeirləşdirən Vaqif sevdiyinin, sevgisinin böyüklüyünü ifadə etməklə yanaşı, həm də o sevginin boynuna bir minnət də qoyub. Necə deyərlər, şair ərki ilə ona bir az yumşaq məzəmmət də edibdi. Xatırladıb ki:*

*Kim duyar Vaqifi sən duyan kimi,*
*Kim oyar qəlbimi dərd oyan kimi.*
*Ana balasını qoruyan kimi,*
*İlahi, qoru sən bu məhəbbəti.*

*Zənnimcə, bu bənddən sonra bir anlıq susmaq və düşünmək daha ağıllı qərar olar. Mən də çalışdım ki, elə belə edim və sonra öz-özümə bu şeirin son bəndinə görə Vaqifə, daha doğrusu müəllifə içimdən bir təşəkkür gəlib keçdi. Axı ana balasını qoruyan kimi məhəbbətini qorumaq hər aşiqin işi deyil. Üstəlik hər aşiq də bu fikrə düşmür. Amma Vaqif məhəbbətinin böyüklüyündən, necə deyərlər, özəlliyindən və gözəlliyindən fərəhlənərək fəxarət hissi ilə bu məhəbbətin ilahi tərəfindən ananın balasını qoruduğu kimi qorunmasını istəyib. Mən həmin o istəyin içindən öz şeirimə tərəf baxdım, gördüm ki, mən də bir istəyi dilə gətirmişəm. Vaqifin istəyindən fərqli olaraq, mən də Allaha bir dəli istəklə əl açmışam:*

*Mən öz hisslərimə əsir bir dəli,*
*Bağlanıb qalmışam telefon zənginə.*
*İnsaf et, gəl məni - Tanrı gözəli*
*Atma ayrılığın acı cənginə!*

*Gördünüzmü, mənim də istəyim gözlədiyim bir telefon zəngi və bir də o zəngi edəcək bir Allah bəndəsidi. Yekunda, yəni son nəticədə bu da sevginin, məhəbbətin qorunması üçün, yaşaması üçün ilahiyə əl açmaqdı!..*

*Bəli, mən Vaqif İsaqoğlu ilə bir dövrdə, bir zamanda, amma ayrı-ayrı notlarda ilahiyə əl açıb diləyimizi dilədik. Necə deyərlər, dilək bizdən, kömək Allahdan. Özdə təkcə bizə yox!!!*



# Təbəssüm dolu insan

<u>*Rəfail Tağızadə*</u>
<u>*şair-publisist*</u>

**Həyatda elə insanlar olur ki, onlarla ilk görüşəndən sonra min ilin doğması kimi ayrılırsan. Sanki, bir yerdə böyümüsən. Bu doğmalığın haradan gəldiyi barədə heç düşünmək belə istəmirsən. Gün-gün, ay-ay tanıdıqca, bu tanışlığa da, doğmalığa da sevinirsən. Bu tanışlığa şükranlıq edib İlahidən gələn kimi qəbul edirsən.**

Onun üzündəki təbəssüm insanda xoş ovqat yaradır. İlk görüşdən bölüşüləni maraqla dinləyirsən, heç kimlə bölüşmədiklərini bölüşürsən. Rahatlanırsan. Artıq bölüşəcək, səni anlayacaq bir insan qazanmısan.

İnsanları təkcə qan qohumluğu doğmalaşdırmır. Ruhi yaxınlıq, doğmalıq da var.

Nəzəkət xanımda insanı özünə çəkən onun təbiliyi, səmimiliyi və təbəssümüdür. Həm də tanıdıqlarına ürəkdən gələn bir istiliklə, nəvazişlə doğması, əzizi kimi yanaşmasıdır. Ana kimi, bacı kimi, doğması kimi.

İnsan qarşısındakının ağrısını daxilən yaşayanda, qəlbən duyanda onu daha yaxşı anlayır.

Bu kövrək qəlbli insan şəhid ailələrinin ağrılarını öz ağrısı bilir, dərdlərini bölüşür, həmdəm olur, qayğılarına qalır. Şəhid anasının boynuna balası kimi sarılır, şəhidin yoldaşını anası kimi bağrına basır. O istilikdən ağrılar unudulur, üzün ifadəsi dəyişir. Çoxdan arzuladığı rahatlığa qovuşur.

Ağrılar qucaqda boşalır.

Nəzakət xanım təbəssümünü ən ağrılı adama belə ötürə bilir. Göz yaşları yanaqda quruyur. Dərdin cizgiləri üzdən sürüşüb düşür. Qucaqdan çıxmış insan illər öncəsi halına qayıdır. O anlıq ağrılar unudulur. Anaları analar duyar. Qəlbi sevgiylə, yanğıyla, xeyirxahlıqla dolu analar. Hər gecə yuxusunda əsir düşən, şəhid olan Nəzakət xanım əsir, şəhid taleyini yaşayır. Bu insanın nələr çəkdiyini onun gözlərindən, baxışlarından oxumaq olur.

Nəzakət xanımın sükutunda gizli təbəssüm, kədərində ağır hıçqırtı var.

Üç zabit anası olması onun bunlara həssaslığını daha da artırır.

44 günlük müharibədə yaşadıqlarını indi də başqa formada yaşayır. Müharibənin törətdikləri ağrıları yaşayan insanlarla hər gün qarşılaşaraq.

İtkin, girov düşmüş insanlar, şəhidlər haqqında yazıları oxuyan, kitablar hazırlayan, şəhid analarının ağrı-acısını dinləyən insanın yaşadıqlarını bildiyimdən onun nələr çəkdiyini, nələrdən keçdiyini anlayıram. Bir ürəyin bu qədər ağrıları daşıması çox ağırdı. Bunlara dözüm gətirən, bəzən içinə, bəzən üzünə axan göz yaşlarıdır... bir də onun qoruyucu mələyi olan təbəssümü.

"Yada düşdü" dərgisi bu xanımın inadı sayəsində davam edir. İndiki vaxtda öz gücünə jurnal - özü də nəfis şəkildə - çap etdirmək çox çətindir. Nəzakət xanım bütün bu çətinliyə baxmayaraq bir-birindən gözəl nömrələr hazırlayır.

Dərgi çap olunan yazılarla xatirələri, əsərləri, müəllifləri yaşadır.

Mədəniyyət Nazirliyinin Respublika Xatirə Kitabı redaksiyasının baş redaktoru Nəzakət Məmmədovanın rəhbərlik etdiyi bu kiçik kollektivin ərsəyə gətirdiyi kitablar həqiqətən təqdirə layiqdir. Şəhidlər haqqında kitabların hazırlanması vətən sevgisi ilə yanaşı, müqəddəs şəhidlərə olan diqqətin nəticəsidir. Məsuliyyət tələb edən bu ağır iş, ancaq ağrıları içindən keçirməklə mümkündür. Şəhid ailələrinin hər birinə yerində təqdim olunan bu kitablar ailə üçün böyük təsəllidir.

Hər şəhid haqqında toplanan məlumatları oxuduqca, həm qürur duyan, həm də ana yanğısı yaşayan Nəzakət xanım bu kitablarla vətən sevdalıları üçün nələrsə etmiş kimi az da olsa daxilən yüngülləşir.

Belə kitablarla torpağı vətən edən qəhrəmanlarımız tanınmaqla, həm də müharibə tariximiz sənədləşir. Övladlarının, həyat yoldaşlarının ad və şəkillərini kitabda görən insanların üz ifadələrindəki təsəlli qarışıq rahatlıq Nəzakət xanıma bu ağır işin bütün yorğunluğunu unutdurur.



Nəzakət xanım hesabatlı insandır. Həyatda, davranışlarında özünü görə bilir. İnsan etdiyini və ediləni biləndə nizam pozulmur. Hər şey öz düzəni ilə gedir.

Həyat insanın yaşadıqlarından ibarətdir. İnsana bioloji yaşı verən Yaradandır. Nəzakət xanımın yaşayacağı mənəvi ömür yaşatdıqlarının ömrü qədərdir. Milləti, xalqı yaşadanların ömrü isə xalqın, millətin ömrünə bərabərdir.

Nəzakət xanım qadının şeir yazmamasını söyləsə də, bu qədər ağrıları yaşayan, həssas qəlbli insanın şeir yazmaması mümkün deyil. Hətta özü istəməsə belə. Çünki yazmaq insanın özündən asılı deyil.

Mən özü başdan-başa şeiriyyət olan Nəzakət Məmmədovanın özündən yazdım. Ancaq onun şeirlərini oxuduqdan sonra bu sətirləri qeyd etməyə bilməzdim:

**Şuşa məscidində namaz qılmağa,**
**Yol gəlir Babəkin kəsik qolları.**

**Milli qeyrətimin möhür yeridir,**
**Torpaqda ucalan şəhid məzarı.**

**Məəttəl qalıram ulu Tanrıya**
**Alimi cahillə yanaşı yatır...**

**Ağlama şəhid qızı,**
**Dərdin mənə tanışdı...**
**Ürəyim paramparça,**
**Qəmin naxış-naxışdı...**

**Elə bil səngərtək qazılıb sinəm,**
**Qəlbimdə duyğular barıt qoxulu.**
**Uğrunda ölməyə hazıram, Vətən,**
**Hər misram döyüşən bir əsgər yolu.**

**Ağrısı neçə min qəlbdən keçibdi,**
**Xocalı ömründən keçən savaşın.**

**Çiçək-çiçək şəhid qanı**
**Üzündə xaldımı, Vətən?**

**Ağrı-acı duman kimi**
**Çökübdü yurdun üstünə.**

**Düşmən at oynadan yurd yerlərində**
**Matəm rəngindəydi bütün fəsillər.**

**Bacımın ağaran telindən düşüb,**
**Anamın qəbrindən baxır bu payız.**

**Hönkürə-hönkürə axırdı sular,**
**Yolların üzündən kədər damırdı.**

**O tayın da, bu tayın da adı Vətən!**
**Qanqalları arasında gül bitirən,**
**Bülbülləri ağı üstə dil-dil ötən,**
**O da Vətən, bu da Vətən,**
**Ərdəbilim!**

**Ovuda bilmirdi xatirələri...**

# Köhnə kişilərin söhbəti

## Sabir Yusifoğlu ilə bir arada

**Hər bir söz adamı özünə qapılması kimi, həm də özü-özüylə həmsöhbət olmaq məqamları da var. Həmin məqamlarda söz adamı sanki ikiləşir. Və bu ikiləşmə onu bir növü güzgü ilə üz-üzə dayanmış adamın durumuna gətirir. Bax, həmin o məqamda da özün deyib özün eşitdiyin qədər də səni həm də Allah eşidir. Bu mənim təkcə təxminim, fərziyəm deyil, həm də inancımdır. Sizi deyə bilmərəm, şəxsən mən özüm-özümlə danışanda yüzə-yüz inanıram ki, bu söhbətin bir şahidi var, o da Allahdı. O ki, qaldı içimdə, özəl dünyamda hər şeyə sahib olan Sən, deməli sən iştirakçısan, dinləyici yox.**

Bax, bu anlamla mərhum şair dostum, Sabir Yusifoğlunun "Dünya ilə heç-heçəyəm" kitabını vərəqləyirəm. Diqqətimi bir-birindən maraqlı şeirlərin içərisindən "Köhnə kişiyəm" çəkir. Elə həmin o diqqət də məni layihəmin qapısına gətirir. "Bir şairin bir şeiri" layihəmdə bu dəfə Sabir Yusifoğlu ilə özünün dediyi kimi köhnə kişi ilə dərdləşirəm. Sabir Yusifoğlu yazır ki:

***Sən mənə çox fikir vermə,***
***Bir az köhnəlmiş kişiyəm.***
***Ağlıma gəlməyən belə***
***Dərdlə yüklənmiş kişiyəm.***

Həqiqətən də, biz köhnə kişilər bu dünyanın adamı deyilik. Bu da özəl səbəblərə görə yaranan fikirdi. Belə ki, köhnə kişilər köhnə dünyanın adamları olduğundan bu günün, bu dünyanın oyunları, oyunbazları, min sifətləri, saqqalı balağından uzun, başına bağladığı görüntü olanlardan aralı gəzir, aralı durur və ən vacibi də odur ki, bu cür əllaməçiləri başa düşə bilmir. Deyə bilərsiniz ki, yəqin başa düşmək istəmirsiz, ya da kobud şəkildə "Başınız yoxdur"! Bəli, hərə öz fikrində azad, sərbəst olduğundan biz köhnə kişilər barəsində sizin nə düşünmənizin qatlarına varmadan mən də Sabirə qoşulub elə həmin ovqatla yazmışam ki:

***Mən indi çıxıb gedəcəm,***
***Gedəcəm sizdən ayrılıb.***
***Özgələri ətrafımda -***
***Görəcəm bir də ayılıb...***



Burda da bir nüans var. O da qəbul edilmədiyin, dəyərini almadığın və yaxud da layiq olmadığın yerdə oturmamaq, qalmamaqdı. Məhz bu anlamda mən də həmin o köhnə kişilərdən biri kimi çəkilib getməyi daha üstün tuturam. Axı bu gediş bir könül rahatlığı ilə yanaşı, həm də bir miskilə, bir ağrı-acıya, bir laqeydliyə, biganəliyə son qoyacaqdı. Yəni mənim getməyimlə siz heç nə itirməyəcəksiniz, heç dünyanız da itirməyəcək. Amma mən yerim görünən yerdə olanda ruhum rahatlıq tapacaq. Bax, onda köhnə kişinin səsi gəlib yenə döyəcək qapımı. Sabirin səsidi bu səs. O, deyir ki:

***Hər şey köhnəlmiş bayatı,***
***Ümid cücərir, boy atmır.***
***Hər hava canıma yatmır,***
***Sözə köklənmiş kişiyəm.***

İndi gördünüzmü, Sabir də mən deyəni təsdiqlədi. O da vurğuladı ki, sizin dünyada hər şey bizim üçün köhnə bayatıdı. Ona görə də bizim ümidlər nə cücərir, nə də boy atmır. Bu da ordan qaynaqlanır ki, biz sizin havaya da oynaya bilmirik. O hava bizim sümüyümüzə düşmür. Çünki biz köhnə kişilərik və köhnələr də öz köhnə dünyaların havasına, sözünə köklənibləр. Deməli, mən də həmin o köhnə dünyaya üz tutanda, siz kasıbın yaylağa çıxmasına həsəd aparan kimi arxamca baxmayın. Çünki bu gediş gəzmək deyil. Əslində bu gediş şeirdə də yazdığım məqamdı:

***Bu getmək heç gəzmək deyil,***
***Küsmək nə də bezmək deyil.***
***Dözməyim də - dözmək deyil,***
***Eləcə dözmək sayılıb.***

Biz bütün basqılara, bütün təhdidlərə və tənqidlərə baxmayaraq, özümüz də öz dünyamızı qoruyuruq, təmsil edirik. Bizim olduğumuz hər yer həmin o məqam içərisində elə keçmişdi, köhnə dünyadı. Bax, mən də tam əminliklə deyirəm və yazıram ki, köhnə dünya həm də özüldü, bünövrədi. Sizin bəyənmədiyiniz həmin o bünövrənin üzərində at çapmanız sizə nə qədər xoşdursa, bizə də bir o qədər dəyərli və önəmlidir. Axı özül üst qurumu çiynində daşıyır, çiynində saxlayır. Deməli bu da özü-özlüyündə artıq çox şeyi ifadə edir. Onu da Sabir kifayət qədər məharətlə, həm öz-özünə deyib, həm mənə deyib, həm də sizə çatdırıbdı. Baxmayaraq ki, o köhnələr say baxımından azalır, yer baxımından kiçilir, fərd kimi də fərqlənir. Olsun, bütün hallarda söz söz olaraq qalır:

***Bir günüm bir ömrə yetər,***
***Bir ömür də bir gün bitər.***
***Dünyada Allahdan betər***
***Təkəm, təklənmiş kişiyəm.***

Hə, gördünüzmü, burda şair artıq özü ilə danışdığını bir anlıq unudur. İçindəki vulkanı büruzə verib, kükrəyərək, coşaraq, artıq hamının eşidə biləcəyi bir səslə az qala asi olaraq deyib ki, mən təkəm, özü də Allahdan betər tək.

Bu da o deməkdir ki, öz təkliyimlə yenə varam və köhnə kişi olmağımla da qürur duyuram.

Təbii ki, mən bu hisləri bir oxucu duyumu ilə özümdə yaradır və sözə çevirirəm. Burda ruh doğmalığının da təsiri danılmazdı. Həmin o içində olduğun ovqatın yaratdığı mənzərə də məni o çıxıb gedəcəyim yer üçün bir rahat yolçuluğa hazırlayır. Həmin o rahatlığı da mən öz oxucularıma çatdırmaq üçün misralarıma fikir verirəm. Həm etiraf, həm xatırlatma, həm də vidalaşma anlamlı bir duyğu ilə yazıram:

***Günah gəzməyin izimdə***
***Hər şey yazılıb üzümdə.***
***Qalmışam dərya üzündə -***
***Kənardan üzmək sayılıb.***

**Bəli, köhnə kişilərin bir atüstü söhbətini öz aramızda edib, sonra da onu bilgisayar yazarımız Elnarə xanımın iştirakı ilə sizə çatdırmaq, zənnimcə sizi də söhbətə qoşmaq idi. Düşünürəm ki, biz köhnələrin söhbəti nağılvari, bir az ləngərli olsa da, hər halda dinləmək yorucu deyil. Ən azından bir-iki söz, lap elə nöqtə, vergül məsələsini də öyrənməyə yetər. Bu inamla da Sabirin ruhuna minnətdarlıq, sizə isə təşəkkürümü bildirirəm. Köhnə kişilərə qulaq asdığınız üçün.**

**Əbülfət MƏDƏTOĞLU**

# Gənc xanəndə: "Efirin bizə qarşı öz qaydaları olur"

***Müsahibim 4-cü Televiziya Muğam Müsabiqəsinin və Xalq Ulduzu-6 mahnı müsabiqəsinin iştirakçısı gənc xanəndə Babək Şuşalı da bu istedadlı yeni nəslin gözəl səs sahiblərindən biridir. Gənc xanəndəmiz Adalet.az- a uğura gedən yoldan və xanəndəlik sənətindən danışdı.***

**-Məlum məsələdir ki, dəstək olanlar çox olub. Mane olanlar necə, var idi?**

-Doğru buyurdunuz ki, dəstək olanlar çox olub. Bizim bu muğam sahəsi elə sahədir ki, böyüklərimiz həmişə dəstək olurlar. Bilmədiklərimizi bizə öyrədirlər. Yəni heç vaxt özümə qarşı qərəzli münasibət görməmişəm. Həmişə müəllimlərin məsləhəti, qayğısı və diqqəti biz gənc xanəndələrlə olub.

**-Bu sənətin lap ilkin addımlarını necə xatırlayırsınız?**

- İbtidai sinifdə oxuyanda həmişə sinifdə zümzümə edirdim. Bir dəfə Cəmilə adlı sinif yoldaşım oxumağımı eşitdi və mənə dedi ki, Babək, gedək səni aparım musiqi məktəbinə. Sən demə bu qız musiqi məktəbinə gedirmiş. Bundan xəbərim yox idi. Onunla musiqi məktəbinə getdim. Mənsum( red:- İbrahimov) müəllim oxumağıma qulaq asandan sonra dedi ki, əgər davam etdirsən yaxşı səsin var. Yəni oxuya bilərsən. Mən evdə bunu deyəndə təbii ki, zarafatyana səndən oxuyan olmaz dedilər. Ancaq mən öz qərarımda qəti idim. Sonra valideynimlə birlikdə musiqi məktəbinə getdik . Əlbəttə ki, mən bütün etimadları doğrultmalı idim Və belə də oldu. Artıq 13- 14 yaşlarımda Rusiyaya qostrol səfərim başladı.

**-Görünür inadkarsınız Bütün işlərinizdə beləsiniz?**

- Əlbəttə. Qarşıma məqsəd qoyduğum hər şeyə zəhmətimlə nail olmaq istəyirəm. Təbii ki, valideynlərimin də mənə dəstəyini unutmuram. Valideyn zəhməti danılmazdır. Atam orqan işçisi idi, mənimlə çox marqlana bilmirdi. Ancaq anam demək olar ki, həmişə mənim yanımda olub. Uşaq vaxtı məni konsertlərə, tədbirlərə aparırdı. Qayğısını və dəstəyini məndən əsirgəmirdi.

**-Nədənsə çox az bəstəkar mahnıları oxuyursunuz...**

-Bilirsiniz, biz efirə dəvət alandan xanəndə olaraq dəvət alırıq. Yəni o üzdən də mütləq təsniflər oxumalıyıq. Daha çox muğama yer ayırmalıyıq. Efirin bizə qarşı öz qaydaları olur. Ancaq tədbirlərdə və el şənliklərində əlbəttə, xalq mahnıları , bəstəkar mahnıları və bəzən türk mahnıları da oxuyuruq.



**- Bəstəkarlarla iş birliyində bir- birinizlə razılaşmadığınız məqamlar olub?**

-Mahı bəstəkarın məhsuludur. Ancaq onu yaxşı ifa etmək ifaçının üzərinə düşən məsuliyyətdir. Bəstəkar zəhmət çəkdiyi işə qarşı istəyər ki, diqqətli yanaşasan. Ancaq bir xanəndə kimi şəxsən mən bütün mahnılarda öz yolumu oxuyuram. Yəni belə deyək, ifaçının o mahnıda öz ifa tərzi olmalıdır.

Onun "boğaz"ı mütləq orda seçilməlidir. Ancaq sizin sualınızın cavabı olaraq deyim ki, heç vaxt belə hallarla rastlaşmamışam.

**-Müəyyən bir dövrdən sonra Babək Şuşalı hansı mahnı ilə yaddaşda qalmaq istəyər?**

-Qədir Rüstəmov "Sona Bülbüllər"i oxuyanda özü də bilmirdi ki, onunla yaddaşda qalacaq. O, ancaq öz sənətini layiqli şəkildə davam edirdi. Zaman keçdi və xalq Qədir Rüstəmovu "Sona bülbüllər"lə sevdi. Hər kim "Sona bülbüllər" deyirsə, mütləq yada Qədir Rüstəmov düşür. İndi mən də bilmirəm axı xalqın yadında hansı nəğmə ilə qalacam. Onu zaman və xalqın istəyi həll edəcək.

**-Duet oxumaq fikriniz var?**

-Bəli. Qeyd edim ki, duet ifaçı üçün mütləqdi. Mən gənc ifaçı Ayşən xanımla duet oxumuşam. Ancaq inşallah duetləri davam etdirmək fikrim var.

**-Bu məşhurluğa gedən yolun kölgəsinə sığınan dostlar olurmu?**

-Hələ o qədər də böyük uğurlar əldə etməsəm də, bəli, hiss edirəm ki elə "dostlar" da olur.

Ancaq mən elələrinin də qəlbin qırmıram. Hər kəsin münasibtinə hörmətlə yanaşıram. Ancaq əsas məsələ odur ki, kimin kim olduğunu biləndən sonra kimlə necə məsafə saxlamaq lazımdır, onu yaxşı bilirəm. Kim nəyə görə mənim yanımdadır, onu da gözəl bilirəm.

**-Yəqin ki, toylara gedirsiniz...**

- Toy bizim el adətimizdir. Burda gizlədiləcək heç nə yoxdur, bəli gedirəm. Balaca vaxtı Nardaranda çox toy oxumuşam. Bakı kəndlərinin toyları və birdə Qarabağ toyları əsl toy kimi keçirdi. Təəssüf olsun ki, indi adət-ənənəmiz çox da qorunub saxlanılmır. İndiki toylar əvvəlki toylar kimi olmur. İndi toyda ardıcıl iki muğam oxuyanda toy sahibi gəlib deyir ki, keç, mahnıya və yaxud da toya gələnlər deyir ki, biz bura yasa gəlməmişik ki, muğama qulaq asaq.

**-Görünür, insanlar daha çox pozitiv mahnılar dinləmək istəyirlər...**

-Bilirsiniz, artıq insanlar bayağı mahnıları o qədər dinləyir ki, muğama və yuksək səviyyəli mahnıları dinləməyə səbirləri çatmır.

Muğama qulaq asan gənclər daxilən zənginləşib böyüyən gənclər olurlar. Muğamı yaxşı dərk etmək hər beyinə məxsus iş deyil.

**- Təmənnasız oxuduğunuz toy olub?**

-Əlbəttə. İnanın, o qədər pulsuz toya getmişəm ki Elə olub ki, kasıb adam olub mənə deyib arzumdur ki, toyumda oxuyasan.

Hətta maddi gücü nəyə çatırsa, onu mənə verəndə də qəbul etməmişəm. Demişəm ki, halal xoşun olsun.

Həmişə el şənliklərində xalqın sevgisini hiss etmişəm. Bu da mənim qazancımdır

**Əntiqə KƏRİMZADƏ**

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi**

№ 47 (2321) 10 dekabr 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Günümüzün diaspora mənzərəsi

Bu gün qloballaşan dünyada ayrı-ayrı xalqların, dövlətlərin sülh, əmin-amanlıq, tərəqqi məqsədi ilə yaxınlaşdığı, habelə bəşər sivilizasiyasının yeni mənəvi dəyərlər, humanizm çalarları ilə zənginləşdiyi, mədəniyyətlərarası dialoqun, etnomədəni müxtəlifliyin qorunmasının zərurətə çevrildiyi bir vaxtda milli özünüdərkin təsdiqi, insanların öz kökünə bağlılığı getdikcə daha böyük əhəmiyyət daşıyır. Vətənə bağlılıq duyğuları təkcə insanın doğulduğu coğrafi ərazi ilə şərtlənmir, o, eyni zamanda hər bir fərdin şəxsiyyət olaraq formalaşmasını, dünyaya münasibətini əsaslandıran, başlıca meyarları müəyyənləşdirən birləşdirici amil kimi çıxış edir.

Elə bu amilin təsiri ilə bütün dünya gec də olsa Azərbaycan həqiqətlərini artıq qəbul etməyə başlayıb. Bu həqiqətlərin qəbulunu təbii ki, ən böyük xidmət Azərbaycan ordusuna və onun Ali Baş Komandanına məxsusdu. Mövzu ilə bağlı fikirlər öyrənərkən əməkdar jurnlist, əslən Füzuli rayonundan olan Faiq Qismətoğlu vurğuladı ki: "Həqiqətən 2020-ci ilin sentyabr ayının 27-ə qədər bir məğlub xalq idik, torpaqlarımız işğalda, özümüz isə qaçqın, köçkün, didərgin. Şükürlər olsun ki, noyabr ayının 10-da böyük zəfərimiz bizi qalib xalqa çevirdi. Bunun üçün cənab prezidentə və ordumuza minnətdarıq".

Hər kəsin çox yaxşı bildiyi bir gerçəklik də var. Belə ki, ölkəmizdə diaspor quruculuğunun banisi Ulu Öndər Heydər Əliyevdir. Dövlət müstəqilliyinə nail olduğumuz dövrə qədər də xalqımızın təmsilçiləri dünyanın müxtəlif ölkələrində yaşayırdılar, amma onların diaspor quruculuğu imkanları məhdud olmuşdur. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində isə sərhədlərin açılmasından sonra xarici ölkələrdə yaşayan soydaşlarımızın sayı daha da artmış, amma diaspor fəaliyyəti yenə də sistemli, koordinasiyalı şəkildə təşkil olunmamışdır. Bu sahədə müəyyən zaman itkisinə yol verilmişdir. Bunun ziyanını isə erməni lobbisinin və ermənipərəst qüvvələrin Azərbaycan ətrafında qurduqları informasiya blokadası zamanı hər birimiz hiss etdik.



Ona görə də 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Ümummilli Lider Heydər Əliyev diaspor quruculuğu işinə mühüm prioritet kimi yanaşdı. Müxtəlif ölkələrə çoxsaylı xarici səfərləri zamanı vaxtının məhdudluğuna baxmayaraq, mütləq Azərbaycan diasporunun təmsilçiləri ilə də görüşürdü. Onlarla səmimi söhbətlər aparır, dünya azərbaycanlılarını bir araya gətirməklə soydaşlarımızın milli həmrəyliyinə, özünüdərkinə, tarixi Vətənə bağlılıq hissinin gücləndirilməsinə çalışırdı. Eyni zamanda dünyada yaşayan azərbaycanlıların timsalında ölkə sərhədlərindən kənarda Azərbaycanın mənafelərini müdafiə edən böyük bir qüvvə formalaşdırırdı.

Hər gün diqqətlə izlədiyimiz informasiyaların içərisində diqqət çəkənlərdən biri də Azərbaycan diaspora təşkilatlarının dünyanın müxtəlif guşələrində həyata keçirdikləri tədbirlərlə bağlı bilgilərdi. Həmin bilgilər içərisində ən çox yer alan isə Şuşayla, Qarabağla bağlı reallaşan tədbirlər, konfranslar, sərgilərdi. Bax, elə bugünlərdə Parisdə keçirilən böyük və diqqətçəkən mərasimlərdən biri Heydər Əliyev Fondunun vitse prezidenti Leyla xanım Əliyevanın kitabının təqdimatı idi. Verilən məlumatlara görə böyük maraqla qarşılanan və kifayət qədər də iştirakçı cəlb edən bu təqdimat Azərbaycan ədəbiyyatının, mədəniyyətinin tanıdılması istiqamətində atılmış uğurlu addımlardan biri sayıla bilər. Həmin təqdimata qatılmış Fransanın ictimai-siyasi xadimləri, görkəmli ədəbiyyat və dövlət adamları təkcə Leyla xanım Əliyevanın kitabı ilə deyil, həm də Azərbaycan həqiqətləri ilə bağlı informasiya əldə etmək fürsəti qazanmışdılar. Bu da öz növbəsində həm Heydər Əliyev Fondunun, həm Fransa-Azərbaycan Dostluq Cəmiyyətinin, həm Xarici İşlər Nazirliyimizin, həm də diaspora təşkilatımızın fəaliyyətinin bəhrəsidir.

Dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların arasında həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsinə qərar verildi. Ümummilli Lider Heydər Əliyevin bununla bağlı 2001-ci il 23 may tarixli sərəncamı çox mühüm tarixi addım idi.

Azərbaycana bağlılıq hissinin, icma təfəkkürünün xarici ölkələrdəki azərbaycanlı ailələrində böyüyən gənc nəslə ötürülməsi də çox əhəmiyyətli məsələdir. Bunu nəzərə alaraq diaspor gənclərinin fəallığının artırılması, xaricdəki gənclərimizin milli kimliyinin qorunub saxlanılması və liderlik potensialının inkişaf etdirilməsi məqsədilə Azərbaycan Diaspor Gəncləri şəbəkəsi də formalaşdırılıb.

Diaspor quruculuğu fəaliyyətində ölkəmizin Birinci vitse-prezidenti,




Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var. Mehriban xanımın təşəbbüsü və dəstəyi ilə xarici ölkələrdə "Qarabağ" adlı həftəsonu Azərbaycan məktəbləri fəaliyyətlərini genişləndirməkdədir. Hazırda Ottava, Nant, Bern, Varşava, Stokholm, London kimi şəhərlərdə fəaliyyət göstərən "Qarabağ məktəbi"ndə yüzlərlə azərbaycanlı uşaq təhsil alır. 6-10 yaşlı azərbaycanlı uşaqlar üçün müasir üslubda hazırlanmış "Azərbaycan dili" dərsliyi çap edilərək xaricdəki soydaşlarımıza göndərilib.

**Bəli, istinad etdiyimix ixtibasdan göründüyü kimi, Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da kimsənin torpaqlarına göz dikmədən qorumağa və bir xalq, bir dövlət olaraq öz həqiqətlərini dünyada tanıtmaq, qəbul etdirmək istiqamətində hər cür addımlar atır və bundan sonra da atacaqdır. Ona görə də Dünya Azərbaycanlıları onların birləşdiyi təşkilatlar, diaspora qurumları, prezidentimizin söylədiyi fikirlərin qarşıya qoyduğu məsələlərin mahiyyətinə varmalı və onu reallaşdırmaq üçün daha çox səfərbər olmalıdılar. Günün reallığı bizim daha səfərbər və daha əzmkar olmağımızdır! Düşünürük ki, bu istiqamətdə görəcəyimiz işlər üçün kifayət qədər qətiyyətimiz də var. Bunu prezidentimiz dəmir yumruğu ilə hər kəsə göstərib.**

**Əbülfət MƏDƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# İndi «Qarabağnamə»lər Zəfərimizdən söz açır



*Maarifə Hacıyeva, filologiya elmləri doktoru, professor*

**Zəngin ədəbiyyatı və incəsənəti, bənzərsiz memarlıq nümunələri ilə tanınan, yetişdirdiyi fikir, söz adamları, təfəkkür sahibləri ilə məşhur olan Qarabağ torpağı bəşər mədəniyyətinə böyük töhfələr vermişdir. Milli-mənəvi dəyərlərimizi qoruyub saxlayan mədəniyyət beşiyimiz haqqında yazılmış "Qarabağnamə"lər bu füsunkar diyarın tarixini öyrənmək üçün qiymətli mənbələr, ədəbi salnamələrdir. Müxtəlif vaxtlarda qələmə alınmış, bizə məlum olan 10-dan çox "Qarabağnamə"də vətənpərvər tarixçilərin və salnaməçilərin qədim Qarabağ haqqında tarixi gerçəkliyi əks etdirən bədii və publisistik yazıları toplanıb.**

Otuz ilə yaxın bir zaman kəsiyində nankor ermənilərin işğalına məruz qalan Qarabağ torpağı, şükürlər olsun ki, bu gün asudə nəfəs alır, azadlığın bəxş etdiyi qürur hissini yaşayır, yurd yerlərimizi düşmən əsarətindən qurtaran oğulların qəhrəmanlığını əks etdirən yeni "Qarabağnamə"lər ərsəyə gəlir.

Bu ilin sentyabrında Xurşidbanu Natəvan adına kitabxanada tanınmış qələm sahibi, imzası ədəbi cameəyə yaxşı tanış olan yazıçı-publisist, Əməkdar jurnalist Zemfira Məhərrəmlinin "Bədii düşüncədə Qarabağ" adlı kitabının təqdimatı keçirilmişdi. Zemfira xanımın sayca 15-ci kitabı olan bu əsərdə çağdaş ədəbiyyatımızın ünlü simalarının Qarabağ mövzusunda qələmə aldığı bədii nümunələrdən söhbət açılıb və bu bədii mətnlər təhlilə cəlb olunub.

Kitaba "Ön söz" yazan tədqiqatçı-alim, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan "Bədii düşüncədə Qarabağ" kitabını ərsəyə gətirmiş Zemfira Məhərrəmlini Qarabağ mövzusunda müntəzəm yazan, araşdırma aparan, həmçinin hər birimizin hafizəsində, yaddaşında ağrı-acılı izlər qoymuş bu savaşla bağlı bədii hekayələrin müəllifi kimi təqdir edir.

Bu müqəddəs mövzuya müraciət edən qələm sahiblərinin Birinci Qarabağ müharibəsi illərində, ucu-bucağı görünməyən sonrakı ağır, üzüntülü dövrdə yazdıqları, habelə mənfur düşmən üzərində qələbəmizlə nəticələnən möhtəşəm Zəfər savaşımıza həsr etdikləri ədəbi-bədii nümunələrdə qırmızı xətlə keçən vətənpərvərlik ideyası, yurd sevgisi, xalqımızın işğalçılara qarşı bitib-tükənməyən mübarizə əzmi vurğulanıb, önə çəkilib.

İstedadlı yazıçı-pubisistin adı çəkilən kitabını oxuyarkən bir daha əmin olursan ki, dünyanın harasında baş verməsindən, millətindən, irqindən asılı olmayaraq, qanlı vuruşlar, savaşlar insanların həyatını, xoş güzəranını əlindən alır, arzu və diləklərinin üstündən qara xətt çəkir. Müharibələr şəhər və kəndləri viran qoyur, bizim uzun illər ərzində işğal edilmiş yurd yerlərimiz kimi xarabazara çevirir, uşaqlar ata-anasız qalır. Deməli, dəhşətli savaşlar, hərb qovğaları düçar etdiyi iztirabları, fəlakətləriylə bütün xalqlar üçün eynidir.

Söz sənətimizin tanınmış simalarının? R.Rza, X. R.Ulutürk, Anar, Elçin, F.Qoca, S.Rüstəmxanlı, N.Gün, F.Məmmədli, S.Səxavət, E.Hüseynbəyli, R.Məcid, Q.Ağsəs, Q. Nəcəfzadə, E.Z.Qaraxanlı,V.Bəhmənli, A.Abbas, F.Güney, N.Məmmədli, T.Vahid və digər qələm sahiblərinin yaradıcılığında yer alan Qarabağ mövzusu müəllifin tədqiqatının və ədəbi bilgilərinin mizan-tərəzisi ilə incələnmişdir.

Qeyd edim ki, Zemfira Məhərrəmlinin yazıçı tənqidinin diqqətini çəkən sanballı əsərlərin bir qismi görkəmli qələm sahiblərinin Qarabağımızın xain erməni işğalına düçar olduğu illərdə yazdığı bədii nümunələrdir. Bunlar kitabın "Qarabağ: söz karvanı" bölümündə araşdırılıb şərh edilmişdir. Müəllifin "Qarabağ: Zəfər savaşımız" adlı ikinci bölümə daxil etdiyi ədəbi mülahizələri möhtəşəm Qələbəmizi vəsf edən bədii nümunələrin təhlilinə yönəlib. Afaq Şıxlının "Qalibiyyət əsərləri yazmağın zamanıdır", Elçin İsgəndərzadənin "Yazılsın eldən-elə zəfər - bizim zəfərdi", İlqar Fəhminin "Balaca kişilər əsgərdi bu gün", Xəyal Rzanın "Qarabağa Üzeyirlərin qayıdır, Vətən!", Şahin Musaoğlunun "Mübariz", Şövkət Horovlunun "Süngüylə sərhədi cızır oğullar", Nəzakət Məmmədlinin "Qarabağa bahar gəlir, ilahi", İlham Qəhrəmanın "Əldə bayraq, dildə Laçın", döyüşçü-şair Emin Pirinin "Bitsin bu savaş" kimi əsərlərində haqq-ədalət müharibəmizin xalqımıza bəxş etdiyi qələbə sevinci, dirçələn qürurumuz tərənnüm olunub.

Kitabda ümumən 30-dan çox qələm adamının, həm də müxtəlif yazı üslubuna malik şair və yazıçıların bədii mətnlərinə istinad edilib. Bu isə elə də asan iş deyil, araşdırmaçıdan böyük zəhmət, qətiyyət istəyir. Belə kitablar nə qədər çox yazılsa, Qarabağ həqiqətləri, haqq-ədalət naminə mübarizəmiz, erməni terroru, vandalizmi təfərrüatı ilə üzə çıxar. Zemfira xanım Qarabağ dərdimizdən bəhs edən əsərlərə araşdırmaçı gözü ilə baxıb, bu bədii mətnləri təhlil süzgəcindən keçirib.

Moskvada yaşayıb yaratsa da, qəlbi həmişə doğma Vətəni Azərbaycanla döyünən Afaq Şıxlı:

Qalibiyyət xəbərini qoy eşitsin bütün cahan,

Tarixlərə həkk olunsun azad elim Azərbaycan, - deyir.




Həzin, kövrək şeirlər müəllifi Nəzakət Məmmədli Vətən müharibəmizdəki qələbə sevincindən coşğu ilə söz açır, fikirlərini:

İndi Vətən Şuşa ətri qoxuyur,

Qarabağa bahar gəlir, ilahi! - şəklində, coşğu və fərəh hissylə poetikləşdirir.

Şuşada doğulmuş şair, tanınmış elm xadimi Elçin İsgəndərzadə isə möhtəşəm Qələbənin yurdumuza, xalqımıza bəxş etdiyi sevinci ağ günlərə açılan səhərə bənzədərək "Zəfər bizim zəfərdi!" nidası ilə ifadə edir.

Savaş mövzusunda əsərlər müəllifi Z.Məhərrəmlinin "Bədi düşüncədə Qarabağ" kitabının son bölümünə onun müxtəlif illərdə yazdığı Qarabağ hekayələri daxil edilmişdir.

Müəllifin "Sevgimi neylədin, Daşaltı dərəsi?", "Qırxqızın qırxbirincisi", "İyirminci payızın ilğımları", "Sonuncu savaş", "Zəfər yolçuları", "Şuşanı aldıq, Şuşa azaddır" və digər hekayələri əsarətdə qalan yurd yerlərimizin hər qarışı uğrunda çarpışan qazilərimizin, canından keçən, al qanı torpaqlarımıza səpələnmiş şəhidlərimizin şərəfli həyatına, xalqımıza Zəfər qazandıran rəşadətinə həsr edilmiş bədii nümunələrdir. Bu bədii mətnlər eyni zamanda erməni vəhşilər tərəfindən əsir və girov götürülən cəsarət mücəssəməsi, namusunu və qeyrətini başından uca tutaraq, ölümü seçən əxlaq mələyi qadınlarımızın, qızlarımızın ürəksizladan hekayələridir.

Müharibələrin yaratdığı müsibətlər, üzüntülər bir deyil, iki deyil. "Sevgimi neylədin, Daşaltı dərəsi" hekayəsində yüz doqquz yaşlı, şuşalı Fatma nənənin dili ilə nəql olunan acı bir əhvalatla da qarşılaşırıq. O, nəticəsi Gülərə gözü ilə gördüklərindən, hələ illər öncə ? çar Rusiyası dönəmində torpaqlarımızda yerləşdirilən, vəhşiliklər törədən erməni namərdlərin mənfur əməllərindən danışır. Gülər və Salehin sevgisi Birinci Qarabağ müharibəsinin qurşunlarına tuş gəlir. Daşaltı döyüşlərində qəhrəmancasına şəhid olan Salehin və onun deyiklisi Gülərin arzuları yarımçıq qalır.

Mərmilər yağdırılan Şuşanı çətinliklə tərk edən Gülər yol boyu qəhrəman sevgilisi Salehi xatırlayır və düşünür: "Nə vaxtsa doğma Şuşanın dolamalarına qalxa bilsə, Daşaltıya əli yetsəydi, fikrində, xəyalında qövr eyləyən bir sualı dilə gətirərdi: "Sevgimi neylədin, Daşaltı dərəsi?". Bu hekayə Birinci Qarabağ savaşının dəhşətlərini xatırladırsa, "Şuşanı aldıq, Şuşa azaddır" hekayəsi Vətən müharibəmizdə igid oğullarımızın bizə bəxş etdiyi qürur, fəxarət duyğusunu çatdırır. Müəllifin savaş hekayələrində gerçəkliyin? dərdlərimizin,otuz il çəkən hərb qovğasında üzləşdiklərimizin mükəmməl bədii təsviri ilə qarşılaşırıq. Həmin bədii nümunələr o kədərli, nisgilli çağlarımızla bərabər, həm də qürurlu bugünümüzün hekayətləridir.

"Qırxqızın qırxbirincisi" hekayəsi isə erməni quldurların Kəlbəcərin Ağqaya kəndinə od vurub yandırdıqları, qız-gəlinlərimizi əsir, girov götürdükləri o müdhiş günlərdən bəhs edir. Girov götürülmüş Səma və onun körpəsinin acı taleyi erməni vəhşiliyinə oxucu nifrətini ərşə qaldırır. Namus-qeyrətini həyatından uca tutan Səma ölümü tərcih edir. İntihar edərək ruhən azadlığa qovuşur. Ancaq ermənilər yenə də öz çirkin xislətini göstərir, Səmanın körpə balası Nurlanə cinayətkar, vəhşi ermənininin silahının qundağı ilə ömürlük kor edilir. Budur vəhşi, köçəri erməni barbarlığı.

Səmanın həyatı Xanım nənənin söylədiyi Qırxqız dağı əfsanələrinə dönüb tarixləşir. Keçmiş əyyamlarda Qırxqız ərazilərinə basqınlar zamanı düşmən əlinə keçməmək üçün özlərini dərin uçurumdan atan qırx qızın nağılı kimi. Səma bu hekayədə Qırxqızın qırx birincisi nağılına dönür, əfsanələşir. Həmin nağılın davamı idi hörüklərinə taxdığı sancaqla damarlarını kəsib intihar edən namus mücəssəməsi, Vətən sevdalı Səma!

"Sonuncu savaş" isə ələ silah alıb Birinci Qarabağ müharibəsi cəbhələrinə atılan, üzərinə şığıyan yekəpər erməniləri yerə sərən, düşmənlə vuruşan, susuz qalmış əsgərlərə qan-tər içində su gətirən, onlara yardım edən, ən ağır hərbi əməliyyatlarda döyüş qardaşlarının yanında olan, nəhayət, namərd erməni gülləsinə tuş gəlib şəhid olan Vətən qızı Sədaqət Rəcəbovanın həyat hekayəsidir.

"Bədii düşüncədə Qarabağ" kitabında can yanğısı ilə oxuduğumuz bu hekayələr tanınmış qələm sahibi, əsl vətənpərvər olan Zemfira Məhərrəmlinin gözünün yaşı, qəlbinin ağrısı, nifrətinin sərhədsizliyi ilə yazılmış, yurd müdafiəçilərinin qəhrəmanlığından bəhs edən tarixi hekayələr, gələcək nəsillərin yaddaşına ötürülən, dərs kitablarına salınacaq bədii nümunələrdir.

"Zəfər yolunun yolçuları" hekayəsi Vətən müharibəsi illərində qələbəmizdən, əsgərlərimizin hünərindən, yurd sevgisindən, canlarını fəda etmək cəsarətindən söz açan bədii mətnlərdəndir. "Şuşanı aldıq, Şuşa azaddır" sənədli hekayəsində isə Qarabağın tacı olan bu şəhərin şəhidlərimizin qanı-canı, qazilərimizin hünəri ilə murdar ermənilərdən təmizlənməsindən bəhs olunur.

Zemfira xanım hekayələrinin birində yazır ki, "Yəqin nə vaxtsa torpaqlarımız erməni qəsbkarlarından geri alınacaq, qaçqınlarımız yurd-yuvalarına dönəcək, yaralar sağalacaq.

Amma hünərli oğul və qızlarımız ölümsaçan cəbhələrdən bir də geri dönməyəcək, onların nigaran ruhları başımız üstündə sərgərdan dolaşıb, həsrətlə gözlədikləri qələbəmizdən soraq istəyəndə, onlara cavabımız nə olacaq?"

**Əlbəttə, indi haqq dünyasının əbədi sakinlərinin müqəddəs ruhları şəhid qanlarının yerdə qalmadığından, rəşadətli ordumuzun Zəfər müjdəsindən şaddır. Möhtərəm Prezidentimizin təbirincə desək, "Ədalət qüvvətli, qüvvətlilər isə ədalətli olmalıdır". Biz - Azərbaycan xalqı və onun müzəffər ordusu ədaləti bərpa edib, müqəddəs torpaqlarımızı əsl sahiblərinə ? məğrur xalqımıza qaytardıq. Tarixi ədaləti bərpa etdik." Düşünürəm ki, bundan sonra yazılacaq "Qarabağnamələr"də çörəyi dizi üstündə olan, gəlmə, nankor ermənilərin 30 il sürən işğalına son qoymaq üçün Azərbaycan Silahlı Qüvvələrinin öz müdrik Sərkərdəsinin rəhbərliyi ilə apardığı uğurlu döyüş əməliyyatlarından, düşmənin 44 gündə torpaqlarımızdan iti qovan kimi qovulmasından, silah-sursatını, hərbi texnikasını atıb gedən yağıların başına endirlən "dəmir yumruq"dan və möhtəşəm Zəfərimizdən söz açılacaq.**

*Eminquey*

# "Üç"

*Atalar üçdən deyib.*

*Niyə üçdən deyib?*

*İkidən yox, dörddən yox, üçdən.*

*Baxın, məsələn, niyə üç bacı dolması?*

*Məsələn, niyə keçmiş kişilər üç şeydə muğayat olmalı idilər? Arvadından, papağından, atından.*

*Niyə birini boşayarkən üç dəfə "boşadım" deyirlər?*

*Niyə bir şeydən qorxanda üç dəfə "bismillah" deyirlər?*

*Niyə üç badam bir qoz?*

*Niyə meyvələr üç meyvə var?*

*Üç, yeddi, qırx? Sadalayanda üç rəqəmdir.*

*Niyə səmavi dinlər üç dənədir?*

*Niyə bir misal çəkəndə "üç cür insan var", "üç cür sevgi var" deyib üçə köklənirik?*

*Məsələn, niyə Hüseyn Cavid üç dəfə "mədəniyyət" demişdi?*

*Niyə Lenin üç dəfə "oxumaq" demişdi?*

*Niyə məktəbi üç əsas mərhələyə bölmüşük? İbtiadi, orta, ali.*

*Niyə o boyda "Kurtlar Vadisi" serialını üç obrazla xatırlayırıq? Polad, Memati, Abdulhey? Güllü hara getdi?*

*Yılmaz Özdilin "Üçhərfli" yazısını oxudum səhər-səhər.*

*Deyir ki, baxın, Sezarın o boyda çıxışından cəmi üç söz qalıb: veni, vidi, vicci.*

*O da bir çox "üçlər"i xatırlayıb.*

*Xülasə, o deyir ki, insanlar üçdən artığını unudur, üçdən azını isə anlamır.*

*Dörd desən artırqdır, iki desən azdır.*

*Yazını sevdiyim üçün istədim mən də öz əlavələrimi edim.*

*Və axırda da sizə deyim ki, göydən üç alma düşdü, biri sizin, biri mənim, biri də Yılmaz Özdilin...*

## Azərbaycanda 58 nəfər COVID-19-a yoluxub



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 58 yeni yoluxma faktı qeydə alınıb, 45 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

Psixoloq rəyi

# "Müharibə sindromu", yoxsa "kütləvi psixoz?"

***Ötən gün tanınmış rəqqas Dəyanət Məmmədovun intihar etməsi xəbəri sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Maddi vəziyyəti yaxşı olan insanların intihar etməsi cəmiyyətdə fikir ayrılığı yaradıb. Axı, intiharlar niyə artır?***

***Bu günki müsahibim Humel Psixologiya Mərkəzinin rəhbəri, tanınmış psixoloq Tariyel Faziloğludur. Söhbətimiz isə artıq kütləvilik həddini aşan intiharlardandır.***

**- Tariyel həkim, son zamanlar - daha dəqiq son 6 ildə Azərbaycanda intihar hadisələri o qədər artıbdır ki, artıq belə məlumatları eşidəndə təəccüblənmirik. Əvvəllər elə düşünürdük ki, intihar edən qazilər muharibədə aldığı travmanın təsiri altında özlərinə qəsd edirlər. Amma indi intihar hadisəsi baş verməyən elə bir sahə qalmayıb. Psixoloq, müəllim, polis, şagird, tələbə, həkim, rəqqas, əsgər, zabit... Sizcə buna səbəb nədir?**

-Bəzən insanlar elə düşünür ki, qazilər müharibədə aldığı travmalara görə intihar edir. Əslində belə deyil. Məsələ belədir ki, bu intihar edənlərin vaxti ilə aldığı travmalarla bağlıdır.

Azərbaycan insanında aşağılıq kompleksi var. Qəbul etsək də, etməsək də bu, belədir. Biz özümüzə, dövlətimizə, millətimizə, kimliyimizə qarşı natamamlıq kompleksi yaşayırıq. Bu da beynimizə bir düşüncəni hakim edib - hər kəs bizdən yaxşıdır.

**- Bu düşüncəadamı "dəli" etmək qüdrətindədirmi?**

- Nəzərə alsaq ki, Azərbaycanda əvvəlcədən kütləvi psixoz vardı, bu da güvənsizlikdən qaynaqlanan bir psixoz vəziyyət idi. Çünki, Azərbaycan insanı öz məmuruna , müəlliminə, polisinə, həkiminə və s. inanmırdı. Hər şeydə mütləq çoxlu araşdırmalar aparırdı və gərginləşirdi . Beləcə, bu proses cəmiyyətdə kütləvi inamsızlıq, kütləvi psixoz yaradırdı. Bunun arxasınca pandemiya dövrünü də yaşamalı olduq və gərginlik pik həddə çatdı.

**- Bəli o dövrdə , əzizlərimizin adi xəstəlikdən ölməsi, həm də kütləvi şəkildə... Eyni zamanda sabaha sağ çıxmaq inamımızın ölməsi, yaşam tərzi, gündəlik tələbat, qeyri - adi tələblər...**

- Bu kritik hədd insanları intihar həddinə gətirdi və onlar intiharı çıxış yolu gördü. Pandemiya bitməmiş müharibənin başlanması "post müharibə" sindromu yaşadıq.

**- "Post müharibə" sindromu nədir?**

-Bu sindirom sadəcə müharibədə iştirak edənlərdə deyil, müharibə yaşayan cəmiyyətin birbaşa özünə təsir edir və kütləvi psixozumuz daha artıq təhlükəli həddə daxil oldu.

**- Doktor, ümumiyyətlə, "psixoz hal" nə deməkdir?**

-Psixoz - sinir sisteminin kritik həddə çatması, düşüncə və duyğunun ağır formasıdır ki,bu da insanlarda psixoloji imuniteti aradan qaldırır, məhv edir. Psixoloji imuniteti aradan qalxan insanlar mübarizəsini, səbrini, savaşmaq gücünü tamamilə itirirlər və təslim olurlar. Çox zaman isə bunun nəticəsi intiharlar olur.



İntiharlara cəhd haqqında mediada məlumatlar çox az sayda olur. Amma intiharlar haqqında məlumatlar yayılır. Nəzərə alsaq ki, hər 60 intihar cəhdindən biri intiharla nəticələnir.Nəticə olaraq düşünsək ki, Azərbaycan cəmiyyətində intiharlar kütləvi hal alıb, intihara cəhd 60 nəfərdən də çox sayda hesablansa, cəmiyyətdə vəziyyət kritik həddə çatıb. Bu hədd çox təhlükəlidir.

**- Bu halı aradan qaldırmaq üçün hansı tədbirlər görülməlidir?**

- Azərbaycanda təcili olaraq kütləvi psixoloji maarifləndirmə işi aparılmalıdır. İnsanlar ətrafındakı intihara meyilli insanları hiss etməli, ona dəstək olmalı, yaxud da peşəkar dəstək üçün psixoloqlara yönləndirməlidirlər.

Məlumunuz olsun ki, pandemiya dövründə dünyanın bir çox ölkələri psixoloji maarifləndirmə və məlumatlandırma işinə ciddi fikir verdilər , zaman ayırdılar , insanların kütləvi psixozdan əziyyət çəkməsini önləmək üçün media orqanlarında. istər TV-lərdə, radiolarda, saytlarda yer ayrıldı. Məhz bu diqqətdən sonra intihara cəhd və intihar hadisələri bir çox ölkələrdə minimuma endirildi. Cəmiyyətdə psixoloji marifləndirmə və məlumatlandırmanın önəmi çox mühüm yer tutur.

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**

# Xalq artisti səhhətindən şikayət etdi

**Xalq artisti Mələkxanım Eyubova səhhətində problemlər yaşayır.**

Adalet.az xəbər verir ki, xanəndə bu barədə "İkinci həyat" proqramında danışıb. sənətçi deyib ki, səhhətindəki problemin səbəbi peşəsi ilə əlaqədardır:

"Dedilər ki, peşə xəstəliyidir. Dəf çalıram, barmaqlarım ağrıyır. Səhnədə hündürdaban ayaqqabılar geyinirik, belimizə ağırlıq düşür. Çıxışlarımız zamanı istidən soyuğa və ya əksinə məkana daxil oluruq. Bu da sağlamlığımıza təsir edir. Qan işləmir, boyun və baş ağrıları olur. Onurğam da ağrıyır. Hər zaman masaja üstünlük vermişəm.



Gənclik illərimdən bu günə kimi masaja gedirəm. Bu masajlar məni ayaqda saxlayıb. Amma indi problemlər yaranıb. Həkimlər çox zaman deyirdilər ki, gəl ağrıyan hissəni əməliyyat edək. Amma razılaşmıram".

Qeyd edək ki, xalq artisti Mələkxanım Eyubova osteoxondrozdan əziyyət çəkir.

**Əntiqə Kərimzadə**

# Aqşin Yenisey: "Müasir ədəbiyyatda heç bir yazıçı orijinal mətn yazmır..."

**Ölkənin ən böyük Audiokitab şəbəkəsi olan "Audiokitab" mobil tətbiqi Aqşin Yeniseyin "Soyuğa inansan, donacaqsan" audiokitabını təqdim etdi.**

Esselərdən ibarət yeni kitabdakı maraqlı fikirləri yalnız "Audiokitab"a abunə olmaqla dinləmək mümkündür. A. Yeniseyin sözlərinə görə, esselər bir neçə il əvvəl çox kiçik tirajla nəşr olunduğundan, oxucuların əksəriyyəti kitabı əldə edə bilməyib. "Soyuğa inansan, donacaqsan" essesi insanlar üzərində keçirilən qorxunc eksperimentdən - adi bir təlqinlə normal temperaturda donub ölənlərdən bəhs edir. Müəllifin bu eksperimentdən çıxardığı məntiq: kor-koranə inanc insanın və toplumun düşüncəsini "stop"a salar, özünüməhvə qədər aparıb çıxarar...

"Audiokitab" mobil tətbiqinin təşkil etdiyi görüşdə A. Yenisey zamanın ən böyük bəlasından - mədəniyyəti udan subkulturanın təhlükəli tendensiyalarından danışdı: "Cavanları o dəhşətli burulğandan xilas etməliyik...Bu yolda hər cəhd dəyərlidir. Dünya və Azərbaycan ədəbiyyatından mindən artıq gözəl nümunə sələndirmiş "Audiokitab"ın xidmətləri də məhz bu mənada danılmazdır..."

Yeniseyin fikrincə, müasir dövrdə heç bir müəllif orijinal mətn yazmır: "Mən və digərləri romanlarımızı vaxtilə yaşayıb yaratmış dahilərlə şərikinə yazırıq. Yəni hökmən kiməsə istinad edir, sitat gətirir, mövzuya qayıdır, nə zamansa söylənmiş həqiqətləri yeni zamanın dilinə adaptasiya edirik. Məsələn, Umberto Ekonu Azərbaycanda oxuyan az adam tapılar. Elə isə Ekonun dərin fikirlərinin xülasəsini bir esse ilə çatdırmağımın nəyi pisdir?"



Təqdimatdan dərhal sonra, "Soyuğa inansan, donacaqsan" audiokitabı tətbiqə yükləndi. Mədəniyyət tarixini araşdıran A. Yeniseyin müxtəlif mövzularda esselərini, cəsarətli və mübahisəli "diaqnoz"larını dinləmək üçün Audiokitab mobil tətbiqinə abunə yazılmaqla, ədəbiyyatsevərlər eyni zamanda mindən artıq dəyərli əsəri virtual kitab rəfində görəcək.

**Eminquey**

# Kişi ömrü

**Kəbirlilərin tarixindən son iki yüz ildə geniş yazılmasına, onların Qarabağ xanlığının qurulub tərəqqi etməsində böyük rol oynamalarına baxmayaraq, ölkəmizdə, İranda, Əfqanıstanda, Pakistanda məskən salmış bu, tayfanın tarixi qədim zamanlara gedib çıxır. Ən qədim türk tayfalarından olan kəbirlilər e.ə III-V minilliklərdə bu torpaqlarda muğanlılarla bərabər yaşayır, əkinçilik və maldarlıqla məşğul olurdular. Qədim"Avesta"da kəbirlilərin müqəddəs olduqları vurğulanır.( ASE, VII cild.səh.200)**

Kəbirlilərin dövlətə sədaqətli, etibarlı, eyni zamanda ağıllı, tədbirli, təmkinli olduqları hamıya məlumdur. Onlar haqqın, ədalətin keşiyində həmişə sayıq dayanırlar.



Bu yazıda əsl kəbirli balası olan,mərhum şairimiz Ənvər Əhmədin əmisi nəvəsi Sərvət Əli oğlu Qəhrəmanov haqqında danışmaq istəyirəm. 1967-ci ildə Ağcabədinin Salmanbəyli kəndində dünyaya göz açan Sərvət orta məktəbi bitirmiş, orduda xidmət etmişdi. Amma bütün bunlara baxmayaraq həyatda çox şeyləri bilirdi. Oxumuş adamlardan daha çox bilən və görən dağ cüssəli Sərvət tədbirli, təmkinli olduğu kimi həm də çılğın idi. Məclislər yaraşığı olan Sərvətin gözündə həmişə həyat, yaşam eşqi qaynayırdı. Ailənin kiçik oğlan uşağı olsa da, atası dünyadan vaxtsız köçəndə Sərvət böyüklük missiyasını öz çiyninə götürdü. Vaxtından dəfələrlə tez yetişən, cavanlığında ağsaqqal olan Sərvət olduqca qoçaq, geniş dünyagörüşlü, dosta sədaqətli, düşmənə qarşı yağı idi. Ailələrinin, qohuməqrəbanın sözün əsl mənasında böyüyü, ağsaqqalı, güvən yeri idi. Yaxşı pul qazanırdı və yerində,lazımi adamlara bu pulu ürək açıqlığı ilə xərcləməyi bacarırdı. Tanıdığı, tanımadı, ehtiyacı olanların hamısının qolundan tutur, vaxtında kömək əlini uzadırdı. Haqsızlığa dözməz, səsini ucadan çıxarardı. Ondan ötrü həll olunmayan, çətin, problemli bir iş, məsələ yox idi. Hamı ilə dil tapmağı bacaran, misilsiz bacarığı olan Sərvət başqalarının problemli işini həll edib, yoluna qoyanda mənən rahat olurdu. Baxma ki, ömür boyu ayaqüstə səksəkəli,şirinli-acı həyat sürən əmioğlu həmişə narahat idi. Haqqdan qaçanları açıqca qınayardı. Susmazdı. Qonşusu, əmisioğlu Eldarın kiçik oğlu, Vətən müharibəsinin yaxın iştirakçısı İlqarın savaşa necə getdiyini çoxlarına, Ağcabədidə yaşayan, əslən o işğal altında olan torpaqdan olanlara misal çəkərdi. Deyərdi ki, İlqar müharibəyə sakit, saymazyana və böyük ürəklə getdi. Səs-küysüz, aşağıdan eyvanda yolunu gözləyən həyat yoldaşına təkcə mənim hərbi biletimi ver, mən oralara gedirəm deyib, başının işarəsi ilə Şuşa tərəfləri göstərdi. İlqar müharibədə olarkən onun son beşiyi, balaca şeytan Zərifi kçədə görəndə, əsgər qızından bir marş deyib ona təzim edərdi. Zərif də bir əsgər kimi onun yanından hərbi addımlarla keçərdi. Sərvətin belə anlarda ürəyi qürurdan köksünə sığmazdı. Tez Zərifi qucaqlayıb març, yanaqlarından öpərdi. Cibinə pul qoyardı. (Zərif bu pulları xərcləmədi, atası İlqar 44 günlük müharibədən qayıdanda eyvandan onun başına səpdi...)

... Zərif tez-tez Sərvətin çayxasına babası Eldarla baş çəkərdi. Axşamın sərinində burada mürəbbəli çay içərdi, Sərvət əmisi ilə söhbətləşər, dərdləşərdi. Zərif kövrək əlləri ilə atası İlqarın əlindən tutub evlərinə sarı gələndə Sərvətgilin hasarının yanında çadırlanmış uzun və böyük mağarı görüb, atasından onun nə olduğunu soruşdu. Atası İlqar onun körpə könlünü sındırmamaqdan ötrü Sərvət əmi cənnətə getdi deyə cavab verdi. Zərif bir an duruxdu, mağara baxıb dərindən köksünü ötürdü. Ata, yalan demə, cənnət belə olmur. Eşitmirəm, arvadlar, bacıları Sərvət əminin adını çəkib ağlayır, özlərini öldürürlər. Sərvət əmi, de ki, vəfat edib. Elə yaxşı əmi idi ki, kaş mən öləydim, o, qalaydı...

Məndə hərdən belə düşünürəm:

*Bu*
*dünyada günahsızdır,*
*Bir*
*hamilə qadın,*
*Bir də*
*dimdiyinin*
*sarısı getməmiş*
*Ətcə sərçə balası...*

Sərvət də belə fikirləşir, düşünürdü. O, nəyin sərhəddinin harda bitdiyini, nəyin sonunun başqa nəyin başlanğıcı olduğunu yaxşı bilirdi... Çoxdan tanıdığı, hər gün ünsiyyətdə olduğu birini çayçıda müqəddəs amal uğrunda canlarını fəda edən şəhidlərimizin ünvanına söylədiyi mənfi sözlər Sərvəti yandırdı, tökdü. Sərvət onun üstünə şığıyıb boğmaq istəyəndə o, qaçmağa üz tutdu. Sərvət onu evinə qədər qovdu. Və qapısında, evin qabağında tutdu. Ürəyi soyusun deyə onu, yumruqla yox, bir tərəkəmə balası kimi, ağacla döyməyə başladı. Döydüyünün hamilə arvadı özünü ortaya atıb ərini qorumağa, Sərvətin zərbələrindən qurtarmağa çalışdı. Növbəti zərbələr hamilə qadına dəydi. Çünki bu an Sərvətin gözü önünə torpaq uğrunda canından keçən, torpağı al, isti qanları ilə yoğuran, onun yarasına məlhəm olan şəhidlərimiz gəlirdi...

O, bu torpağın oğlu kimi əkin-biçin işləri ilə məşğul olardı. Kəndimizin üstündə yerləşən Haramı düzündəki öz torpağında fərdi təsərrüfatında hər il buğda əkər, qoy çörək bol olsun deyərdi. Və Ana torpaq, doğma yerlər üçün darıxanda dərhal Haramıya üz tutardı. Buranın yovşanının acı qoxusu dərmandır. Adamı sağaldır, dinə imana gətirir deyirdi.

... Onu həmişə hərəkətdə olan, hara isə, nə üçünsə (bəlkə də doyunca yaşamaq üçün) tələsən görürdün. Ömrün hamısını yaşamaq istəyirdi O.

Obaşdan durub yuyundu. Adəti üzrə çayının soyumasını gözləyərək sol əlindəki siqareti yandırmaq üçün kibrit tutan sağ əli havada qaldı. Vücudunun sol tərəfindən ürəyi onu həyatla vidalaşmağa vadar etdi. Siqareti yanmamış söndü. Yanan doğmaları, yaxınları,biz olduq. Vaxtı ilə Sərvətin atasının və üç böyük qardaşının həyatına vaxtsız balta çalan ürək bu gün də onu ölümün qara rəngli qucağına atdı.

Gözəgörünməz, ilahi qüvvəyə qadir olan ölüm Sərvəti günün sabah çağı, utanıb, qızarmadan, heç uf da demədən apardı. Nəslinin ağsaqqalı olan, indi onsuz qalan, ondan ötrü saçlarını yolan bacılarının acı gözyaşlarını görmədi Sərvət. Adının mənası kimi, özü də dünyanın mənəvi sərvəti olan Sərvət bir göz qırpımında uçub getdi, heç arxaya boylanmadı, baxmadı da. Tanrının dərgahına üz tutdu. Cəmi 55 yaşında, həyatdan vaxtsız köçmüş atasının və böyük qardaşının adlarını qoyduğu oğlu ƏliSahibin toyunu görmək arzusu ürəyində qaldı.

... Torpağa əbəs yerə Ana demirik. Onun **qucağı bizə doğma, əzizdir. Sən də ana torpağın isti qucağında rahat uyu, yat. Sən babanın Qəhrəman adını, öz soyadını həyatda əsl kişi kimi yaşatdın, daşıdın. Kişi ömrü sürdün, başqalarına örnək olan ömür sürdün, qardaş!**

**Allah sənə rəhmət eləsin!**
**Məzarın nurla dolsun!**

**Adil MİSİRLİ**

# Yoahim Lövdən Məsut Özilə vəfa borcu paylaşımı

**Futbol üzrə Dünya Çempionatı ilə vidalaşan Almaniya ilə bağlı alman məşqçi Yoahim Löv paylaşım edib.**



"Almaniyanın faciəvi şəkildə qrupu üçüncü yerdə bitirməsi məni çox kədərləndirdi, mənim vaxtımda çox qaçan və mübarizəni əsla yarımçıq qoymayan bir milli yığma vardı, o yığmanın futbol zəkası və bacarıqları əsla müzakirə olunmayacaq, bir də kapitanı Məsut Özil var idi.

Bir çox oyunda millinin necə oynaması lazım olduğunu Məsut ilə birlikdə qərar verirdik, oyun sistemini onun üzərində qurduğum zaman çox tənqid olunurdum, amma onun kuboku qazandığımız vaxt hər kəs nə qədər doğru bir qərar verdiyimi anladı, bəzi anlaşılmazlıqlar oldu, amma mən Məsutu həmişə çox istəmişəm, ona çox güvənmişəm, ona sahib çıxmadığımı və milli yığmadab ayrılmasına səbəb olduğumu deyirlər, amma bu deyilənləri qəbul etmirəm.

Məsut Türkiyə milli yığmasına qatılmaq üçün çox gözlədi, dəfələrlə xəbər göndərdi amma ona cavab vermədilər, sonra şəxsən mən ona zəng elədim və əgər Türkiyə millisinə qəbul etmirlərsə, onu milli yığmamızda görmək istədiyimi dedim, qısa bir müddət də gözlədi, Türkiyədən cavab gəlməyincə təklifimi qəbul etdi, onunla dünya kubokunu qazandıq və ona mən sahib çıxdım, siyasi səbəblərdən dolayı bəzi söz-söhbətlər oldu və Məsut özü milli yığmadan çıxdığını açıqladı. Bəlkə biraz dəstək olduğumuz doğrudur, amma bizim də üzərimizdə təzyiqlər var idi və artıq bir şey edə bilmədik. Almaniya milli yığması onun zəhmətini unutmamalıdır. Hamımızın ona bir vəfa borcu var".

**Eminquey**

# Misir Qasımlını "günahkar " çıxardanlar, "Arsen Avakov mafiyası"nı da qınayın...

**Dünəndən sosial şəbəkələrdə qızgın müzakirələr gedir. İstifadəçiləri bir-birinə düşürən mövzu isə Vətən Müharibəsi qazisi, "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunan, 29 yaşlı soydaşımız Misir Qasımlının və onun dostu Sübhan Quliyevin Ukrayna məhkəməsi tərəfindən 8 il müddətinə həbs edilməsidir.**

Məlumat yayılan dəqiqələrdən sosial şəbəkə istifadəçiləri "Misir Qasımlı tərəfdarları" və "Misir Qasımlı əleyhdarları" olaraq 2 qrupa bölünüblər. Maraqlıdır ki, məsələlərin kökünə işıq sala bilməyən, ( işıq salmaq istəməyən - red- Ə.R) amma cəmiyyətdə xüsusi çəkisi olan simalar da var ki, savadı, məsələ haqqında bilgisi olmayan, məsələ ilə bağlı heç bir araşdırma aparmaq imkanı olmayan insanlar kimitatuslar yazır, Misiri günahkar çıxarır, və cəmiyyəti çaşdırırlar. Belə şəxslərin qərib ölkədə həbsə məhkum olan soydaşına qarşı "günahkar çıxartma" münasibəti nəinki, təəccüblüdür, hətta deyərdim ki, xəyanətdir.

Eynən! 2004-cü ilin yanvarında igid eloğlumuz, hərbçi Ramil Səfərov Macarıstanda hərbi təlimdə olarkən, baş verən hadisə zamanı bəzi soydaşlarımızın Ramilə göstərdiyi münasibət! Yadınızdadırsa, Ramil erməni leytenant Qurgen Markaryanı Azərbaycan bayrağını təhqir etdiyi üçün qətlə yetirmişdi. Buna görə soydaşlarımızın xeyli hissəsi az qala Ramil Səfərova qarşı "səlib yürüşünə" start vermişdi. Sonra nə oldu?Onun barəsində ömürlük həbs qərarı çıxarıldı. 8 il sonra - 2012-ci il avqustun 31-də Azərbaycan Prezidentinin səyi ilə Budapeşt şəhərindəki həbsxanadan çıxarılaraq Bakıya gətirildi. Daha sonra Prezidenti İlham Əliyevin sərəncamı ilə əfv olundu. Bunun ardınca Azərbaycan Silahlı Qüvvələrində xidmətə bərpa olunan Ramil Səfərova müdafiə nazirinin əmri ilə mayor rütbəsi verilib. Eyni zamanda ona hər bir şəraiti olan 3 otaqlı mənzil də bağışlandı. Həmçinin ona Müdafiə Nazirliyi həbsdə olduğu 8 il müddətində toplanmış əməkhaqqı verildi.

### *Misir Qasımlı cinayətkardı, yoxsa, ortada bir qisasçılıq ssenarisi var?*

Əvvəlcə bir araşdırma aparaq, görək, doğurdanmı, M.Qasımlı həqiqətənmi "adam oğurluğu" ilə məşğul olub, yoxsa, özünü, ətrafının, eyni zamanda vəkilinin dediyi kimi bu bir şər və böhtandır.

Ukrayna dost ölkədir. Azərbaycanlılar orda Ukraynanı dəstəkləyir və bu ölkə uğrunda Rusiyaya qarşı döyüşür. 40-dan çox Azərbaycan əsilli döyüşçü həlak olub. (Yeri gəlmişkən, I Qarabağ və yaxud Vətən müharibəsində bizim sıralarımızda heç olmasa 10 ukraynalı gördünüzmü? Azərbaycan dövləti və xalqı fevral ayından bu günə qədər(baxmayaraqki, qarşısında Rusiya kimi məkrli, səhvi bağışlamayan bir hegemon durub) maddi və mənəvi dəstəyini Ukraynadan əskiltməyib. Eynisini biz 30 ildə gördükmü? Bunu da deyim ürəyimdə qalmasın: Ukrayna səhiyyə nazirinin müavini, baş sanitar həkim Viktor Lyaşko müsahibələrinin birində qeyd etdi ki, pandemiya başlayanda Ukraynaya yardım əli uzadan ilk ölkələrdən biri Azərbaycan olub. Bu ilin avqustun 3-də Bakıdan və Gəncədən Ukraynaya ərzaqdan ibarət ümumilikdə 101 tonluq humanitar yardım göndərilib. Ölkəmiz daha əvvəl Ukraynaya dərman, tibbi avadanlıq, tibbi ləvazimat, ərzaq və uşaq yeməyindən ibarət 807 ton humanitar yardım göndərib.

Deməк ki, hər iki halda o dostluq, mehribançılıq, həmrəylik dəstək məhz biz azərbaycanlılar tərəfindən yaranıb və qorunub. Yenə də deyirəm, bütün hallarda Ukrayna dost ölkədir.

### *İndi keçək, bu ölkədə ermənilərin fəaliyyətinə*

Ukrayna ən çox erməni yaşayan 5 ölkədən biridir. Burada 2001 -ci ilin siyahıyaalınmasına görə, erməni əhalisinin sayı 100000-ə yaxındır, daha dəqiq, 99,894 nəfər təşkil edir.

Ermənilər ən az sayda olduqları ölkələrdə necə böyük diaspora və digər güclü təşkilatlar yaratdığını bilirsiniz. Ən məsul vəzifələrə öz soydaşlarını necə yerləşdirdiyi də sizə məlumdur. Məsələn, Kiyev Vilayət Dövlət Administrasiyasının rəhbəri

Mixail Bno-Ayriyan Kiyev Vilayət Dövlət Administrasiyasının rəhbəri, Arsen Avakov(Avakyan)Daxili işlər naziri(2014-2021) vəzifələrində olarkən azərbaybaycanlılara qarşı çox qərəzli yanaşıb. Azərbaycan əsilli ukraynalılara səlahiyyət imkanları daxilində Avakov daha çox zərbə vurub. Bir faktı yadınıza salım: 2016-cı ilin aprel döyüşlərindəki uğurdan sonra Ukraynada çalışan azərbaycanlı iş adamlarına qarşı kriminal hadisələr intensivləşdi.

Həmin ili Azərbaycanlılara məxsus 12 iri restoran yandırldı, 6 bahalı avtomobil qaçırıldı. 2014-cü ilin mayında "Ukrayna Azərbaycanlıları Konqresi"nin və "Ukrayna Millətlər Məclisi"nin sədri Rövşən Tağıyevə qarşı sui-qəsdlər, Kremençik şəhər bələdiyyəsinin sədri Oleq Tağıyevin öldürülməsi, iş adamı Xızır Məmmədov, Təbriz Ələkbərov və adlarının çəkilməsini istəməyən yüzlərlə azərbaycanlının polis tərəfindən soyulmasının arxasında "Avakov mafiyası"nın olması artıq kimsəyə sirr deyil.2016-cı ilin sentyabrında soydaşlarımız Daxili İşlər Nazirliyi qarşısında etiraz aksiyası keçirdilər. Azərbaycan ictimaiyyəti və dövləti də bildi ki, həm oliqarx, həm də mafiyoz olan Arsen Avakov 2014-cü ildən vəzifəsinə başlayandan yəni 2 il ərzində 20-dən çox azərbaycanlı iş adamı və iş adamlarının övladları oğurlandı, tanınmış azərbaycanlılara sui-qəsdlər təşkil edildi. Lakin bu cinayətlərin üstü hələ də açılmayıb, heç kim cinayət məsuliyyətinə cəlb edilməyib.

### *Ukraynada Arsen Avakov "sindromu" - Mafioz, oliqarx, qisasçı erməni*

Hətta 2020-ci ilin iyununda cəmiyyətdən gələn narazılıqlar nəzərə alınaraq Arsen Avakovun istefası məsələsi Ukrayna Ali Radasına da çıxarıldı və o 2021-ci ildə istefa verdi. Yeri gəlmişkən, "Yeni Müsavat" qəzetinin keçmiş əməkdaşı, o dönəmdə Ukraynanın Odessa şəhərində yaşayan Anar Natiqoğlu Avakovun istefasına "Vətən savaşında qələbədən sonra aldığı ən xoş xəbər" şəklində reaksiya verib. Anar Natiqoğlu deyib ki, Avakov vəzifədə olduğu dönəmdə erməni lobbisinin təsiri altında olub: "Özünü daha çox erməni lobbisinin Ukraynadakı rezidenti kimi aparırdı..."



Anar Natiqoğlu onu da qeyd etmişdi ki, Arsen Avakovun açıq şəkildə erməni təəssübkeşliyi olduqca dözülməz hal almışdı: "Xüsusən 2020-ci ildə Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi Avakovun azərbaycanlılara qarşı bütün mahiyyətini ortaya çıxardı. Hər bir imkanda Ukraynada yaşayan azərbaycanlılara qarşı addım atırdı.

Kriminalist-ekspert İlqar Altayın ötən il verdiyi açıqlamaya nəzər salaq: Azərbaycanlılara qarşı törədilən qətllərin arxasında Ukraynadakı ermənipərəst qüvvələrin "əl"i var. "Xüsusən də bu işlərin arxasında Ukraynanın erməni əsilli daxili işlər naziri Avakov durur. Avakov normal insan deyil. Mafiozun biridir. Dövlətdə, silahlı qruplaşmalarda və kriminal aləmdə dayaqları var. Ona görə də ona təsir edə bilmirlər".

Maraqlıdır, görəsən Misir Qasımlıda günah axtaran soydaşlarımız bilirmi ki, 7 il Ukrayna kimi böyük bir dövlətin DİN olmuş, oliqarx, mafioz , erməni xislətli milyarder onun xalqına məğlubiyyət yaşatmış bir giziri, bir vətənpərvər döyüşçünü rahat buraxarmı? Nə olsun ki, hazırda o mafioz yüksək vəzifədə deyil, amma kim zəmanət verə bilər ki, Ukrayna dövlət və hökümət orqanlarında onun əmrinə, puluna, silahlı qruplaşmasına xidmət etməyən ukraynalı yoxdur?Yəni, mənim soydaşlarım o qədər sadəlövh deyil ki, 7 il DİN-i işləmiş bir milyarderin gücsüz olduğunu, adi bir rayon məhkəməsinə hökmü çatmadığını düşünsün ...

### *Ukraynadakı fürsətçil erməniəsilli məmurlar - kor ilanlar*

Bir faktıda unutmadım: Ermənistanın Ukraynadakı səfiri Tiqran Seyranyan 2019-cu ildə səfirliyin sosial şəbəkələrdəki rəsmi səhifəsində Qarabağa qanunsuz səfər etdi. Erməni səfirin təxribatı Ukrayna XİN ölkə vətəndaşlarını Dağlıq Qarabağ, Cənubi Osetiya və Abxaziyaya səfər etməməklə bağlı çağırışından sonra həyata keçirildi. Seyranyanın cəzasız qalması Avakovun "krişalığı" sayəsində baş tutmadımı?

Bəlkə elə düşünürsünüz ki, Ukrayna parlamentində oturan erməniəsilli deputatlar Ukrayna xalqını çox sevir?

Ukryanadakı "Erməni Birliyi" təşkilatının sədri , deputat Vilen Şatvoryan parlamentdə "Erməni soyqırımı" qurbanlarının xatirəsinə ehtiram göstərilməsinə dair Ukrayna hökümətinə qanun qəbul edilməsini təklif edərkən, sizcə, onda erməni yoxsa ukraynalı duyğuları qabarmışdı?

Daha sonra məhz müxalifət partiyasının üzvü Qeo Leros (əsil adı Gevorq Baqratoviç Kurexyan) Ukrayna Azərbaycanı dəstəklədiyini bildirəndən sonra aqresivləşdi və iclasda iştirak edən ölkə başçısı Vladimir Zelenskiyə orta barmağını göstərərək təhqir etdi.

Ukraynada erməni birliyinə, rifahına, xalqına, dövlətinə xidmət edən o qədər erməniəsilli, yüksək çinli məmur, mafioz, oliqarx terrorçu var ki, günlərim o faktları yazıb qurtarmağa bəs eləməz! "Qəhrəman, məğlubedilməz erməni" mifini 44 gündə yerlə yeksan edən igidlərimizə qarşı hələ qarşıda nəinki Ukraynada, həm də bir çox ölkələrdə tələlər qurulacaq, cinayət ssenariləri yazılacaq, həbsxanalar, məzarlıqlar dolacaq! Buna əminəm, çünki o qəhrəmanların arxasında duracaq olan soydaşları sizin kimi (ən yüngül formada) sadəlövh və hücumçusunuz!

Obuxov rayon məhkəməsindən başqa rəsmi olaraq kim dedi ki, Misir cinayətkardır?

Ukraynaya təyin olunmuş səfirimiz, Allaha şükür ki, fevral ayından Bakıdadır. (Özü təsdiqləmişdi). Qazinin Ukrayna DİN tərəfindən saxlanılmasından 2 ilə qədər vaxt keçməsinə baxmayaraq, ötən gün nəhayət Pravda.az-ın əməkdaşının sorğusuna cavab olaraq xanım səfir bildirib ki, Misir Qasımlının məsələsi ilə bağlı səfirlik nə lazımdırsa edib: "Axırı yaxşı olacaq. Səfirlik yenə də nə lazımdırsa, edəcək. Amma məhkəmə işlərinə biz qarışa bilmirik…"

O, daha sonra qeyd edib ki, bu sual Xarici İşlər Nazirliyinə, Azərbaycanın Ukraynadakı müvəqqəti işlər vəkili Sabir Rzayevə ünvanlasa, daha münasib olar…

Deyəsən çox danışdım...

Əziz soydaşlarım, əmin olmadığınız, faktlarını görmədiyiniz bir olaya, bir soydaşımızın taleyinə belə aqressiv yanaşmayın! Axı, Misirin və Sübhanın ispaniyalını döyməsi ilə bağlı hansı faktlar (video, foto, şahid) var? Niyə o faktlar yayınlanmayıb?

Son olaraq: Tovuz rayonunun Dondar Quşçu kəndi sakini 2009 təvəllüdlü Nərmin Quliyevanın öldürülməsi hadisəsinə nəzər salın! Nərmin Quliyeva 21 noyabr 2019 tarixində qaçırılmış, 45 gün sonra yanvarın 6-da ölü bədəni yandırılmış şəkildə tapılmışdır. Qətli isə İlkin Süleymanov adlı özünü müdafiə etməkdə güclük çəkən günahsız birinin boynunda qalıb. Adi məktəbli də anlayır ki, İmpotent və əqli sağlığında problemi olan biri bu cinayəti nəinki törətməz, hətta onu zormış olsa belə, 45 gün Nərmini gizlətmək, onu yandırmaq ağlına da gəlməzdi. Eləcə də, 2017 -ci ildə "Tərtər cinayətləri" işində "vətən xaini", "satqın" adlandırılaraq öldürülən hərbiçilərin bir hissəsi bəraət aldı, 19 nəfər hərbçi isə günahsız olduqları üçün həbsdən azad edildi.

Ədalət gec bərqərar olar, amma mütləq olar! O zaman çalışın, vaxtılə günahlandırdığınız günahsız soydaşlarınınızın gözünün içinə baxanda utanıb- qızarmayasınız.

***P.S.** Misir Qasımlı , eləcə də qazilər haqqında qərəzli danışanlar, xahiş edirəm, "od püskürməyə", "günahlandırmağa" başlamamışdan əvvəl yadınıza salın, görün, bu xalq, bu dövlət, bu vətən üçün nə etmisiniz? Necə deyərlər, "tanrı tərəzi"sinə bir daş qoya bilmisinizmi? Doğrudan da əgər hansısa qazinin günahı, varsa, imkan verin onu haqqı olanlar, məsələn qazi qardaşları qınasın, dövlət də müəyyən ölçülər götürsün! Siz Allah susun!*

**Əntiqə Rəşid**

## *Mbappe 24 yaşında Ronaldo ilə Messidən daha çox qol vurub*

***Braziliya və Cənubi Koreya meydançaya çıxanda ağlıma Mbappe gəldi. O, bu obrazla getsə, rekord ardınca rekord qıracaq.***

***Mbappe 24 yaşına çatana qədər 250 qol vurub. Messi 24 yaşında 197, Ronaldo 132 qol vurub.***

***Bu fransız futbolçu karyera nərdivanında qəribə bir yerə gedir...***



***Braziliya oyuna samba ilə başladı.***

***Braziliyalılar 11 dəqiqə ərzində 2 qol vurdular, Viniciusla Neymarın qolları Cənubi Koreyanı əməlli-başlı silkələdi. Braziliya millisinin mayasında həmişə estetika, çəldlik və hücum cəhdi var. Richarlisonun üçüncü qolunda gözəl qolu necə asanlıqla vurmağın anatomiyasını gördük.***

***Braziliyanı dayanmadı, Paqueta dördüncü qolu vurdu. Hakim matçın 38-ci dəqiqədə bitdiyini desə, Cənubi Koreyalı futbolçular paltardəyişmə otağına tələsəcək bir durumda idilər. Braziliya fərqdən sonra yenə məşq tempinə qayıtdı.***

***Sual olunur ki, onlar Xorvatiyaya qarşı bu qədər rahat olacaqlarmı? Bu komanda rəqibləri üçün qorxulu yuxudur...***

***Seung-Ho Baek yaxşı qol vurdu. Koreyalılar Braziliya ilə oyundan qalan gözəl bir xatirə idi. Buna da şükür etsinlər!***

***Eminquey***

Aqil Abbas Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri **MAHMUD NƏBİYEVİN** vəfatından kədərləndiyini bildirir, mərhumun əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 108
Çapa imzalanmışdır: 09.12.2022